AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ
ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ

AZERBAIJAN STATE PEDAGOGICAL UNIVERSITY

**ISSN 2664-407X**

# Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri

# Актуальные проблемы музыкальной науки, культуры и образования

# Actual problems of the science, culture and education of music

**www.adpu.edu.az**

**2021 №1 (9)**

**Redaksiya şurasının sədri**

C.M.Cəfərov — tarix üzrə elmlər doktoru, professor

**Redaksiya şurasının sədr müavini**

A.D.Zamanov — fizika-riyaziyyat elmləri doktoru, professor

**Redaksiya heyəti**

| | |
|---|---|
| Fərəh Əliyeva | sənətşünaslıq üzrə elmlər doktoru, professor |
| Fərhad Bədəlbəyli | Bakı Musiqi Akademiyasının rektoru, professor |
| Firəngiz Əlizadə | Azərbaycan Bəstəkarlar İttifaqının sədri, xalq artisti, professor |
| Səyavuş Kərimi | Azərbaycan Milli Konservatoriyasının rektoru, xalq artisti, professor |
| Zemfira Səfərova | sənətşünaslıq üzrə elmlər doktoru, AMEA-nın müxbir üzvü, professor |
| Ceyran Mahmudova | ADMİU-nun rektoru, sənətşünaslıq üzrə elmlər doktoru, professor |
| Rəna Məmmədova | sənətşünaslıq üzrə elmlər doktoru, AMEA-nın müxbir üzvü, professor |
| Gülnaz Abdullazadə | fəlsəfə üzrə elmlər doktoru, professor |
| Rəna Abdullayeva | sənətşünaslıq üzrə elmlər doktoru, professor |
| Yuliy Əliyev | pedaqogika üzrə elmlər doktoru, professor (Rusiya) |
| Oqtay Rəcəbov | pedaqogika üzrə elmlər doktoru, professor |
| Sevda Qurbanəliyeva | sənətşünaslıq üzrə elmlər doktoru, professor |
| İmruz Əfəndiyeva | sənətşünaslıq üzrə elmlər doktoru, professor |
| Çingiz Abdullayev | kulturologiya üzrə elmlər doktoru, professor |
| Vidadi Xəlilov | pedaqogika üzrə elmlər doktoru, professor |
| Vladimir Adişev | pedaqogika üzrə elmlər doktoru, professor (Rusiya) |
| Eduardas Balçitis | pedaqogika üzrə elmlər doktoru, professor (Litva) |
| Anatoliy Bolqarskiy | pedaqogika üzrə elmlər doktoru, professor (Ukrayna) |
| Anatoliy Qoremıçkin | pedaqogika üzrə elmlər doktoru, professor (Ukrayna) |
| Rauf Kadırov | pedaqogika üzrə elmlər doktoru, professor (Özbəkistan) |
| Yelena Nikolayeva | pedaqogika üzrə elmlər doktoru, professor (Rusiya) |

**Baş redaktor**

Jalə Qədimova — pedaqogika üzrə elmlər doktoru, professor

**Baş redaktorun müavini**

Tamilla Kəngərli — pedaqogika üzrə elmlər doktoru, professor

**Elmi redaktor**

Fərrux Rüstəmov — pedaqogika üzrə elmlər doktoru, professor

**Məsul redaktor**

Gülçöhrə Alıyeva — filologiya üzrə fəlsəfə doktoru, dosent
Həcər Hüseynova — filologiya üzrə elmlər doktoru, dosent

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin**
**Elmi Şurasının 15 aprel 2016-cı il, 15 saylı qərarı ilə çap olunur.**
Təsisçi: **Azərbaycan Respublikası Təhsil Nazirliyi**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**

Jurnal ildə iki dəfə çıxır.
Azərbaycan Dövlət Pedaqoji Universiteti Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri №1 Bakı, 2021, 82 səh.
Ünvan: AZ 1000, Azərbaycan Respublikası, Bakı, Üzeyir Hacıbəyli küçəsi 68
Адрес: AZ 1000, Азербайджанская Республика, Баку, улица Узеира Гаджибейли 68
Address: AZ 1000, Azerbaijan Republic, Baku, Uzeyir Hajibeyli street 68
Tel.: (99412) 493-00-32
Fax: (99412) 598-10-35
e-mail: n_s_q@mail.ru

## Sahələr üzrə redaksiya komissiyaları:

- **Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi ixtisası üzrə:** pedaqogika üzrə elmlər doktoru, professor Tamilla Kəngərli (sədr), pedaqogika üzrə fəlsəfə doktoru Firəngiz Rzayeva, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Nelli Abutidze, pedaqogika üzrə fəlsəfə doktoru Məlahət Məmmədova, pedaqogika üzrə fəlsəfə doktoru Aynur Hüseynova;

- **Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (Musiqinin tədrisi metodikası) ixtisası üzrə:** pedaqogika üzrə elmlər doktoru, professor Oqtay Rəcəbov (sədr), psixologiya üzrə elmlər doktoru, professor Qızxanım Qəhrəmanova, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Mədinə Tuayeva, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Firəngiz Hidayətova, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Afət Həsənova;

- **Musiqi sənəti ixtisası üzrə:** sənətşünaslıq üzrə elmlər doktoru, professor Nərminə Quliyeva (sədr), sənətşünaslıq üzrə elmlər doktoru, professor Nailə Rəhimbəyli, sənətşünaslıq üzrə elmlər doktoru, dosent Ülkər Əliyeva, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Kamilə Dadaşzadə, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Zemfira Abdullayeva, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Ellada Hüseynova;

- **Kulturologiya ixtisası üzrə:** tarix üzrə elmlər doktoru Fuad Məmmədov (sədr), fəlsəfə elmləri doktoru, professor Mübariz Süleymanlı, fəlsəfə elmləri doktoru, professor Niyazi Mehdi, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Laçın Həsənova;

- **Məktəbəqədər təlim, tərbiyə ixtisası üzrə:** pedaqogika üzrə elmlər doktoru, professor Şəhla Əliyeva (sədr), pedaqogika üzrə elmlər doktoru, professor Museib İlyasov, pedaqogika üzrə fəlsəfə doktoru Sədaqət Əliyeva, pedaqogika üzrə fəlsəfə doktoru Pərişan Həsənova, psixologiya üzrə fəlsəfə doktoru Qəribə Rəhimova.

**11 may 2016-cı il tarixdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alınmışdır.**

**Qeydiyyat №: 4050**

# MÜNDƏRİCAT

## ÜMUMİ PEDAQOGİKA, PEDAQOGİKANIN VƏ TƏHSİLİN TARİXİ

**QƏDİMOVA J.** Üslub və musiqi sənətində onun xarakteristikaları ......... 7
**ƏSGƏRZADƏ Q.Ə.** Televiziya verilişləri vasitəsilə yuxarı sinif şagirdlərinin estetik mədəniyyətinin yüksəldilməsi mühüm sosial-pedaqoji problemdir ........................................................................ 13
**İSMAYILOVA K.** Musiqi müəlliminin pedaqoji fəaliyyətində artistizm keyfiyyəti ........................................................................................... 20

## TƏLİM VƏ TƏRBİYƏNİN NƏZƏRİYYƏSİ VƏ METODİKASI (MUSİQİNİN TƏDRİSİ METODİKASI)

**ƏLİYEVA M.T.** Dirijorluq dərslərində tələbələrdə milli-vətənpərvərlik hisslərinin tərbiyəsi ........................................................................ 26
**QƏRİBOVA A.H.** Musiqi müəlliminin peşə kompetensiyaları ............... 32
**AXUNDOVA G.** İnteqrativ dərslərin xüsusiyyətləri ................................ 37
**QOCAYEVA X.Z.** Tələbələrin vokal qabiliyyətlərinin inkişafında Azərbaycan bəstəkarlarının əsərlərinin istifadəsinin rolu .......................... 43
**HACIYEVA S.** Məktəblilərin harmonik eşitmə qabiliyyətinin inkişafı .... 50

## MƏKTƏBƏQƏDƏR TƏLİM, TƏRBİYƏ

**ƏLİXANOVA G.H.** Yeniyetmələrdə davranış pozuntularının təzahür xüsusiyyətləri ........................................................................................ 55
**KAMILOVA A.** Məktəbəqədər təhsil müəssisələrində təhsil mühiti ........ 61
**ABDULLAYEVA A.** Məktəbəqədər yaşlı uşağın cəmiyyətdə təhlükəsizliyi ........................................................................................ 65
**KƏRİMOVA P.N.** Uşağın sosiallaşmasına ailədə valideynlərlə ünsiyyətinin təsiri ........................................................................... 70
**Qaydalar**.................................................................................................. 76

# СОДЕРЖАНИЕ

## ОБЩАЯ ПЕДАГОГИКА, ИСТОРИЯ ПЕДАГОГИКИ И ОБРАЗОВАНИЯ

**КАДИМОВА Ж.** Стиль и его характеристики в музыкальном искусстве ........ 7
**АСКЕРЗАДЕ Г.А.** Повышение эстетической культуры старшеклассников через телепередачи – важная социально-педагогическая проблема ........ 13
**ИСМАЙЛОВА К.** Качество артистизма в педагогической деятельности учителя музыки ........ 20

## ТЕОРИЯ И МЕТОДИКА ОБУЧЕНИЯ И ВОСПИТАНИЯ (МЕТОДИКА ПРЕПОДАВАНИЯ МУЗЫКИ)

**АЛИЕВА М.Т.** Воспитание национально-патриотических чувств студентов на уроках дирижирования ........ 26
**ГАРИБОВА А.Г.** Профессиональные компетенции учителя музыки ........ 32
**АХУНДОВА Г.** Особенности интегративного урока ........ 37
**ГОДЖАЕВА Х.З.** Роль использования произведений азербайджанских композиторов в развитии вокальных навыков студентов ........ 43
**ГАДЖИЕВА С.** Развитие гармонического слуха учащихся ........ 50

## ДОШКОЛЬНОЕ ОБУЧЕНИЕ И ВОСПИТАНИЕ

**АЛИХАНОВА Г.Г.** Особенности проявления поведенческих расстройств у подростков ........ 55
**КАМИЛОВА А.** Образовательная среда в дошкольных образовательных учреждениях ........ 61
**АБДУЛЛАЕВА А.** Безопасность ребенка дошкольного возраста в обществе ........ 65
**КАРИМОВА П.Н.** Влияние общения с родителями в семье на социализацию ребенка ........ 70
**Правила оформления статей** ........ 76

# CONTENTS

## GENERAL PEDAGOGICS, HISTORY OF PEDAGOGICS AND EDUCATION

**KADIMOVA J.** Style and its characteristics in music ............................. 7
**ASGARZADEH G.A.** Enhancing the aesthetic culture of high school students through television programs is an important social and pedagogical problem ........................................................................... 13
**ISMAYILOVA K.** The quality of the artistry in the pedagogical activities of a music teacher ………………………………………….. 20

## THEORY AND METHODS OF TRAINING AND EDUCATION (METHODS FOR TEACHING OF MUSIC)

**ALIYEVA M.T.** Education of national patriotic feelings of students on conducting lessons ........................................................................... 26
**GARIBOVA A.H.** Professional competence of a music teacher ............ 32
**AKHUNDOVA G.** Features of the integrative lesson .............................. 37
**GOJAYEVA Kh.Z.** The role of using the works of Azerbaijani composers in the development of vocal skills of students ……………….. 43
**HADJIYEVA S.** Development of harmonic hearing of students ............ 50

## PRESCHOOL TRAINING AND UPBRINGING

**ALIKHANOVA G.H.** Features of the manifestation of behavioral disorders in adolescents ......................................................................... 55
**KAMILOVA A.** Educational environment in preschool educational institutions ........................................................................................ 61
**ABDULLAYEVA A.** Security of preschool children in society ............. 65
**KARIMOVA P.N.**The influence of communication with parents in the family on the child's socialization ............................................................ 70
**Rules**………………………………………………………………… 76

Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №1, 2021, **s. 7-12**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2021, **с. 7-12**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2021, **pp. 7-12**

# *ÜMUMİ PEDAQOGİKA, PEDAQOGİKANIN VƏ TƏHSİLİN TARİXİ*

**UOT 78.01:37.02**

**Jalə Qədimova**
Pedaqoji elmlər doktoru, professor
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: jale.gadimova@mail.ru

## ÜSLUB VƏ MUSİQİ SƏNƏTİNDƏ ONUN XARAKTERİSTİKALARI

***Açar sözlər:*** *yaradıcı metod, üslub, musiqi spesifikası, pedaqoji oriyentasiya, musiqi obrazı*

Cəmiyyətin və mədəniyyətin inkişafının müxtəlif dövrlərində tarixi meydana çıxan ideya-estetik prinsiplər yaradıcı metodların dəyişməsində öz ifadəsini tapır. Məhz yaradıcı metod üslubların yaranmasını və xarakterini bizə izah edir.

Üslub – müxtəlif formaların ifadəliliyinin ümumi xarakteridir. Üslub – bədii metodun vahidliyində əks olunan formalar əlaqəsidir.

Musiqi sənətinin spesifikası digər sənət növləri ilə müqayisədə, hər şeydən əlavə, mənimsəyən subyektin fantaziyası və ya təxəyyülünün qiyməti ilə ortaq ölçülüdür. Burada musiqi obrazının özünəməxsus informativliyi və çoxcəhətliliyi assosiativ əlaqələrin inkişafına, ifadəlilik vasitələrinin tipləşdirilməsinə gətirib çıxarır.

Pedaqoji oriyentasiyanın təməlini təşkil edən üslub problemi həm musiqi və digər sənətlər arasındakı prinsipial ümumiliyi üzə çıxartmağa, həm də bu və ya digər üslubun ifadəliliyinin dolğunluğundakı, onun sisteminin hüdudlarından kənara çıxmaq imkanlarındakı fərqləri qeyd etməyə imkan verir.

**Жаля Кадимова**

## СТИЛЬ И ЕГО ХАРАКТЕРИСТИКИ В МУЗЫКАЛЬНОМ ИСКУССТВЕ

***Ключевые слова:*** *творческий метод, стиль, специфика музыки, педагогическая ориентация, музыкальный образ*

Идейно-эстетические принципы, появляющиеся на исторической арене на разных этапах развития культуры и общества, проявляются в смене  творческих методов. Именно творческий метод разъясняет нам возникновение и характер стилей.

Стиль – общий характер выражения различных форм. Стиль – связь форм, отражающаяся в единстве художественных методов.

Специфика музыкального искусства в сравнении с другими видами искусства, помимо всего, соразмерна значению фантазии или воображения осваивающего субъекта. Здесь своеобразная информативность и многосторонность музыкального образа приводит к развитию ассоциативных связей, типизации средств выразительности.

Проблема стиля, составляющая основу педагогической ориентации, позволяет выявить как принципиальную общность между музыкой и другими искусствами, так и подчеркнуть различие между полнотой выразительности того или иного стиля, возможностью выходить за пределы его системы.

**Jala Kadimova**

## STYLE AND ITS CHARACTERISTICS IN MUSIC

***Keywords:*** *creative method, style, specific character of music, pedagogical orientation, musical image*

Ideological and aesthetic principles that have historically emerged in different periods of the development of society and culture are reflected in the change of creative methods. It is the creative method that explains to us the origin and nature of styles.

Style is the general nature of the expression of various forms. Style is the relationship of forms reflected in the unity of the artistic method.

The specific character of the art of music, in comparison with other types of art, above all, has a shared value with the imagination or fantasy of the mastering subject. Here, the peculiar informativeness and versatility of the musical image leads to the development of associative relations, classification of means of expression.

The problem of style, which forms the basis of pedagogical orientation, allows us to reveal the fundamental commonality between music and other arts, as well as to note the differences in the completeness of expressiveness of a style, its ability to go beyond its system.

İncəsənətə vahid bədii sistem kimi baxılması bilavasitə və mütləq bizi yaradıcı metod, onun vasitəsilə isə üslub problemi məsələsinə yaxınlaşdırır. Düşünürük ki, məhz adı çəkilən tədqiqat «müstəvi»si pedaqoqa imkan verir ki, musiqini incəsənət sistemində təqdim etsin, cəmiyyətdə bədii «aura»nın vahidliyini açıqlaya bilsin. Pedaqoq yaradıcı metodu bədii vahidliyin əsası kimi təqdim etməlidir. Cəmiyyətin və mədəniyyətin inkişafının müxtəlif dövrlərində tarixi meydana çıxan ideya-estetik prinsiplər yaradıcı metodların dəyişməsində öz ifadəsini tapır. Həyati məzmunun bədii məzmuna çevrilməsi üsulu olan yaradıcı metodda forma təşkilinin yolları və ilkin mövqelər gizlənmiş, hakim estetik zövqün əsasları yer tutmuşdur. Məhz yaradıcı metod üslublarının yaranmasını və xarakterini bizə izah edir. Tədris-tərbiyə «tamaşa»sı prosesində tələbənin diqqətinə çatdırmaq lazımdır ki, yaradıcı metod anlayışı ictimai gerçəkliyin nəinki incəsənətin məzmunu ilə, həm də onun estetik qanunları ilə sıx əlaqəsini ifadə edir. sonradan, yaradıcı metodda insanların öz tarixi vəzifələrinə praktiki münasibəti və onların həyat anlayışı estetik cəhətdən birləşir, ideallar və gerçəkliyin elə bir xüsusi münasibəti qurulur ki, o, bədii obrazın strukturunu formalaşdırır.

Yaradıcı metodun daxilinə nüfuz etmədən biz bədii üslubu anlaya bilmərik. Üslub nə deməkdir və musiqi sənətində onun xarakteristikaları hansılardır?

Üslub – müxtəlif formaların ifadəliliyinin ümumi xarakteridir. Üslub – bədii metodun vahidliyində əks olunan formalar əlaqəsidir. Üslub – formaların əhvalında, əlaqəsində, yaxınlığındakı qanunauyğunluqlardır ki, bu formalar nəinki konkret əsərin xüsusi məzmununu ifadə etməyə, həm də tarixin müəyyən mərhələsində insanın təbiətə və cəmiyyətə münasibətinin ən ümumi əlamətlərini təsvir etməyə imkan verir. B.Vipperin dediyinə görə, üslub – mürəkkəb, hərtərəfli, kompleks anlayışdır. Üslubun mahiyyəti məhz ondadır ki, onu əlamətlərin hansısa ümumiliyi, cəmi, məcmusu, hətta demək olar ki, dövrün real gerçəkliyini, onun estetik ideallarını, onların bədii obrazlarda interpretasiyasını və bu interpretasiyanın bədii təcəssüm üsullarını özündə birləşdirən əlamətlər sistemi müəyyən edir.

Bədii üslub – sənətşünaslığın genişmiqyaslı kateqoriyalarından biridir, onu bədii ənənə, bədii proses, bədii mentallıq kimi anlayışlarla bir sıraya qoymaq olar. Üslubun köməyi ilə bir çox sənətşünaslıq kateqoriyalarının – məsələn, bədii qanun, bədii məktəb, yaradıcı tərz və s. çərçivəsi və məzmun səviyyəsi ortaya çıxır. R.Abdullayeva qeyd edir ki: «Bədii üslub kateqoriyasının köməyi ilə müxtəlif planlı və müxtəlif qaydalı yaradıcılıq hadisələri xarakterizə olunur, üslub əlamətlərinin müəyyən edilməsi əsasında estetik nəzəriyyələrin mühüm müddəaları və incəsənət tarixinin geniş fraqmentləri qurulur» [2]. Azərbaycan alimi qeyd edir ki, üslubun idrak imkanları son dərəcə çoxölçülüdür və onunla əlaqədardır ki, «üslub bədii təzahürlərin az qala bütün cəmini təsbit edir, məkan, zaman və istənilən bədii dövrün, istənilən incəsənət əsərinin formasının

aspektlərini bir yerə cəmləyir» [3]. Eyni zamanda, üslub insanın sosial təcrübəsinin xarakterik aspektlərini əks etməyə qadirdir və bədii mədəniyyətdə insan başlanğıcının daimi iştirakını təsbit edir.

İstənilən stilistika sisteminin məlumat baxımdan dolğunluğu həm yerli, həm də qlobal təzahürləri özünə çəkir.

Qlobal amillərin təcəssümü, ilk növbədə, bədii mədəniyyətdə həmin tarixi dövr üçün gerçəkliyin ümumi bədii eyniləşdirmə üsullarının təsbit edilməsi ilə əlaqədardır. Bununla yanaşı, incəsənət konkret xalqın həyat gerçəkliyini təsvir etməyə, tipik xarakterləri öyrənməyə başladıqda, üslubun fərdiləşməsi prosesi başlanır.

Üslubun, bəlkə də digər sənətlər üçün kafi ümumi tərifi, musiqidən söhbət getdikdə bəzi cəhətlərdən daha da detallaşdırılmalı və xüsusilə izah edilməlidir. Musiqinin spesifikası tədqiqatçıların diqqətini forma, janr, yazı üslubu, onların immanent hesab olunan inkişafı məsələlərinə yönəltmişdir. Lakin, müxtəlif üslub oriyentasiyası burada da bəzi ifadəlilik vasitələrinin xüsusilə nəzərə çarpdırılmasını, bəzilərinin isə «sıxışdırılması»nı, eyni yazı üsullarının qeyri-bərabər şərhini və əsasən hər bir halda onların üslubun qanunauyğunluqlarına tabe olan yeni ahəngini nəzərdə tutur.

Musiqi sənətinin spesifikası digər sənət növləri ilə müqayisədə, hər şeydən əlavə, mənimsəyən subyektin fantaziyası və ya təxəyyülünün qiyməti ilə ortaq ölçülüdür. İstənilən sənətdə yaradıcı başlanğıc dinləyicinin, tamaşaçının hiss və düşüncələrinə potensial təsir göstərir. Bu zaman yaradıcı proses ədəbiyyat, rəssamlıq, teatr əsərlərini mənimsəyənlərdə, nə qədər fərqli olsa da, konkret obrazlarla şifahi və ya görmə ilə stimullaşdırılır. Musiqi ilə müqayisədə istənilən sənətdə mövzu və anlayışın qiyməti tipoloji olaraq daha aydın olacaq. Musiqi sənəti, ən güclü emosiyaları oyatmaqla yanaşı, mənimsəyən şəxsin təxəyyülü üçün daha geniş sahə saxlayır. Musiqi dinləyicinin əhval-ruhiyyəsini qaldıraraq və heyrətləndirərək, onun üçün müəyyən hədlərdə «tamamlamaq» sərbəstliyi verir. Bəstəkar bu sərbəstliyi məhdudlaşdırmaq istədikdə sözün, proqramın, təcəssüm etmənin köməyinə müraciət edir, bu birlikdə digər sənətlər yaradıcı prosesi sanki konkretləşdirir.

Musiqi obrazları öz mahiyyətinə görə çox spesifikdir və onların formalaşmasının özü əvvəlcə digər sənətlərdən sinkretik asılılıqda, sonra isə müstəqil və sonuncularla yeni sintezdə baş verir. Musiqi obrazının özünəməxsus informativliyi və çoxcəhətliliyi assosiativ əlaqələrin inkişafına, ifadəlilik vasitələrinin tipləşdirilməsinə gətirib çıxarır. Bu, öz növbəsində, ona səbəb olur ki, ümumiləşdirilmiş obraz öz istiqamətində düzgün qiymətləndirilir, onun geniş anlaşılan mənası isə dinləyicilərin təxəyyülünə dayanmadan təsir edir. Bu səviyyədə tipləşdirmə başqa sənət sahələrinə xas deyil. Məsələ bundadır ki, musiqi üçün bu və ya digər süjetlər seçilir, interpretasiya bu və ya digər istiqamətdə gedir. Musiqinin spesifikası özlüyündə süjetə, demək olar ki,

tamamilə məhəl qoymamağa və bütövün musiqi konsepsiyasını formalaşdıran yalnız xarakterik obrazlar sahəsinə diqqəti cəlb etməyə imkan verir.

Hər hansı bir üslubun daxilində musiqi daha asılı vəziyyətdə ola bilər, digərinin sistemində isə açıq-aydın ön plana çəkilə bilər. Sənətlər dairəsində vəhdətə nail olduqda belə, musiqinin spesifik imkanları, özünün bədii təfəkkürünün daha az əyaniliyi ilə, onun digər növlərdən daxilən ayrılmasına, onlarla birləşdikdə isə – mürəkkəb qarşılıqlı təsirə səbəb olur. Bununla bərabər, musiqi sənəti digər sənətlərə – zaman və məkan sənətlərinə – geniş surətdə meyl edir və onlarla gah «kiçik», gah da «böyük» sintez əmələ gətirir. Həm də sənətlərin sintezi daim «tərkib hissələrin» xüsusi kontrapunktuna əsaslanır, hər birinin öz səsi olan müxtəlif sənətlər polifoniyasına yaxınlaşır.

Beləliklə, müasir dövrdə tədris-tərbiyə prosesinin humanitarlaşdırılması probleminin interdissiplinar həllinə sənətşünaslıq nöqteyi-nəzərindən yanaşma bizi maraqlandıran dövr çərçivəsində musiqinin və digər sənətlərin ümumi inkişaf istiqamətlərinin müəyyən edilməsini nəzərdə tutur. Qeyd edək ki, məhz pedaqoji oriyentasiyanın təməlini təşkil edən üslub problemi həm musiqi və digər sənətlər arasındakı prinsipial ümumiliyi üzə çıxartmağa, həm də bu və ya digər üslubun ifadəliliyinin dolğunluğundakı, onun sisteminin hüdudlarından kənara çıxmaq imkanlarındakı fərqləri qeyd etməyə imkan verir. Burada aşağıdakı məntiqi silsilə mümkündür: mövzunun, süjetin və onların interpretasiyasının ilkin ümumi məsələlərindən – obrazların və onların inkişafının spesifikasının dərinliyinə getmə – və bədii üslubun, müxtəlif sənət növlərinin tarixi münasibətlərinin ümumi məsələlərinə yeni əsasda qanunauyğun qayıdış. T.Livanovanın fikrini misal gətirək, o, yazırdı: «…musiqi digər müxtəlif sənətlərlə ittifaqa, əməkdaşlığa girə bilər, bu və ya digər üslub sisteminin yaranmasında iştirak edə bilər, yaxın sənətlərin inkişaf etdiyi istiqamətdə hərəkət edə bilər. Sənətlərin münasibəti hər zaman dialektikdir: onların sistemində nəticədə ümumi vəzifələr həll olunur, lakin onlar müxtəlif cür həll olunur, buna görə də, prinsipcə, hər bir dövr üçün sənətlərin sadə toplusu yox, səciyyəvi sənətlər sistemi mövcud olur». [1]

Musiqi fənlərinin tədrisində sənətşünas oriyentasiyası israrla təlqin edir ki, musiqinin araşdırılmasını başqa sənətlərdən təcrid etmək lazım deyil, əksinə, daim ətrafda, bədii yaradıcılığın digər sahələrində baş verənlərə nəzər salmaq lazımdır. Əks halda bir çox hadisələr sona qədər yaxud tam izah edilməmiş qalacaq. Musiqi – sənətlər sistemində, lakin onun mürəkkəb spesifikasını nəzərə almaqla. Fikrimizcə, bu, müasir dövrdə və başlıca olaraq, musiqinin «Musiqi tarixi» fənni çərçivəsində tədrisinin ikinci perspektiv yoludur.

Sonda problemin nəzəri dərk edilməsinin əsas məqamlarını qeyd edək. Musiqi təhsilinin humanitarlaşdırılması ixtisaslaşdırılmış biliyə tamamilə zidd deyil, əksinə, onunla təbii şəkildə uyğunlaşmağa və özlüyündə musiqi-pedaqoji ideyaları dərinləşdirməyə qadirdir. Müasir musiqi pedaqogikası nəzəriyyəsinin

problemlərinin müəllif görüşü, ilk öncə, musiqini mədəniyyətin bir parçası kimi dərk etmək və onu müəyyən tərtibatda təhsil alan gənclərə çatdırmaqdadır. Bununla yanaşı, dar ixtisas problematikası çərçivəsindən kənara çıxma münasibətlərin, əlaqələrin və eyni zamanda, müxtəlif sənət növlərinin inkişaf yolunda fərqlərin kompleks tədqiqini nəzərdə tutur. Nəticədə hər hansı bir dövrün bədii həyatı incəsənətin və mədəniyyətin digər tərkib hissələrinin cəm halında bütöv bir orqanizm kimi fəaliyyəti şəklində təqdim olunacaq.

Yuxarıda qeyd edilən bütün problemlər ixtisaslaşdırılmış bilik mövzusudur. Mövzunun məna aksentləri – musiqi pedaqogikasının humanitarlaşdırılması, biliklərin kulturoloji və sənətşünaslıq aspektlərində dərinləşdirilməsi – müasir musiqi pedaqogikasının taleyüklü problemləri kimi müzakirəyə çıxarılır. Beləliklə, problemin pedaqoji təqdimatı prosesində Azərbaycan musiqisinin əsas məzmun parametrləri geniş tarixi-mədəni və sənətşünaslıq kontekstində modelləşdirilir. İnterdissiplinar kontaktlar kənar bir şey deyildir, onlar hər bir elmin bəşəriyyətin biliklərinin vahid sahəsi kimi inkişaf məntiqində yer alıb və təbii şəkildə onun genişlənən sisteminə daxil olur. Analoji proseslər müasir dövrdə nəinki musiqi tədrisi və tərbiyəsi haqqında biliyə çevrilən, həm də insan haqqında digər elmlər sırasının bərabər hüquqlu iştirakçısı olan musiqi pedaqogikasını da əhatə edir.

**Məqalənin elmi yeniliyi:** Pedaqoji oriyentasiyanın təməlini təşkil edən üslub problemi musiqi və digər sənətlər arasındakı prinsipial ümumiliyi üzə çıxarmağa imkan verir.

## Ədəbiyyat

1. Abdullayeva R.Q. İnformasiya mədəniyyətində bədii üslubun problemi. Bakı: Elm, 2003.
2. Tağızadə İ.M. İncəsənətin qarşılıqlı əlaqəsi. Bakı: Azərnəşr, 1996.
3. Paşayev Ə., Rüstəmov F. Pedaqogika. Bakı: Elm, 2003
4. Mehrabov A.O. Pedaqoji prosesin optimallaşdırılmasının psixoloji-pedaqoji məsələləri. Bakı: Elm, 2011

**Məqalənin redaksiyaya daxil olma tarixi: 09.02.2021**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 12.02.2021**
**Məqalənin çapa qəbul olunma tarixi: 15.03.2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru Məlahət Məmmədova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №1, 2021, **s. 13-19**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2021, **с. 13-19**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2021, **pp. 13-19**

**UOT 37.013.42**

**Q.Ə.Əsgərzadə**
Pedaqogika üzrə fəlsəfə doktoru
Azərbaycan Texniki Universiteti
AZ1073, Bakı ş., Hüseyn Cavid pr. 25
e-mail: qafar.askerzade@bk.ru

# TELEVİZİYA VERİLİŞLƏRİ VASİTƏSİLƏ YUXARI SİNİF ŞAGİRDLƏRİNİN ESTETİK MƏDƏNİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ MÜHÜM SOSİAL-PEDAQOJİ PROBLEMDİR

***Açar sözlər:*** *televiziya, incəsənət, musiqi, estetik mədəniyyət, təfəkkür, vətənpərvərlik, intellekt*

Televiziya müasir dövrün ən mühüm reallıqlarından biridir. Televiziya verilişləri yuxarı sinif şagirdlərin şüuruna güclü təsir göstərir, onları mənən inkişaf etdirir, məlumatlandırır, ətraf mühitə və insanlara münasibəti formalaşdırır. Hazırda televiziya verilişlərinin yuxarı sinif şagirdlərinin estetik mədəniyyətinin yüksəldilməsinə təsir problemi çox aktualdır.Çünki,söhbət demokratik cəmiyyət üçün, dövlətçiliyinmizin gələcəyi üçün yeni təfəkkürlü insan tərbiyəsindən gedir.Əgər televiziyanın tərbiyəvi imkanlarından ailə-məktəb münasibətlərindən doğan ümumi estetik tərbiyə sistemində müntəzəm istifadə olunarsa, o halda televiziyanın tərbiyəvi imkanları daha effektiv olur.Bununla belə, televiziya verilişlərinə, xüsusuən, incəsənətə, musiqiyə həsr olunan verilişlərə baxımda əsasən, məktəblə ailənin birliyinə və həmrəyliyinə nail olmaq lazımdır. Bütün bunlar məktəbli ilə televizya arasında estetik mədəniyyətin yüksəldilməsinə, televiziya verilişlərinin tərbiyəvi əhəmiyyətinə kömək edir.

**Г.А.Аскерзаде**

# ПОВЫШЕНИЕ ЭСТЕТИЧЕСКОЙ КУЛЬТУРЫ СТАРШЕКЛАССНИКОВ ЧЕРЕЗ ТЕЛЕПЕРЕДАЧИ – ВАЖНАЯ СОЦИАЛЬНО-ПЕДАГОГИЧЕСКАЯ ПРОБЛЕМА

***Ключевые слова:*** *телевидение, искусство, музыка, эстетическая культура, мышление, патриотизм, интеллект*

Телевидение – одно из важнейших реалий нашего времени. Телевизионные программы оказывают сильное влияние на умы

старшеклассников, развивают их духовно, информируют их и формируют их отношение к окружающей среде и людям. В настоящее время очень актуальна проблема влияния телепередач на повышение эстетической культуры старшеклассников, поскольку речь идет о воспитании нового мировоззрения для демократического общества, будущего нашей государственности. Однако с точки зрения телевизионных передач, особенно посвященных искусству и музыке, необходимо добиться единства и солидарности между школой и семьей. Все это способствует повышению эстетической культуры между учащимся и телевидением и воспитательному значению телевизионных передач.

**G.A.Asgarzadeh**

## ENHANCING THE AESTHETIC CULTURE OF HIGH SCHOOL STUDENTS THROUGH TELEVISION PROGRAMS IS AN IMPORTANT SOCIAL AND PEDAGOGICAL PROBLEM

***Keywords:*** *television, art, music, aesthetic culture, thinking, patriotism, intellect*

Television is one of the most important realities of our time. Television programs have a strong influence on the minds of high school students, develop them spiritually, inform them and shape their relationship to the environment and people. At present time, the problem of the influence of television programs on improving the aesthetic culture of high school students is very relevant, since it is a question of fostering a new worldview for a democratic society and the future of our statehood. However, in terms of television programs, especially those dedicated to art and music, it is necessary to achieve unity and solidarity between school and family. All this contributes increasing in aesthetic culture between students and television and the educational value of television programs.

Televiziya incəsənətin bir növü kimi günümüzün reallığıdır. Onun potensial tərbiyəvi imkanları tükənməzdir və bu layiqincə dəyərləndirilməlidir. İncəsənətin bir növü kimi televiziya, onun mahiyyəti və yuxarı sinif şagirdlərinin estetik tərbiyə və mədəniyyətinin inkişafında rolu və təsir imkanları ətraflı və müntəzəm tədqiq olunmalıdır.

Yuxarı sinif şagirdlərinin estetik mədəniyyətinin yüksəldilməsində televiziyanın tərbiyəvi imkanlarını və xüsusiyyətlərini qiymətləndirərkən televiziyanın qlobal xarakter daşımasını nəzərə almamaq mümkün deyildir. Mənəvi akselerasiya estetik anlama, hər şeydən əvvəl, şagirdlərin geniş

tamaşaçı auditoriyası üçün nəzərdə tutulan televiziya verilişlərinin təsirində olmalarıdır.

Bu gün belə bir həyat gerçəkliyi vardır ki, təbiət, insan və cəmiyyət gözəlliklərini, onların rəngarəngliyini, müxtəlif təzahürlərini duymaq, qavramaq, sevmək, qiymətləndirmək, həyatı gözəllik qanunları əsasında yaşamaq estetik tərbiyənin məqsədidir [1, s.65].

Məktəblinin şəxsiyyət kimi harmonik inkişafı və estetik mədəniyyətin yüksəldilməsi üçün onun incəsənətin bütün növ və janrları ilə, xüsusən də musiqi ilə daha geniş miqyasda tanış olması vacibdir.

Bədii silsilə verilişlərində, xüsusən, konsert-mühazirələrdə, musiqi və musiqiçilər haqqında müxtəlif səpkili verilişlər nümayiş etdirilir.Bu verilişlərdə bəstəkarın, musiqiçi və müğənninin, xanəndənin, rəqqasların tərcümeyi-halı, onların keçdiyi həyat yolu və yaradıcılığının əsas səhifələri, müasirləri, dövr ilə qarşılıqlı əlaqələri, repertuarları, gələcək planları və s. yer alır. Məktəblilər bu informasiyaları mənimsəməklə daha çox məlumat əldə edir, bu və ya digər sənət adamı ilə görüşə hazır olur. Televerilişlərdən əldə olunan bədii informasiya sənətşünaslıq biliklərinə meyli genişləndirir, şagirdlərin dünya görüşünü artırır, onları yaradıcılığa həvəsləndirir. Bu isə öz növbəsində onların estetik mədəniyyətinin yüksəldilməsi deməkdir.

Müəyyən tarixi şəraitdə Azərbaycan incəsənətinin bir neçə növü – poeziya, memarlıq, xəttatlıq daha da inkişaf etmiş, balet, simfonik və kamera musiqisi, opera, teatr kimi sahələrin inkişafına, daha geniş yayılmasına imkan verilməmişdi. Belə bir vəziyyət məktəblilərin estetik maraqlarına, onların estetik mədəniyyətinin  inkişafına öz mənfi təsirini göstərmişdi. Hazırda müasir yeniyetmələr bir qayda olaraq estrada, pop, rok musiqisinə daha çox baxdıqları üçün, onların xalq musiqisinə, muğama, aşıq musiqisinə, klassik və və simfonik, musiqyə maraqları azalır. Bu boşluğu doldurmaq isə birinci növbədə müəllim və valideynlərin, həm də telekanalların üzərinə düşür. Bunun üçün başlıca olaraq, ilk növbədə şagirdlərin yaş və fərdi xüsusiyyətləri nəzərə alınmalıdır [2, s.21].

Məlumdur ki, yaradıcılıqda – mahnı və rəqsdə, musiqi alətlərində ifada və s. mümkün qədər xüsusi iştirak ilk növbədə bədii inkişaf vasitəsi kəsb edir. Bu da gənc şəxsiyyətin estetik mədəniyyətinin yüksəldilməsinə öz müsbət təsirini göstərir. Bədii silsilədən olan televerilişlər yuxarı sinif şagirdlərində musiqinin müxtəlif növ və janrlarına marağı stimullaşdırır, dünya musiqi xəzinəsinin varlığının dərk edilməsi prosesini,həmçinin, gənc şəxsiyyətin müstəqil estetik inkişaf bacarığını intensivləşdirir.

Respublika kanallarında  mütəmadi olaraq xoreoqrafik incəsənətlə bağlı verilişlərə də xeyli yer ayrılır:"İldırımlı yollarla", "Yeddi gözəl" (Qara Qarayev); "Min bir gecə" (Fikrət Əmirov); "Məhəbbət əfsanəsi" (Arif Məlikov); "Qızı qalası" (Əfrasiyab Bədəlbəyli) və s. baletlər bunlara parlaq

misaldır. Bu verilişlərdə, eləcə də rəqs sənəti ilə bağlı müxtəlif səpkili verilişlərdə, rəqsin tarixi və bu günə qədər onun müxtəlif növlərinin inkişafı barəsində müfəssəl və maraqlı məlumat verilir [3, s.414]. Bununla rəqsin spesifikliyi, incəsənətin bir növü kimi mahiyyəti, mənşəyi, müxtəlif milli formaları; onun qədimliyi və müasir təşəkkülü; rəqs sənətinin əsas inkişaf dövrləri diqqət mərkəzinə gətirilir. Rəqsin yaşamasını təmin edən instrumentarilər nəzərdən keçirilir (rəqsin şəkli, tullanma texnikası, piruet, balet geyimi və s.). Bu qəbil verilişlərə baxışın məqsədini rəqs sənəti, onun tarixi, spesifikliyi, mahiyyəti, milli formanın müxtəlifliyi, klassik və müasir rəqslə tanışlıq təşkil edir. Şagirdlərdə rəqs sənətinə maraq xeyli zəif olduğundan bu verilişlər onların bu sahədə inkişafına güclü təsir göstərir. Əlbəttə ki, şagirdlərə verilişlərin ayrı-ayrı söhbətlərin məzmununun emosionallığı; paradoksun effekti (gözlənilməz mülahizələr); tapmacalar təklif etmək və onları cavablandırmaq bacarığı hökmən aşılanmalıdır. Müəyyən psixoloji “təzyiq”, müəllimin xüsusi münasibəti, onun “emosional avtoriteti” və s. də bu prosesdə nəzərdən qaçırılmamalıdır.

Təcrübələr göstərir ki, bu qəbil verilişlərə baxış maksimal maraqla, incəsənətin bu növünü dərk etmək istəyi ilə, bu janra müsbət münasibət yaratmaqla müşayiət olunur. Baxış prosesində yaranan emosional vəziyyət müəllim və şagirdlərdə emosional reaksiya, qiymətləndirmə müsbət təsirini göstərir.

Telebaxışdan sonra alınan təəssürat, bilik və təsəvvürün, həmçinin, səhnəcik-mülahizələrin formalaşmasını zənginləşdirmək məqsədilə şagirdlərlə müvafiq sual-cavab aparılır.

Aparılan müşahidələrdən belə nəticəyə gəlmək olur ki, bu verilişləri seyr edən şagirdlər tədricən rəqs sənətinə maraq göstərirlər. Xüsusilə də, artistin plastik pozası, rəqs hərəkətləri, jesti, mimikası kimi ifadə vasitələri daha emosional və təsiredicidir.

Nəzərə almaq lazımdır ki, bu verilişlərdə şagirdlərə hələ qədimdən bizə miras qalan rəqsin tərbiyəvi mənası, rəqsin estetik funksiyası aşılanır. Xüsusən, rəqs tarixinə diqqət yetirilir ki, burada da milli rəqslərlə Avropa rəqsləri və digər xalqların rəqsləri arasında fərq müzakirə obyektinə çevrilir. Başqa xalqların rəqsləri kimi bizim rəqslərimiz də milli xüsusiyyətlərimizi, xalqın xarakterini, onun tarixini, incəsənətini, məişətini məktəblilərə əyani şəkildə çatdırmaqda tanış etməkdə mühüm rol oynayır [4, s.88].

Məktəblilərdə yuxarı sinif şagirdlərinin incəsənətə, xüsusilə musiqyə meylliyinin artırılmasında əsas çətinlik, bu prosesin təşkilində sistemliyin və şagirdlərin musiqiyə dair lazımi bilik almasının məqsədyönlü forması olan informasiyanın qəbuluna dair pedaqoji rəhbərliyin olmaması ilə əlaqədardır.

Yuxarı sinif şagirdlərinin bu və ya digər musiqili proqramlarına üstünlük verməsi müəyyən dərəcədə televizya kanallarının estetik informasiya

mənbələrindən asılıdır. Estetik informasiyanın gənc tamaşaçılara təsirinin effektivliyinin artırılması və həmçinin, proqramların bədii-pedaqoji təsir imkanlarının genişləndirilməsi məqsədilə telekanalların yaradıcı heyətinə aşağıdakı tövsiyələri vermək məqsədəuyğundur:

- yuxarı sinif şagirdləri üçün musiqili verilişlərə dair tematikanın genişləndirilməsi;
- həmin verilişlərin hazırlanması zamanı orta məktəblərdə müvafiq tərbiyə işləri üzrə məsləhətlərin əsas müddəalarının və tələbatının nəzərə alınması;
- gənclər və məktəblilər üçün televerilişlərin təşkili və planlaşdırılmasında məktəblilərin bədii maraqlarının və musiqi seçiminin səviyyəsinin nəzərə alınması və onlara müvafiq istiqamətin verilməsi;
- respublika televiziya kanallarının məktəblərlə işgüzar və yaradıcı əlaqələrini gücləndirmək;
- bədii-estetik silsiləyə aid musiqli televerilişlərin təbliğinin genişləndirilməsi;
- təhsil nazirliyinin müvafiq qurumları və ya yerli təhsil şöbələri vasitəsilə məktəbləri telekanalların illik tematik planları, həmçinin, verilişlərin aylıq annotasiya planları ilə tanış edilməsi;
- incəsənətin bir növü kimi televiziyanın dili, spesifikliyi və estetika üzrə xüsusi mövqeyi üzrə müxtəlif musiqili verilişlərin təşkil ediolməsi.

Heç şübhəsiz, göstərilən bu məsələlərin vaxtında nəzərə alınması məktəblilərdə estetik informasiyanın qavranılması mədəniyyətinin formalaşmasına kömək edər, televerilişlərə seçici münasibət formalaşar, incəsənət nümunəsi kimi musiqli televerilişləri qəbuletmə bacarığı inkişaf edər. Belə bir mövqe ayrı-ayrı təhsil ocaqlarında, ümumtəhsil məktəblərində bədii-estetik istiqamətdə sinifdənxaric və məktəbdənxaric işlərin daha mütəşəkkil aparılmasına müsbət təsir göstərər.

İndiki dövrdə bədii-estetik tərbiyənin əsas məqsədi hər bir insana, xüsusən, məktəbli gənclərə sağlam estetik zövq aşılamaqdan, zövqlü musiqi və mahnılarla onların mənəvi dünyasını daha da zənginləşdirməkdən ibarətdir. İdeya-təsiri vasitələri arasında incənətətin növü kimi musiqinin üstünlüyü məhz onun obrazlığı, konkret əyaniliyi və emosionallığındadır. Musiqinin əsas məziyyəti insanların sadə hisslərindən başlamış onun həyəcan, təəssürat, əhval-ruhiyyə və intim hisslərinədək bütün psixi aləminin rəngarəngliyi və zənginliyinədək ona nüfuz etməsindədir. Əsl sənətkar insanın ahəngdar inkişafına kömək edən yeni mənəvi xarakterlərin ən yaxşı tərbiyəçisidir.

**Məqalənin elmi yeniliyi** məktəblərdə bu problemin real vəziyyəti, onun öyrənilməsi və ümumiləşdirilməsi, estetik tərbiyənin pedaqoji problem kimi tədqiq edilməsi yuxarı sinif şaqirdlərinin estetik mədəniyyətinin yüksəldilməsində mühüm vasitə kimi müasir televiziyanın rolu və onun təsir imkanlarının aşkar edilməsi və elmi-nəzəri cəhətdən əsaslandırılmalıdır.

Bununla televizya kanallarında hazırlanan incəsənətə, musiqiyə həsr olunan televerilişlərin yuxarı sinif şagirdlərinə çatdırılmasının və həmin vasitələrlə onların estetik mədəniyyətini inkişaf etdirməyin başlıca prinsipləri, forma və yolları müəyyən etməyə imkan yaranır.

**Məqalənin tətbiqi əhəmiyyəti**. Azərbaycan incəsənəti, xüsusilə, musiqi yaradıcılığı geniş mənada Azərbaycan mədəniyyəti haqqındda yuxarı sinif şagirdlərində dolğun təsəvvür yaratmaq üçün televizya kanalları çox geniş imkanlara malikdir. Lakin, bu imkanları əvvəlcədən nəzərə almaq Azərbaycan incəsənətinin ayrı-ayrı sahələri, janrları üzrə onların biliyini, dünyagörüşünü artırmaq üçün məqsədli, mövzuya uyğun televerilişlərə baxış mədəniyyəti təşkil olunmalıdır. İncəsənətə, musiqiyə həsr olunan və müxtəlif kanallar vasitəsilə nümayiş etdirilən televerilişlərin estetik təsir qüvvəsi ona görə get-gedə artır ki, orada haqqında söhbət gedən incəsənət əsərinin, hər hansı janr nümunəsinin yarandığı dövr, bədii üslub, sənətkarın yaradıcılıq qayəsi,cəmiyyətin, müxtəlif nəsildən olan insanların, o cümlədən, yuxarı sinif şagirdlərinin mədəni tərəqqisinə göstərdiyi təsir istiqamətləri konkret faktlar, həyati lövhələrlə izah edilir.İnsənətə həsr edilən televerilişlər vasitəsilə məktəblilər ayrı-ayrı əsərlərin estetik təsir xüsusiyyətlərini qavramaq qaydaları, habelə bədiii dəyərləri haqqında verilən nəzəri məlumatları mükəmməl mənimsəyirlər ki, bu da onların estetik mühakimə yürütmə qabiliyyətlərini inkişaf etdirir.

Televiziyanın bədii-pedaqoji təsirinin effektivliyi verilişlərin yüksək ideya-bədii səviyyəsindən, onların tərbiyəvi istiqamətindən, məktəblilərin yaş xüsusiyyətindən, estetik tələbatından və s.asılıdır.

Televiziyada nümayiş etdirilən incəsənətlə bağlı verilişlər onun nümayəndələri ilə ünsiyyət imkanlarını genişləndirir, məktəbin bədii tərbiyə işinin səviyyəsini yüksəldir, məktəblilərin ictimai-estetik fəallığını inkişaf etdirmək üçün əlverişli şərait yaradır.

Bu istiqamətdə mühazirələr, ekskursiyalar, incəsənət xadimlərinin iştirakı ilə görüşlər daha geniş yayılmış formalar kimi səciyyələndirilir. Yaradıcı işçilərin, eləcə də televiziya əməkdaşlarının məktəblə daimi əlaqələri daha məhsuldar olur: fakultativlərə, dərnəklərə rəhbərlik, məktəb video arxivinin yaradılmasına köməklik.

Estetik mədəniyyətin mürəkkəb, çoxcəhətli vəzifələrinin həyata keçirilməsi məktəbin, ailənin, televiziya kanallarının, yaradıcı birliklərin, bütün ictimaiyyətin səylərinin birləşdirilməsini tələb edir. Bu işin müvəffəqiyyəti xeyli dərəcədə müəllimin özünün estetik mədəniyyətinin səviyyəsindən, onun estetikanı pedaqogika ilə birləşdirmək bacarığından asılıdır.

Bu baxımdan problemlə bağlı 4 mühüm cəhət diqqəti cəlb edir:

- məktəbin televiziya kanalları ilə işbirliyi sisteminə yiyələnməsinin zəruriliyi;

- bu istiqamətdə rəngarəng iş formalarına (ekskursiyalar, görüşlər və s.) istinad olunması;

- bilavasitə məktəbdə şagirdlərin estetik görüşlərini genişləndirə bilən videoarxivlərin yaradılması;

- bu işdə fəal mövqeyi ilə tanınmalı olan müəllimlərin (tərbiyəçilərin, məktəb rəhbərlərininm, həmçinin bədii dərnək, klub və studiya məşğələlərini aparan mütəxəssislərin özlərinin estetik mədəniyyətinin yüksəldilməsi, estetikanın pedaqogika ilə birləşdirilməsi.

## Ədəbiyyat


1. Ağayev Ə., Rzayev V. Azərbaycan ictimai-pedaqoji fikrində şəxsiyyətin formalaşması problemi. Monoqrafiya. Bakı: Avropa, 2005, 288 s.
2. Xəlilov V.C. Məktəblilərə musiqi haqqında. Bakı: Nərgiz, 2002, 63 s.
3. Гафар Аскерзаде, Акиф Таваккюль оглы. История Азербайджанской Журналистики. Баку: «ABC poligraf» 2015, 455c
4. Qurbanov B.Q. Musiqinin bədii-estetik məsələləri. Bakı: Ağrıdağ, 2000, 374 s.
5. Əhmədov N. Yeniyetmələrin estetik tərbiyəsi. Bakı: Elm, 1974, 32 s.
6. Hüseynov İ. Azərbaycan milli adət və ənənələrinin bədii-estetik mahiyyəti. Bakı: Mars-Print NPF, 2002, 305 s.
7. Quliyev E.H. Televiziya: nəzəriyyə, inkişaf meylləri. Bakı: İşıq, 2004, 236 s.
8. Məhərrəmov Q.M. Televiziya haqqında etüdlər. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1996, 215 s.
9. Nizami Xudiyev. Radio, televiziya və ədəbi dil. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 2001, 649 s.
10. Абека-Нюнде Селестине «Роль телевидения в формировании личности молодого человека». Автореферат канд. фил. наук. М: 1980, 165 с.


**Məqalənin redaksiyaya daxil olma tarixi: 11.01.2021**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 15.01.2021**
**Məqalənin çapa qəbul olunma tarixi: 15.03.2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru Firəngiz Rzayeva**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 78:378.116**

**K.İsmayılova**
müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti AZ 1000, Bakı ş.,Üzeyir Hacıbəyli küçəsi, 68 e-mail: kamalaismayilova@yandex.ru

# MUSİQİ MÜƏLLİMİNİN PEDAQOJİ FƏALİYYƏTİNDƏ ARTİSTİZM KEYFİYYƏTİ

***Açar sözlər:*** *pedaqoji artistizm, tələbə, bacarıq, musiqi müəllimi*

Məqalədə Musiqi-pedaqoji fakültə tələbələri arasında pedaqoji artistizmin formalaşdırılması zərurətindən bəhs olunur. Müəllif məşhur müəllimlərin praktik təcrübəsinə əsaslanaraq musiqi və pedaqoji bacarıqların vacib hissələrindən birinin artistizm olduğunu düşünür.

Musiqi sənəti öyrətməyin monoton, doqmatik və darıxdırıcı olmasına ehtiyac yoxdur. Yalnız həqiqi pedaqoji sənətkarlıqla yaradıcılıq mühitində musiqi bilikləri, bacarıqları və bacarıqları təsirli və daimi olaraq əldə edilə bilər.

Buna görə də musiqi və pedaqogika fakültəsi tələbələrinin pedaqoji sənətkarlığının formalaşması problemi lazımi peşə bilik, bacarıq və bacarıqlarına yiyələnmək qədər vacibdir.

**К.Исмайлова**

# КАЧЕСТВО АРТИСТИЗМА В ПЕДАГОГИЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ УЧИТЕЛЯ МУЗЫКИ

***Ключевые слова:*** *педагогический артистизм, студенты, мастерство, учитель музыки*

В статье рассматривается необходимость формирования педагогического артистизма у студентов музыкально-педагогического факультета. Автор, опираясь на практический опыт известных педагогов, считает артистизм одной из важных составляющих музыкально-педагогического мастерства.

Обучение музыкальному искусству не должно быть однообразным, догматичным и скучным. Только в творческой обстановке с истинным педагогическим артистизмом могут эффективно и прочно приобретаться музыкальные знания, умения и навыки.

Поэтому проблема формирования педагогического артистизма студентов музыкально-педагогического факультета является такой же важной, как, и приобретение ими необходимых профессиональных знаний, умений и навыков.

**K.Ismayilova**

## THE QUALITY OF THE ARTISTRY IN THE PEDAGOGICAL ACTIVITIES OF A MUSIC TEACHER

***Keywords:*** *pedagogical artistry, student, skill, music teacher*

In the article is considered the necessity of formation of pedagogical artistry at students of musical and pedagogical faculty. The author, relying on the practical experience of well-known teachers, believes that artistry is one of the important components of musical and pedagogical skill. The creative specificity of a musical lesson determines the need for a special equal balance of rational and emotional content. The teaching of musical art should not be monotonous, dogmatic and boring. Only in a creative environment with true pedagogical artistry can musical knowledge, skills be effectively and firmly acquired.

Therefore, the problem of the formation of pedagogical artistry of students in the music and pedagogical faculty is as important as, and the acquisition of the necessary professional knowledge and skills.

Musiqi müəlliminin ustalığı bir sıra faktorlarla müəyyənləşir. Onların arasında pedaqoji artistizm də vardır. Təcrübənin göstərdiyi kimi, musiqi məşğələləri prosesi hətta ən yüksək professional səviyyədə təkcə bilik, bacarıq və qabiliyyətlərdən təşkil olunarsa, əgər parlaq artistizm ab-havası yoxdursa, heç bir yaradıcı şövqlə müqayisə olunmayacaq.

Hamıya məlumdur ki, dərs prosesinin emosional cəhətdən dolğunluğu və parlaqlığı tələbəni (subyekti) irəliləməyə, yaradıcı iş görməyə səsləyir. Bu isə o deməkdir ki, pedaqoqun bir şəxsiyyət kimi siması tələbəyə emosional cəhətdən təsir edir. Müəllimlə tələbə arasında təbiilik, artistizm, ayrılmaz surətdə bağlılıq əmələ gəlir. Bu didaktik məsələ pedaqoji təcrübədə əvvəlki və müasir dövrün bir sıra pedaqoqları tərəfindən təsdiq olunmuşdur. Məsələn, F.M.Blumenfeldin tələbələrinin fikrinə istinadən: "... dərs zamanı həmişə yüksək artistizm hökm sürürdü – bu elə bir əlamətdir ki, onsuz ən bilikli müəllimin fortepiano çalğısı da çox vaxt maraqsız, darıxdırıcı və cansıxıcı olur" [2, s.203].

Musiqi-pedaqoji artistizmin parlaq nümayəndələrindən biri də Q.Q.Neyqauz idi. O, musiqi pedaqogikasının bu sahəsində əsl novator

olmuşdur. Çünki musiqi məşğələlərinə ilk növbədə bədii-yaradıcı proses kimi nəzər yetirirdi. "O, müəllimin tələbəyə bədii-emosional, psixoloji təsirini inkişaf etdirdi, çünki "müəllim məsləhəti" burada azdır. Ona görə də musiqi məşğələlərinin yaradıcı-improvizasiyalı xarakteri zəruridir. Belə məşğələlər bir tərəfdən, quru sxem şəklində qalmır, digər tərəfdən, bədii tərbiyə və psixologiyanın başlıca prinsiplərinin təşkili və dərindən mənimsənilməsinə əsaslanır" [3, s.186].

L.A.Barenboym musiqi məşğələlərində artistizmin əhəmiyyətinə dair aşağıdakıları qeyd etmişdir: "Şübhəsiz ki, gələcək pedaqoq müəyyən metodik biliklərə malik olmalıdır. Amma metodika kursunda bu biliklər müəyyən emosional mühitdə mənimsənilmədir.

Niyə görə mən "emosional mühitə" bu qədər önəm verirəm? Niyə mən bu məsələni metodika kursunun ən zəruri məqamlarından biri hesab edirəm? Niyə musiqi təhsilində maraqsız metodika kursu ziyanlıdır? "

Ona görə ki, bu, musiqi pedaqogikasının spesifik, özünə xas xüsusiyyətidir! Çünki musiqi ifaçılığına yiyələnmək üçün müəllim nəzəri təhlil zamanı da bu işi maraqlı bir şəkildə qurmalıdır. Yəni, emosional cəhətdən zənginləşdirməlidir. Bu proses dərk edilmiş və ya edilməmiş şəkildə emosional cəhətdən təsirli olmalıdır.

Məlum olduğu kimi, musiqi dili öz təbiəti etibarilə şəxsi emosional duyğularla qavranılır. Musiqini ayrı cür dərk etmək mümkün deyil. Musiqidən başqa pedaqoji fəaliyyətin heç bir növündə belə xüsusiyyətlə bu dərəcədə rastlaşmırıq. Məşğələlərin emosional təsir gücü yalnız musiqi pedaqogikasına aiddir" [4, s. 322].

Azərbaycanda professional musiqi təhsilinin inkişaf tarixində Q.Q.Şaroyev, Q.Qarayev, R.Atakişiyev və digər istedadlı pedaqoqlar parlaq artistizmi ilə seçilmişlər. Məsələn, R.Atakişiyevin tələbələrinin vurğuladığı kimi, o, sinifdə tələbələrlə məşğələ zamanı öz sənətinin, musiqinin vurğunu olan yüksək sənətkar, artist kimi iş nümayiş etdirirdi. Əsərin təqdimi zamanı o, tələbənin təxəyyülünü riqqətə gətirməyə, onun qarşısında yüksək bədii ideya və obrazlar açmağa nail olurdu. Görkəmli bəstəkar Q.Qarayev həm də istedadlı pedaqoq idi. O, böyük bəstəkar dəstəsi yetişdirmişdir. Onun dərsləri yüksək, ali sənətə xidmət edirdi. Özünün hərtərəfli biliyi, dərin intellekti, geniş dünyagörüşü və yüksək mənəvi keyfiyyətləri ilə Qarayev öz tələbələrinin inkişafına böyük təsir göstərmişdir.

Həm də qeyd etmək vacibdir ki, pedaqoji artistizm süni, qeyri-təbii, olmamalıdır. Daha doğrusu, heç qondarılmış, süni ola da bilməz. Əgər belə olsa, pedaqoji artistizm pis aktyor oyununa bənzəyər. Məşğələ zamanı yüksək bədii-yaradıcı mühit dərsin məzmununa uyğun olmalıdır.

Musiqi pedaqogikasında vacib komponent olan artistizm müəllimdən yüksək professional bacarıq və qabiliyyətlə yanaşı, həm də hərtərəfli, universal

bilik tələb edir. Müəllimin bir insan kimi də sosial əhəmiyyəti mənəvi, əxlaqi cəhətdən yüksək olmalıdır. Əks təqdirdə, müəllimin artistizmi süni aktyor oyununu xatırladacaq.

Əsl pedaqoji artistizm – böyük iş təcrübəsi zamanı əldə olunmuş ustalıqdır, onun əsasını professionalizm və texnika təşkil edir.

Musiqi-pedaqoji fakultədə uzun illərin iş təcrübəsi deməyə əsas verir ki, musiqi pedaqoqunun fəaliyyəti bir növ səhnə məharəti tələb edir. Müəllim – aktyor kimi çıxış edir. Tələbələr isə tamaşaçılardır. Müəllimin gündəlik çətin fəaliyyəti demək olar ki, həmişə onun öz rolunu nə dərəcədə emosional və səmimi, eyni zamanda professional yerinə yetirməsindən asılıdır. Ona görə də tələbələrdə pedaqoji artistizmin formalaşdırılması professional bilik, bacarıq və qabiliyyətlərin əldə olunması ilə bir cərgədə durur. Müəllim dərsi yüksək artistizmlə aparmalıdır. Pedaqoji artistizm süni şəkildə olmamalıdır, dərin düşünülmüş və səmimiyyət üzərində qurulmalıdır.

Tələbə bilməlidir ki, o, gələcək müəllim kimi həmişə öz tələbələrinin qarşısındadır – səhnədədir. Tələbələrdən səriştəsizliyi, təcrübəsizliyi, mənəviyyatsızlığı gizlətmək mümkün deyil. Ona görə də müəllim öz peşəsinə münasibətdə laqeyd olmamalıdır, ona etinasız yanaşmamalıdır, işinə əhəmiyyət verməlidir ki, dərsləri də maraqlı olsun. Müəllim auditoriyaya daxil olarkən bütün şəxsi problemlərini unutmalıdır. Bunu təcrübəli musiqi müəllimləri deyirlər və bu fikirdə onlar tamamilə haqlıdırlar. Musiqi müəllimi əsl artist kimi bir haldan digər hala düşməyi bacarmalıdır. Tamaşaçıların sevimli aktyoru kimi o, hər dəfə yeni, maraqlı və emosional cəhətdən parlaq rol oynamalıdır.

Deyə bilərik ki, musiqi müəlliminin peşəsi başqa müəllimlərin peşəsindən fərqli olaraqs öz mahiyyəti etibarilə daha çox artistizm tələb edir. Musiqi təhsil alan tələbələrə böyük emosional təsir göstərir, onlarda müəyyən mənada rekasiya yaradır, onları ruhlandırıb, şövqə gətirir.

Həqiqi, yüksək artistizm olmadan musiqi müəllimliyi bir peşə kimi öz əhəmiyyətini itirir, simasız, hərəkətsiz, mənasız fəaliyyətə çevrilir. Bu mənada musiqi-pedaqoji fəaliyyətlə aktyorluq sənəti arasındakı yaxınlıq şəksizdir. Bu fikri təsdiq etməyə ehtiyac yoxdur. Ona görə də müəyyənləşdirmək lazımdır ki, məşğələ zamanı müəllim və aktyor işini bir-birinə yaxınlaşdıran, yaxud bir-birindən uzaqlaşdıran cəhətlər hansılardır.

Musiqi müəllimi və aktyorun fəaliyyəti fəal, hərəkətli və dəyişkəndir. Onların hər ikisi müxtəlif tip insanlarla ünsiyyətdə olur və hər ikisi qarşısında eyni məsələ durur: incəsənət vasitəsi ilə insanların hisslərini və fikirlərini oyatmaq. Həm musiqi müəlliminin, həm də aktyorun işi – yaradıcı prosesdir. Bu proses yüksək sənətkarlıq tələb edir. "Lakin bu peşələrin bir-biri ilə qarşılaşdırılması göstərir ki, musiqi müəlliminin fəaliyyəti aktyor işindən daha çətindir. Sanki aktyor – tamaşanın bir hissəsidir. Müəllimin simasında isə bu cəhət birləşir: o, həm müəllifdir, sanki dərsin ssenarisini yaradır, həm

rejissordur (hər bir musiqi dərsi özünə görə müəyyən mənada premyeradır), həm də baş rolun ifaçısıdır. Sanki zahiri görünüşünə də fikir verir, müvafiq görkəmdə geyinir, daranır. Deməli musiqi müəllimi daim tamaşalar göstəricisidir. Bu cəhət onu müəllim-aktyor səviyyəsinə ucaldır" [5, s.336].

Pedaqoji artistizm və ustalığın mahiyyəti də elə bundadır ki, hər bir tələbə və ya qrup, auditoriya qarşısında özünü hər dəfə nümayiş etdirir və yaxşı bələd olduğu tədris materialını hər dəfə öz süzgəcindən yeni bir şəkildə keçirir.

Qeyd etmək lazımdır ki, tələbələrdə pedaqoji artistizmin formalaşması, onların sinif qarşısında özünü idarə etməsi, səhnə həyəcanını üstələməsi üçün o, musiqi müəlliminin malik olduğu professional və şəxsi keyfiyyətlərdən ibarət tam kompleks keçməlidir. Tələbə hazırlıqlı olmalıdır ki, o, hər zaman tamaşaçı qarşısındadır, hər bir dərs onun üçün "səhnədə monotamaşadır". Bu hal tələbə qarşısında böyük məsuliyyət qoyur. Müasir amerika, fransız və rus alimləri hesab edirlər ki, "Müəllimin artistizmi tələbə üçün böyük rola malikdir. Onun təhsilinin motivasiyası üçün önəmlidir, tələbənin faktik bilikləri ilə emosional duyğularının birləşdirilməsinə imkan verir, ətraf aləmin ümumiləşdirilmiş obrazlı qavranılmasına şərait yaradır" [6, s. 18].

Buna görə də musiqi müəlliminin peşəkar keyfiyyətləri dedikdə, bunun daxilində həm musiqi, həm pedaqoji, həm də psixoloji biliklər cəmləşir. Bütün bu biliklər təhsil prosesində əldə olunur və tələbə xüsusi təfəkkürə, fəaliyyət metodlarına yiyələnır.

Bunların içərisində aşağıdakıları qeyd etmək olar: musiqi və pedaqoji fəaliyyətin harmonik vəhdətinə nail olmaq, fənnin predmetinin metodikasına yiyələnmək, psixoloji hazırlıq, ümumi erudisiya, geniş mədəni görüş dairəsi, pedaqoji ustalıq, pedaqoji əmək texnologiyalarına yiyələnmək, təşkilatçılıq bacarığı, pedaqoji ədəb və mərifət, ünsiyyətcillik, tolerantlıq, pedaqoji artistizm, natiqlik sənəti və s.

Bu cəhətlər bir yerdə cəmləşərək musiqi müəlliminin professional-şəxsi fəaliyyət kompleksini yaradır.

Ümumilikdə belə qənaətə gəlirik ki, müəllim üçün iti müşahidəçilik və yaxşı yaddaş, incə intuisiya və inkişaflı təxəyyül, tənqidi düşüncə və tolerantlıq, professional mütəhərriklik və səriştəlilik vacibdir.

Müəllim fəal olmalıdır, eyni zamanda emosional cəhətdən müvazinətini qorumağı bacarmalıdır. Müəllim səbrli və təmkinli, israrlı və möhkəm olmalıdır, öz diqqətini cəmləşdirməyi bacarmalıdır. Müəllim səbrli və təmkinli, israrlı və möhkəm olmalıdır, öz diqqətini cəmləşdirməyi bacarmalıdır. Bir fəaliyyət növündən digərinə doğru tez bir şəkildə istiqamətini dəyişməyə alışmalıdır, müxtəlif yaş və xarakterə malik olan tələbələrlə ünsiyyəti asanlıqla yaratmalıdır.

Bütün bu proseslər zamanı insan temperamenti, onun xarakteri və psixikasının xüsusiyyətləri öz əksini tapır. Əgər insan utancaq və

adamayovuşmazdırsa, tez özündən çıxan və hirslidirsə, hər şeyə tez acıqlanırsa, emosional cəhətdən laqeyd və tormozlanmış reaksiyaya malikdirsə, deməli onun pedaqoji proses zamanı uğurlu fəaliyyəti əlverişsizdir. Bütün bu qeyd olunan cəhətlər müəllimin pedaqoji fəaliyyətinin yarasız faktorlarından bəhs edir.

Ona görə də musiqi müəlliminin mühüm professional keyfiyyətlərini aşağıdakılar hesab etmək olar: zəhmətkeşlik, əməksevərlik, nizam-intizamlıq, məsuliyyət, məqsədyönlülük, nailiyyətin əldə olunması, mütəşəkkillik, inadkarlıq, öz professional səviyyəsinin planlı və sistematik şəkildə yüksəldilməsi, öz işinin keyfiyyətini daim yüksəltmək istəyir və s.

**Məqalənin elmi yeniliyi:** Musiqi müəlliminin peşəsi təkcə musiqi ifaçılığı, pedaqoji və psixoloji bilik, bacarıq və qabiliyyətləri ehtiva etmir. Eyni zamanda burada müsbət şəxsi keyfiyyətlər, universal bilik və ədəb, tolerantlıq və artistizm, insanpərvərlik və etiklik bir problem kimi əsaslandırılır.

## Ədəbiyyat


1. Xəlilov V.S. Müəllimin estetik mədəniyyətinin yüksəldilməsi istiqamətləri. Bakı: Nərgiz, 1997.
2. Баренбойм Л.А. На уроках Ф.М.Блуменфельда. Вопросы фортепианного исполнительства. Выпуск 1. М. Музыка, 1965.
3. Дельсон В.Ю. Г.Нейгауз. М.: Музыка, 1966.
4. Баренбойм Л.А. За полвека: Очерки. Статьи. Материалы. Л.: Сов.композитор, 1989
5. Алиев Ю.Б. Настольная книга школьного учителя-музыканта. М.: ВЛАДОС, 2000.
6. Вескер А.Б. Педагогическая этика нового века и артистические способности учителя / Мир образования - образование в мире. Научно-методический журнал // Глав. ред. В.А.Разумный. 2004, №1 (13).



**Məqalənin redaksiyaya daxil olma tarixi: 09.02.2021**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 16.02.2021**
**Məqalənin çapa qəbul olunma tarixi: 15.03.2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru Aynur Hüseynova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №1, 2021, **s. 26-31**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2021, **с. 26-31**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2021, **pp. 26-31**

# *TƏLİM VƏ TƏRBİYƏNİN NƏZƏRİYYƏSİ VƏ METODİKASI (MUSİQİNİN TƏDRİSİ METODİKASI)*

**UOT 37.02:78.074**

**M.T.Əliyeva**
pedaqogika üzrə fəlsəfə doktoru, baş müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti,
Az 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi,68
e-mail: m.aliyeva60@gmail.com

## DİRİJORLUQ DƏRSLƏRİNDƏ TƏLƏBƏLƏRDƏ MİLLİ-VƏTƏNPƏRVƏRLİK HİSSLƏRİNİN TƏRBİYƏSİ

***Açar sözlər:*** *vətənpərvərlik, tərbiyə, xor, musiqi, dirijorluq*

Məqalədə dirijorluq dərslərində xor musiqisinin, xüsusilə də milli-vətənpərvər ruhda yazılmış Azərbaycan bəstəkarlarının xor əsərlərinin tərbiyəvi imkanları araşdırılır. İlk dəfə olaraq, Azərbaycan bəstəkarlarının vətənpərvərlik mövzusunda xor yaradıcılığının ölkəmizdə peşəkar musiqi sənətinin yarandığı gündən bu günə qədər şərhi verilir. Məqlədə dahı Ü.Hacıbəylinin milli xor janrlarının təşəkkülündə rolu göstərilir.

**М.Т.Алиева**

## ВОСПИТАНИЕ НАЦИОНАЛЬНО-ПАТРИОТИЧЕСКИХ ЧУВСТВ СТУДЕНТОВ НА УРОКАХ ДИРИЖИРОВАНИЯ

***Ключевые слова:*** *патриотизм, воспитание, хор, музыка, дирижирование*

В статье рассматриваются воспитательные возможности хоровой музыки на уроках дирижирования, особенно патриотических хоровых произведений Азербайджанских композиторов. Впервые проводится обзор хорового творчества Азербайджанских композиторов по патриотической тематике с момента зарождения профессионального музыкального искусства в нашей стране до сегодняшних дней. В статье указывается на роль великого У.Гаджибейли в зарождении национальных хоровых жанров.

**M.T.Aliyeva**

## EDUCATION OF NATIONAL PATRIOTIC FEELINGS OF STUDENTS ON CONDUCTING LESSONS

***Keywords:*** *patriotism, education, song, choir, music, conducting*

The article examines the educational possibilities of choral music in conducting lessons, especially patriotic choral works of Azerbaijani composers. For the first time, a review of the choral work of Azerbaijani composers on patriotic themes is carried out from the moment of the birth of professional musical art in our country to the present day. The article points to the role of the great Uzeyir Hajibayli in the birth of the national choral genres.

Vətənpərvərlik – mürəkkəb və çoxşaxəli, dərin anlama malik bir hadisədir. Vətənpərvərliyin dərin və tarixi kökləri vardır. O, ən müqəddəs və ən ülvi hisslərdən, duyğulardan biridir. Cəmiyyətin ən vacib və əhəmiyyətli dəyərlərindən biri kimi o, özündə sosial, siyasi, mənəvi, mədəni, tarixi və bir çox başqa komponentləri ehtiva edir və, ilk növbədə o, öz Vətəninə qarşı uca, emosional münasibət kimi özünü büruzə verir. Vətənpərvərlik – şəxsiyyətin mənəvi zənginliyinin mühüm bir hissəsi kimi çıxış edir və şəxsiyyətin sosial əhəmiyyətinin yüksək səviyyəsi ilə xarakterizə olunur. Bu bir həqiqətdir ki, vətənpərvərlik insanda fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik hissi yaradır, apardığı mübarizədə onda inam hissini gücləndirir.

Vətənpərvərlik insanı səciyyələndirən ən mühüm keyfiyyətlərdən olduğundan onun böyüməkdə olan nəslə aşılanması, uşaq, yeniyetmə və gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi təhsilin bütün pillələrində təlim-tərbiyə işinin ən mühüm istiqamətlərindən, ən vacib vəzifələrindən olmalıdır.

Vətənə, xalqına, torpağına sevgi hisslərinin tərbiyəsini hər bir fənn müəllimi öz fənninin imkanları daxilində həyata keçirməlidir. “Dirijorluq” fənninin imkanları isə buna çox böyük şərait yaradır. Ümumi musiqi mədəniyyətin tərkib hissəsi olan xor musiqisi də bu məsələlərin həllinə qulluq edir. Xor musiqisi nümunələrini isə tələbələr dirijorluq dərslərində öyrənirlər.

Xor sənəti musiqi mədəniyyətinin ən qədim və zəngin hissələrindən biridir. Xor ifası bədii fəaliyyətin ən geniş və demokratik forması olaraq insanların mənəvi aləmlərini, düşüncə və hisslərini, dünyagörüşlərini əks etdirir. Xalqımızın vətənpərvər hisslərinin tərbiyəsində xor sənətinin sözsüz ki, böyük təsiri var.

Bu baxımdan müəllimin qarşısında repertuarın düzgün seçimi kimi vacib məsələ durur. Repertuar seçildikdə tələbənin nəinki texniki və bədii-estetik zövgünün inkişafı, həmçinin və ən başlıcası onun mənəvi keyfiyyətlərinin

formalaşdırılması da nəzərə alınmalıdır ki, bu keyfiyyətlər sırasında milli-vətənpərvərlik hissləri önəmli yer tutur.

Azərbaycan bəstəkarlarının yaradıcılığında xor musiqisi mühüm yer tutur və onun böyük bir hissəsi qəhrəmani-vətənpərvərlik mövzusu ilə bağlıdır. Xor musiqisinə ümumiyyətlə vətəndaşlıq mövzuları xarakterikdir. Burada vətənə sadiqlik, sevgi, ədalətsizliyə qarşı mübarizə kimi epik və nəhəng ideyalar öz əksini tapır. Xor mədəniyyəti – bəstəkar yaradıcılığının elə sahəsidir ki, burada bədii tərbiyə funksiyaları ictimai-musiqi funksiyaları ilə uyğunlaşır.

Dahi Azərbaycan bəstəkarı Ü.Hacıbəylinin yaradıcılığında hərbi-vətənpərvərlik mövzusunda əsərlər çoxluq təşkil edir. Bunlar janr baxımından müxtəlifdir: «Milli marş», «Azərbaycan marşı», «Çırpınirdi Qara dəniz», «Süvari», «Çağırış», «Ananın oğluna nəsihəti», «Döyüşçülər marşı», «Şəfqət bacısı», «Vətən ordusu», «Yaxşı yol», «Cəbhəyə», «Zəfər himni», «Əsgər marşı», «Səni gözləyir”, «Vətən və cəbhə» kantatası və bəstəkarın bu mövzuda şah əsəri olan «Koroğlu» operasından «Çənlibel» xoru.

Dirijorluq dərslərində adları çəkilən əsərlərin, xüsusilə də “Çənlibel” xorunun öyrənilməsi vətənpərvərlik tərbiyəsi baxımından çox vacıb bir məqamdır, çünki tələbələr əsəri dirijorluq etməmişdən öncə onun yaranma tarixi və ideya-məzmunu barəsində məlumatlar toplayır (bu əsər üzərində işin ilkin mərhələsidir). Yalnız bundan sonra onun dirijorluğuna keçirlər. Qəhrəmanlıq mübarizəsinə köklənmiş xalqın səciyyəvi intonasiyası məhz bu xorda öz ifadəsini tapmışdır. Xalq kütlələrinin oyanışı zamanı onun parlaq səciyyəsi olan bu döyüşkən xor həm də opera qəhrəmanı ilə xalqın birliyini nümayiş etdirir.

Q.Qarayevin xor yaradıcılığı musiqişünaslar tərəfindən az öyrənilsə də, bununla belə o, respublikada xor sənətinin pionerlərindən və Ü.Hacıbəylinin layiqli davamçılarından olmuşdur. Bəstəkarın bir sıra *a capella* və kino üçün yazdığı xor əsərləri mövcuddur, lakin vətənpərvərlik mövzusu dedikdə, biz sözsüz ki, onun üç kantatasından və C.Hacıyevlə birgə yazdıqları “Vətən” operasından danışmalıyıq. Bu əsərlərin dirijorluq dərslərində öyrənilməsi də vacibdir.

Ü.Hacıbəyli ənənələrinə sadiq qalan bəstəkardan biri də C.Cahangirov olmuşdur. Bəstəkarın xor yaradıcılığında vətənpərvərlik mövzusu ilə bağlı əsərlər geniş yer tutur. Buraya “Arazın o tayında” vokal-simfonik poema, “Azad” operasından “Çaargah xoru”, “Azərbaycan” odası kimi əsərlər daxildir.

Bəstəkarın “Azad” operasında Cənubi Azərbaycanın azadlığı və istiqlaliyyəti uğrunda məzlum xalqın mübarizəsi öz əksini tapmışdır. Operanın əsas ideyasını yaşadan baş qəhrəman xalqdır. Buna görə də operanın dramaturgiyasında öz emosional məzmununa görə əsas yeri çox rəngərəng olan kütləvi xor və rəqs səhnələri tutur. Xorun spesifikasını gözəl bilən bəstəkar xüsusi ustalıqla xalq xor səhnələrini yaradır. Buna misal olaraq üsyan etmiş

xalqın obrazını təcəssüm etdirən bütövlüklə III pərdəni göstərmək olar. Həm öz məna əhəmiyyətinə görə, həm də ayrı-ayrı səhnələrin monumental sədalanmasına görə "Koroğlu"nun məşhur "Çənlibel" səhnəsilə səsləşən üçüncü pərdə operada xalq obrazının inkişafında zirvə təşkil edir. Burada səslənən "Çaargah" xoru böyük epik ifadəliliyi və monumentallığı ilə fərqlənir. Qurtuluşa inam ifadə edən və "qara buludları" qovmağa çağıran xor qəhrəmanlıq xarakteri daşıyır.

Dirijorluq dərslərində digər görkəmli Azərbaycan bəstəkarlarının vətənpərvər ruhda yazılmış əsərlərini repertuara salmaq məqsədəuyğundur. Dirijorluq dərslərində tələbələrin S.Rüstəmovun "Ana vətən" xor mahnısı, T.Quliyevin "İgidlər" odası, Ə.Hüseynzadənin "Gözəl Vətən" kantatası, F.Əmirovun "Vətən haqqında mahnı" kantatası, A.Rzayevanın "Çiçəklən yurdum", İ.Məmmədovun "Azərbaycan", A.Əlizadənin "Azərilər" və S.Ələsgərovun "Vətənə eşq olsun" kantataları ilə tanışlığı zamanı onlarda vətənpərvərlik hisslərinin oyanması və inkişafı baş verir.

1990-cı illər Azərbaycan xalqının tarixində ən faciyəvi səhifələrindən biri olmuşdur. Qanlı yanvar hadisələri, müharibə abu-havası, 20% torpağlarımızın itirilməsi incəsənət xadimlərimizə böyük təsir göstərmişdir. Bəstəkarlarımızın vətənpərvərlik mövzusunun açıqlanmasında bir dönüş yaranmışdır. Bu zaman R.Mustafayev də fəal yaradıcı fəaliyyətini nümayiş etdirir. Məhz bu illər onun "Salatın", "Məhəmməd və Leyla" oratoriyaları, "Haqq səninlədir", "Bu qan yerdə qalmaz" kantataları, "Nədən yarandın" vokal-simfonik poeması kimi əsərləri yaranır ki, bu əsərlərin dirijorluq dərslərində öyrənilməsi vacibdir.

Həmin illər hərbi vətənpərvərlik mövzusuna daha çox müraciət edən bəstəkarlardan biri də Süleyman Ələsgərov idi. Onun yazdığı mahnı və marşlar melodiyanın ahəngdarlığı baxımından həm xalq musiqisinə bağlı idi, həm də xalqa mənəvi ruh verirdi. "Bu torpağa bağlıyıq", "Yürüş mahnısı", "Gənclik mahnısı", "Hardasan igid oğlan" , "Biz qələbə çalmalıyıq", "Qəhrəman", "Bura vətəndir" mahnıları, S.Ə.Şirvaninin sözlərinə xor, solist və orkestr üçün "Nöhvə", Güdrət Əzizin sözlərinə xor, solist və orkestr üçün "Güllənənən abidələr" balladası və b. kimi əsərlərin adlarını çəkmək olar.

Xor musiqisi janrlarının inkişafında, milli xor üslubunun yeni səviyyəyə çıxmasında görkəmli Azərbaycan bəstəkarı A.Əlizadənin də böyük rolu olmuşdur. Xor musiqisi onun yaradıcılığında aparıcı sahələrdən biridir. Tam qətiyyətlə demək olar ki, bəstəkar özünəməxsus şəxsi xor üslubunu yaratmağa müvəffəq olmuşdur. Onun vətənpərvərlik mövzusunda bəstələdiyi xor əsərləri sırasında "Azərilər" (söz. F.Qocanın) və "Ana torpaq" (söz. B.Vahabzadənin) kantatalarını göstərmək olar. Bunu da qeyd etmək lazımdır ki, A.Əlizadə vətənpərvər hisslərini təkcə epik-qəhrəmani əsərlər vasitəsilə deyil, həm də lirik əsərlər vasitəsilə çatdıra bilmişdir. Bu baxımdan onun xalq psixologiyasını, xarakterini dərk etmək yolunda ciddi səyləri "Bayatılar" (1969) xor silsiləsi

daha qabarıq əks etdirir.

1975-ci ildə Fikrət Qocanın sözlərinə yazdığı "Azərilər" kantatası vətəndaşlığı, qəhrəmanlığı tərənnüm edir. Bəstəkar xalqımızın keçmişindən müasir dillə danışır. Əsər yüksək amallar – vətən və xalq qarşısında məsuliyyət hisslərini aşılayır. Humanist və qəhrəmani mövzu burada xalq poetik təfəkkürü vasitəsilə ifadə olunur. Kantata 4 hissədən ibarətdir. Burada bəstəkar alleqorik şəkildə Dəniz, Dağ, Bahar və Odlu torpaq barədə söhbət açır. Əbədi fəzanın səsi tarixin canlı səsini xalq yaddaşında qəhrəman oğulların nurlu xatirəsini hifz edir və nəsillərə yetirir. Qəhrəmanlığın mənəvi gözəlliyi kantatada ardıcıl və hərtərəfli olaraq açıqlanmışdır. Burada bəstəkar istedadının gücü ilə xalq musiqisinin dərin qatlarını özünəxas parlaq formada təzahür edə bilmişdir. O, folkloru yaradıcı şəkildə sənət süzgəcindən keçirərək mahiyyətcə yeni bir bədii məzmun yaratmağa müvəffəq olmuşdur.

Müasir Azərbaycan musiqisində görkəmli bəstəkar Vasif Adıgözəlov da parlaq əsərlər yaratmışdır. Onun bəstələdiyi vətənin, torpağın müqəddəsliyini tərənnüm edən "Odlar yurdu", "Qarabağ şikəstəsi", "Çanaqqala" oratoriyaları vətənpərvərlik ideyası ilə bağlı olan monumental triptix təşkil edirlər. Bu əsərlərdə bəstəkarın musiqi dilinin xüsusiyyəti ondan ibarətdir ki, burada milli musiqi ənənələri ilə Avropa musiqi ənənələrinin sıx birləşməsi baş verir. V.Adıgözəlovun melodikası milli musiqimizin ənənələrinə söykənir və onun təsiri altında formalaşır. V.Adıgözəlov öz oratoriyalarında ciddi və dərin məzmunlu tarixi mövzulara müraciət etmişdir. Onun oratoriyalarında əks olunan qəhrəmanlıq və vətənpərvərlik ideyası öz aktuallığını, mənasını və əhəmiyyətini bu gün də açıq-aşkar göstərmiş olur.

2000-ci illərdə də bəstəkarlarımız xor əsərlərində vətənpərvərlik mövzusuna əvvəlki kimi çox müraciət edirlər. Məsələn, R.Mustafayev 2007-ci ildə "Hünər göstərin" və "Azad olacaq Qarabağ" simfonik orkestr və xor üçün odalar, R.Mirişli "Məşəl kimi yanan ürək", "Doğma diyarım", "Azərbaycan" xor və orkestr üçün süitalar, F.Allahverdi 2004-cü ildə böyük simfonik orkestr və xor üçün "Qarabağ odası", O.Rəcəbov "Ulu öndər" əsərlərini yaratmişdilar. 2009-cu ildə bəstəkar Firəngiz Əlizadənin bəstələdiyi "Qarabağnamə" operası Opera və Balet Teatrında tamaşalarla təqdim edilmişdir. Bir sözlə, bəstəkarlarımız bu mövzuda yetərincə əsərlər yaradırlar.

2000-ci illərdə vətənpərvərlik mövzusunda təkcə monumental əsərlər deyil, həm də kiçik həcmli xor mahnı janrının da inkişafı davam etdirilir. Məsələn, Bəstəkar Oqtay Rəcəbovun 35 mahnıdan ibarət "Vətən nəğmələri" adlı məcmuəsinin böyüməkdə olan gənc nəsil vətənpərvər ruhda tərbiyələnməsi üçün əhəmiyyətini xüsusi vurğulamaq istərdik. Bundan başqa tanınmış bəstəkarımız professor Azər Dadaşovun da pu səpkidə yazdığı xeyli xor mahnıları vardır (24 mahnıdan ibarət toplusu).

A.Dadaşov Azərbaycanın xor musiqisi sahəsində çalışan ən ustad

sənətkarlarından biridir. Bəstəkarın bütün xor əsərləri vokal cəhətdən ifa üçün çox rahatdır, bununla bərabər o, hər bir səsin tembr xüsusiyyətlərini, çalarlarını çox böyük məharətlə üzə çıxarmağı bacarır. Bəstəkarın vətənpərvərlik ruhda yazılmış iri həcmli vokal-simfonik əsərləri ("Ana yurd", "Bu Vətən ölə bilməz" kantataları, "Bir millət-iki dövlət" odası, himnləri və s.) xüsusi diqqətə layiqdir, çünki burada simfonik və xor yazılış üslublarının həssas şəkildə sintezi baş verir. Bu əsərlərin dirijorluq dərslərində öyrənilməsi tələbələrə milli təfəkkürü, xalqına sevgi, vətənpərvərlik və qəhrəmanlıq hisslərini aşılayır.

Bu gün torpaqlarımız işqaldan azad olduqdan sonra, ümid edirik ki, bəstəkarlarımız yeni-yeni vətənpərvərlik ruhda əsərlər yazacaq, elə əsərləri ki, orada xalqımızın birliyi, mübarizliyi, fədakarlığı, ordumuzun rəşadəti, gəhrəmanlığı və misilsiz şücaəti əks olunacaqdır. Bu əsərlərdə artıq miskinlik deyil, böyük Qələbə ruhu təsvir olunacaqdır, o qələbə ki, minlərlə şəhid və qazilərimizin, vətənin igid oğullarının və müdrik, cəsur rəhbərlik sayəsində mümkün olmuşdur!

Beləliklə, gördüyümüz kimi, Azərbaycan bəstəkarlarının yaradıcılığında kifayət qədər milli-vətənpərvərlik ideyasını daşıyan xor əsərləri vardır ki, bunların vasitəsilə dirijorluq dərslərində tələbələrin vətənpərvərlik tərbiyəsini həyata keçirmək olar. Bəstəkarlarımızın yaratdığı hər bir sənət əsəri formaca milli, məzmunca bəşəri olaraq mədəniyyətmizin zənginləşməsinə, gənc nəslin vətənpərvərlik və humanist ruhda yetişdirilməsinə zəmin yaradır.

## Ədəbiyyat

1. Dadaşova E., Əliyeva M. "Dirijorluq və onun tədrisi metodikası". Bakı, 2013, 219 s.
2. Abdullayeva Z. "Azərbaycan musiqi ədəbiyyatı". Bakı, 2009, 216 s.
3. Hacıbəyli Ü. «Azərbaycanın musiqi sənəti haqqında». Bakı, 1986
4. Hidayətova F. «Musiqi və vətəndaşlıq tərbiyəsi». Bakı, 2009, 187 s.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 09.02.2021**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 16.02.2021**
**Məqalənin çapa qəbul olunma tarixi: 15.03.2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Afət Həsənova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 378**

**A.H.Qəribova**
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Az 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi,68
E-mail: qaribova.arifa@gmail.com

# MUSİQİ MÜƏLLİMİNİN PEŞƏ KOMPETENSİYALARI

***Açar sözlər:*** *pedaqoji fəaliyyət, musiqi tərbiyəsi, peşə bacarıqları, musiqi təfəkkürü*

Məqalədə musiqi müəlliminin peşə ustalığının və uğurlu pedaqoji fəaliyyəti üçün müxtəlif pedaqoji və xüsusi (ixtisas) bilik, bacarıq və vərdişlərin zəruriliyi göstərilir ki, məhz bunlar musiqi müəlliminin əsas kompetensiyalarını ehtiva edir. Burada bu bilik, bacarıq və vərdişlərin qısa təhlili aparılır.

**А.Г.Гарибова**

# ПРОФЕССИОНАЛЬНЫЕ КОМПЕТЕНЦИИ УЧИТЕЛЯ МУЗЫКИ

***Ключевые слова:*** *педагогическая деятельность, музыкальное воспитание, профессиональные умения, музыкальное мышление*

В статье указывается, что для формирования профессионального мастерства и успешной педагогической деятельности учителя музыки необходимо единство различных педагогических и специальных знаний, умений и навыков, которые и составляют основные компетенции учителя музыки. Здесь дается краткий анализ этих знаний, умений и навыков.

**A.H.Garibova**

# PROFESSIONAL COMPETENCE OF A MUSIC TEACHER

***Keywords:*** *educational activities, musical education, professional skills, musical thinking*

**Summary:** The article indicates that the formation of professional skills and successful pedagogical activity of a music teacher requires the unity of various pedagogical and special knowledge, skills and abilities, which constitute the main competencies of a music teacher. A brief analysis of this knowledge, skill and skill is given here.

Pedaqoji peşə məğzinə görə mürəkkəb və çoxşahəli olaraq, hər hansı ixtisasdan olan müəllimin qarşısına çoxsaylı tələblər qoyur. Müəllim öz peşə fəaliyyətini həyata keçirərək eyni zamanda həm metodist, həm tərbiyəçi, həm də psixoloq kimi çıxış edir. Öz strukturuna görə vahid olan pedaqoji fəaliyyətin müxtəlif tərəflərinin təkmilləşdirilməsi müəllimdən xüsusi bilikləri, bacarıq və vərdişləri tələb edir ki, bunlar da, öz növbəsində, pedaqoji qabiliyyətlərin inkişafına və nəticədə pedaqoji ustalığa yiyələnməyə gətirib çıxarır.

Musiqi müəlliminin peşə fəaliyyəti pedaqoji və xüsusi bilik və bacarıqların vəhdəti ilə xarakterizə olunur. Belə ki, pedaqoji bacarıqlar şüurlu şəkildə həyata keçirilərək axtarış xarakteri və müxtəlif situasiyalarda çevik tədbiq olunma kimi xassələri ilə səciyyələnir. Müəyyən bacarıq sisteminə yiyələnmə pedaqoji fəaliyyətdə peşəkarlığın göstəricisidir, özü də məhz peşə baxımından əhəmiyyətli bacarıqların formalaşmış olması pedaqoji ustalığın əmələ gəlməsi üçün zəruri şərtdir. Belə bacarıqlar sırasında ən əvvəl konstruktivlik, təşkilatçılıq, kommunikativlık, informasiyalılıq, qnostiklik (yəni yeni biliklərin axtarışına meyllilik), idarəçilik, qabaqcıl pedaqoji təcrübədən bəhrələnmə bacarıqlarını qeyd etməliyik. Pedaqoji bacarıqlara həmçinin pedaqoji situasiyanın təhlili, nəticələrin lahiyələndirilməsi və pedaqoji təsirin planlaşdırılması bacarıqları da aiddir.

Əgər musiqi müəlliminin şəxsiyyətinin keyfiyyətləri onun hazırlığı prosesində formalaşırsa, onun konkret peşəkar bacarıqları isə praktiki fəaliyyətdə inkişaf edir. Bunlar – musiqi materialının seçilməsi və qurulması, ifadəli nitqə yiyələnmə, öz hərəkətlərinin kontrol edilməsi və qiymətləndirməsi, şagirdlərlə düzgün ünsiyyət tərzinin tapılması, dərsin ayrı-ayrı hissələrinin vaxt baxımından səlis paylaşdırılması kimi bacarıqlardır.

Pedaqoji məsələlərinin həllinə yalnız pedaqoji fəaliyyətə tələbatı formalaşan müəllimlər qadirdir. Musiqi müəlliminin qarşısında həlli uzun müddətə nəzərdə tutulan məsələlər dura bilər. Bu cür məsələlər bir neçə fərdi məsələdən ibarətdir ki, onların hər biri ümumi məsələnin həllində bir mərhələdir. Belə ki, musiqi müəlliminin ən başlıca vəzifəsi, sözsüz, şagirdlərin musiqi mədəniyyətinin tərbiyəsidir. Onu təşkil edən fərdi məsələlər təlimin hər bir mərhələsində ardıcıl və yaxud eyni zamanda həll olunur: şagirdlərin musiqiyə maraqlarının oyandırılması, musiqi qavrama bacarığının emosional-idrak fəaliyyətinin təşkili yolu ilə sistemli inkişafı, musiqili-ifaçılıq fəaliyyətinə cəlb olunması, musiqi barəsində əsas bilik-lərin verilməsi. Bu məsələlərin hər biri, öz növbəsində, musiqili-pedaqoji fəaliyyət prosesində yaranan "operativ" məsələlərlə daima uyğunlaşdırılır.

Beləliklə, müəllimin peşə ustalığı, başlıca olaraq, pedaqoji məsələnin müəyyənləşdirib onu uğurla həll edilməsində izhar olunur. Bu müddəaya əsaslanaraq demək olar ki, daima yeni bilik və bacarıqlarla zənginləşməni tələb edən musiqili-pedaqoji fəaliyyət ilə bağlı pedaqoji məsələlərinin həlli yaradıcı

təfəkkürün və yerinə yetirdiyi fəaliyyətə qarşı idrak marağının inkişafına təkan verir. Öz növbəsində bu fəaliyyət prosesində müəyyən bacarıqlara yiyələnmə, yaranan idrak marağı ilə birgə, peşəkar-pedaqoji meyllərin (tələbatın) formalaşdırılması vasitəsi kimi çıxış edir.

Musiqi müəlliminin şəxsiyyətinin strukturunda, onun peşə fəaliyyətinin təməlində təfəkkür xüsusi bir yer tutur. Musiqi müəlliminin peşə fəaliyyətində biliklərin və təfəkkürün bir-birindən asılılığının və mütənasibliyinin düzgün dərk edilməsi böyük əhəmiyyətə malikdir. Həm biliklər, həm də təfəkkür fərdi idrakın elementləridir. Xaricdən gələn informasiyanın nəzəri cəhətdən işlənilməsi və dəyişdirilməsi yalnız müəyyən bilik ehtiyatının olduğu halda baş verə bilər. Eyni zamanda bilik və hərəkət sistemi əqli fəaliyyətin nəticəsidir ki, o, yeni biliklərin alınmasını təmin edir. Bu biliklər isə öz növbəsində sonrakı idrak prosesinin əsasını təşkil edir. Bu və ya digər fəaliyyət məhz biliklərlə müəyyənləşdirilir.

Əsərin ideya-obrazlı məzmununun dərk edilməsinin əsasında musiqi nitqinin qanunauyğunluqlarını əks etdirən məntiqi başlanğıc durur. Musiqi əsərinin quruluşu, onun formasının məntiqi anlaşılması emosional qavrama və əsərin bədii obrazının dərinliklərinə varmağa yardım edir. Musiqi müəllimlərinin hazırlanması təcrübəsi göstərir ki, tələbənin əsərin mənasına, bəstəkarın niyyətinə daxil olma bacarığı gələcəkdəki pedaqoji fəaliyyətində ona uşaqların yaradıcı aləminin, onların obrazlarla düşünmə bacarığının formalaşdırılmasına imkan yaradır.

Musiqi təfəkkürü, onun inkişaf səviyyəsi, musiqi təsəvvürlərin və anlayışların həcmindən, onların məzmun dolğunluğundan, diferensiallaşma və ümumiləş-dirilməsindən, bir-birilə nə dərəcədə mütanasib olduğundan asılıdır.

Musiqi müəlliminin ümumtəhsil məktəbdə işinin spesifikası ondan həmçinin xüsusi bilik, bacarıq və vərdişləri də tələb edir ki, bunların vasitəsilə musiqili-pedaqoji fəaliyyətin uğurlu nəticəsi təmin olunur. Bu bilik və bacarıqlara nəzəriyyə, musiqi tarixi, vokal, xor-dirijorluğu və alətdə (pianoda) ifa aiddir.

Musiqili-nəzəri hazırlıq müəllimə musiqi sənəti hadisələrini, musiqi tarixi və nəzəriyyəsinin qanunauyğunluqlarını qarşılıqlı əlaqədə və qarşılıqlı təsirdə daha dərindən anlamaq imkanını verir. Müəllimin musiqi tarixinə dair bilikləri musiqi mədəniyyətini qədim dövrlərdən bu günə kimi əhatə etməlidir. Xarici və azərbaycan professional musiqisinin və xalq yaradıcılığının tarixinə dair biliklər müxtəlif musiqi hadisələrinin geniş qavranılmasının zəruri özülünü təşkil edir ki, bu da şagirdlərin ümumi musiqili-estetik tərbiyəsi vəzifələrinə uyğundur.

Müəllim yüksək səviyyəli musiqi mədəniyyətinə malik olmalı, müxtəlif bəstəkarlıq məktəblərinin xüsusiyyətlərini ayırd etməli, müxtəlif dövrlərdə yaradılan ən görkəmli əsərləri tanımalı, onların üslubunu, formasını, musiqi

ifadəlilik vasitələrini təhlil və xarakterizə etməyi bacarmalıdır. Musiqi nəzəriyyəsi və tarixinin öyrənilməsi müəllimə həm dərslərin keçirilməsində, həm də sinifdən kənar və maarifçilik işin təşkilində mühüm rol oynayır. Bütün bu məsələlərin həllinə pedaqoji təmayüllü ali məktəblərdə tədris olunan nəzəriyyə, solfecio, harmoniya, polifoniya, musiqi əsərlərinin təhlilinə dair biliklər yardım edir.

Musiqi müəlliminin peşə fəaliyyətini vokal və xor-dirijorluğu hazırlığı olmadan təsəvvür etmək mümkün deyil, çünki bu fəaliyyət xor partituraların oxunuşu bacarığını, dirijorluq etməni, səs quruluşu metodikasına yiyələnməni və xorla işin xüsusiyyətlərinin bilməsini tələb edir. Ümumtəhsil məktəbində aparılan vokal-xor işi müəllimdən bir-çox vərdiş və bacarıqları tələb edir ki, bunların sırasına partituranı daxilən intonasiya etmək; əsərlərin ifaçılıq baxımından vokal-xor təhlilini aparmaq; xoru idarə etmənin priyomlarını bilmək; ifaçılıq məsələlərinin həllinin yeni, qeyri-standart və səmərəli vasitələrini tapmaq; daima özünün eşitmə qabiliyyətini və daxili sluxunu təkmilləşdirmək; özünün vokal-xor təfəkkürünü inkişaf etdirmək; dirijorluq texnikasına malik olaraq, onu daima mükəmməlləşdirmək; xorla işin metodikasını bilmək kimi bacarıqlar daxildir.

Musiqi müəlliminin hazırlığı hökmən alətdə ifa və konsertmeyster vərdişlərinə yiyələnməni də nəzərdə tutur. Müəllimin bu növ fəaliyyətinin spesifikası onun məktəbdə tətbiq olunması formalarının müxtəlifliyi ilə müəyyənləşdirilir. Helə D.Kabalevski qeyd edirdi ki, müəllimin alətdə, xüsusən də fortepianoda çalmaq bacarığı onun bütün bacarıqları sırasında ən vaciblərindən biridir. Bütün texniki vasitələr yalnız əlavə kimi istifadə oluna bilər, çünki musiqinin canlı ifası böyük emosional təsir gücünə malikdir. Bundan əlavə, canlı ifa zamanı müəllim əsərin hər hansı bir yerində dayanaraq, şagirdlərin diqqətini ifadəlilik vasitələrinin ayrı-ayrı xüsusiyyətlərinə yönəldə bilər. Nəhayət, çalmağı bacaran müəllim şagirdlərin gözündə daha böyük nüfuz sahibi olur, nəinki çalmağı bacarmayan.

Buna görə də müəllim daima öz ifaçılıq ustalığını təkmilləşdirməlidir, yəni üzdən oxuma, tez, savadlı və şüurlu şəkildə mətni qavrama, yeni əsərlərlə tanış olma, onların üslub məqzini anlama, repertuarını yaratma və yeniləmə bacarıqla-rını özündə yetişdirməlidir.

Lakin müəllim unutmamalıdır ki, o, hər nə qədər yaxşı ifaçı olursa olsun, bu hələ yaxşı müəllim olmaq deyildir. Buna görə də o, daima özünün pedaqoji ustalığının təkmilləşdirilməsi üzərində çalışmalıdır. Orta musiqiçi və yaxşı pedaqoq, yaxşı musiqiçi və pis pedaqoqdan daha üstündür. Müasir musiqi müəllimi həmçinin yaxın olan elm sahələrinin (psixologiya, yüksək sinir sisteminin fiziologiyası, didaktika, estetika və s.) nailiyyətlərini də bilməli və onları özünün praktiki fəaliyyətində nəzərə almalıdır. Çünki şagirdlərin musiqi inkişafı prosesinə nəinki empirik yanaşmaq, həm də seçdiyi və tətbiq etdiyi

metodikaları qabaqcıl elm nəzəriyyəsi baxımından əsaslandırmaq da vacibdir.

Beləliklə, musiqi müəlliminin peşə fəaliyyətinin uğurla həyata keçirilməsi və peşə ustalığının formalaşdırılması üçün müxtəlif pedaqoji və xüsusi bilik və bacarıqların tam bir vəhdəti zəruridir.

## Ədəbiyyat

1. Qədimova J. Musiqinin tədrisi metodikası. Bakı, 2007, 323 s.

2. Rəcəbov O, Hidayyətova F. Ümumtəhsil məktəblərində musiqinin tədrisi və tərbiyəsi metodikası. Bakı, 2013, 258 s.

3. Rəcəbov O., Məmmədova G., Pedaqoji təmayüllü orta ixtisas və ali məktəblərdə musiqi tədrisinin metodikası.Bakı, 2009, 201 s.

4. Арчажникова Л. Профессия – учитель музыки. Москва, 1984, 111 с.

5. Алиев Ю.Б. Настольная книга школьного учителя музыки. Москва, 2002

**Məqalənin redaksiyaya daxil olma tarixi: 11.02.2021**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 23.02.2021**
**Məqalənin çapa qəbul olunma tarixi: 15.03.2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru, dosent Mədinə Tuayeva**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 373.1: 378.14**

**G.Axundova**
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Az 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi,68
e-mail: gaxundova1949@gmail/com

# İNTEQRATİV DƏRSLƏRİN XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *fənlər arası və fəndaxili inteqrasiya, dərs, təlim, texologiya*

Məqalədə inteqrativ dərslərin xüsusiyyətləri araşdırılır, eləəcə də ümumiyyətlə təhsildə inteqrasiya prosesləri təhlil olunur. Elmi biliklərin artması ayrı-ayrı elm sahələri arasında sərhədləri silir və ixtisaslaşma o qədər də elm sahələri ilə deyil, nə qədər ki, problemlərin qoyuluşu və həlli ilə baş verir. Təhsildə inteqrasiya prosesləri kifayət qədər mürəkkəb, kompleksli və öz təzahürlərinə görə çoxtərəfli bir hadisədir ki, onun psixoloji və pedaqoji mövqedən təhlili vacib məsələlərdən biridir. İşin yeniliyi bundadır ki, inteqrasiyalı dərsin mərhələləri göstərilmişdir.

**Г.Ахундова**

## ОСОБЕННОСТИ ИНТЕГРАТИВНОГО УРОКА

***Ключевые слова:*** *внутрипредметная и межпредметная интеграция, урок, обучение, технология*

В статье рассматриваются особенности интегративного урока, а также анализируются интегративные процессы вообще в образовании. Рост научного знания стирает границы между разными дисциплинами, и специализация происходит не столько в областях науки, сколько в постановке и решении проблем. Процесс интеграции в образовании достаточно сложный, комплексный и многогранный, и его анализ с психолого-педагогической точки зрения является одним из важных вопросов. Новизна работы в том, что показаны этапы интеграционного урока.

**G.Akhundova**

## FEATURES OF THE INTEGRATIVE LESSON

***Keywords**: intra-subject and inter-subject integration, lesson, teaching, technology*

The article examines the features of an integrative lesson, and also analyzes integrative processes in general in education. The growth of scientific knowledge blurs the boundaries between different disciplines, and specialization occurs not so much in the fields of science as in the formulation and solution of problems. The process of integration in education is quite complex, complex and multifaceted, and its analysis from a psychological and pedagogical point of view is one of the important issues. The novelty of the work is that the stages of the integration lesson are shown.

Tədrisə müasir yanaşma təlim prosesinə yenilik gətirilməsinə yönəldilməlidir, ki bu da bugünkü həyat və fəaliyyətin dinamik xüsusiyyətlərindən, müxtəlif təlim texnologiyalarının spesifikasından və sosial faydalı biliklərin tələbatından asılıdır. “Azərbaycanın təhsil tarixində artıq tələbəyönümlü bir təhsil sistemi formalaşır. Cəmiyyətmizin ehtiyac və tələbatlarına uyğun belə sistemin qurulmasında demokratikləşmə, humanistləşmə, inteqrasiya, diferensiallaşma, fərdiləşmə, humanitarlaşma mühüm pedaqoji prinsiplər kimi nəzərə alınır.” [1, s.12]. Şəxsiyyətyönümlülük isə daha çox inteqrativ bilik və bacarıqlara söykənən dəyərlərin mənimsənilməsini tələb edir ki, buna da yalnız inteqrativ təhsil prosesində nail olmaq mümkündür.

Müasir dünyada inteqrasiya prosesləri obyektiv və zəruri bir reallığa çevrilmişdir. İnteqrasiya qloballaşan dünyanın təhsil aləmində aparıcı rol oynayır. Ona görə də informasiyanın sürətlə artdığı bir dövrdə cəmiyyətin dəyişkən dinamikasını izləmək və ona müvafiq olaraq inkişaf etmək üçün birləşmələr, bloklar yaratmaqla ümumiləşdirmələr aparmaq ən səmərəli strategiyalardan biri kimi qəbul edilir. Son dövrlər müasir təhsil konsepsiyasında “inteqrativ təlim”, “inteqrativ dərs” anlayışları xüsusi pedaqoji texnologiyalardan biri kimi öz yerini möhkəmlədmişdir. Təhsildə inteqrasiya cəmiyyətin tərbiyə gücünün inteqrasiyası, bütövlükdə didaktik sistemin sintezi kimi çıxış edir.

Təhsildə inteqrasiya bu gün insan fəaliyyətinin bütün sahələrini xarakterizə edən tendensiyaların əksidir. Elmi biliklərin artması ayrı-ayrı elm sahələri arasında sərhədləri silir və ixtisaslaşma o qədər də elm sahələri ilə deyil, nə qədər ki, problemlərin qoyuluşu və həlli ilə baş verir. Təhsildə

inteqrasiya prosesləri kifayət qədər mürəkkəb, kompleksli və öz təzahürlərinə görə çoxtərəfli bir hadisədir ki, onun psixoloji və pedaqoji mövqedən təhlili vacib məsələlərdən biridir.

Təlim sistemi baxımından "inteqrasiya" anlayışı iki məna daşıya bilər: a) təlimin məqsədi mənası – yəni öyrənənin ətraf aləm, dünya barəsində bütöv, tam bir təsəvvürlərin yaradılması; b) təlimdə vasitə mənası – müxtəlif fənn biliklərinin yaxınlaşdırılması üçün ümumi platformanın yaradılması.

Təlimin məqsədi kimi inteqrasiya öyrənənə helə biliklər verməlidir ki, orada dünyanın ayrı-ayrı hissələrinin əlaqəli olması əks olunsun. Bu da, öz növbəsində, bütün elementləri bir-birilə bağlı olan dünyanın tam, vahid şəkildə qavranılma-sına zəmin yaradır.

Müxtəlif fənn biliklərinin yaxınlaşdırılması vasitəsi kimi inteqrasiya differensial biliklərin arasında boşluğun doldurulması və onların arasında əlaqənin yaradılmasına qulluq edir.

İnteqrativ təlimin tədbiqi müəllimə bir fənnin çərçivələrindən çıxmağa, dünyada hər şeyin əlaqəli olmasını əyani şəkildə göstərməyə və eyni zamanda şagirdlərdə öz fənninin öyrənilməsinə qarşı motivasiyanın artmasına imkan yaradır. "İnteqrasiya – müxtəlif sahələrdə ümumiləşdirilmiş biliklərin mümkün olduğu dərəcədə bir tədris materialına qarşılıqlı daxil olması, qarşılıqlı əlaqəsi deməkdir" [2, s. 36].

İnteqrasiyanın bir çox növləri mövcuddur: metod və priyomlara görə, üsullara görə, səviyyələrə görə, istiqamətlərə görə və s. Bir çox alimlər inteqrasiyanı iki və ya üç səviyyəli olduğunu qeyd edir (fəndaxili, fənlərarası və transfənli inteqrasiya). Bundan əlavə pedaqogikada həmçinin inteqrasiyanın növlrini də ayırd edirlər: üfüqi və şaquli.

İnteqrativ təlim – müasir metodikanın əsas yeniliklərindən biridir. Bu anlayış fənlərarası əlaqələrin yüksək forması deməkdir. Bu texnologiya məktəb proqramlarına cəsarətlə daxil olur və ilk baxışdan çətin uyğunlaşan fənləri bir birilə əlaqələndirir. İnteqrasiya müəllimə özünüifadə, özünürealizə etməyə, dərsə yaradıcı yanaşmağa və həmçinin şagirdlərin qabiliyyətlərinin aşkarlanmasına kömək göstərir. İnteqrativ təlimin əsas məqsədini şaqirdlərin əqli fəallığının artırılması təşkil edir.

İnteqrativ dərs ənənəvi dərslərdə çətin realizə olunan bir sıra məqsəd və vəzifələrin həllinə imkan yaradır.

İnteqrativ dərslərin məqsədləri:

- İdrakyönümlü (informativ-məzmunlu). Faktlar, hadisələr və təzahürlər arasında əlaqənin axtarışına şagirdləri vadar etmək, nəticələr çıxarmağı öyrətmək;

- İnkişafedici (informativ-fəaliyyətli). Təhlil etməyi, müqayisə və ümumiləşdirməni aparmağı öyrətmək;

- Tərbiyəedici.

İnteqrativ dərslərin vəzifələri:

- Dərsin qeyri-standart formasından istifadə edərək şagirdlərin təlim fəaliy-yətlərinin motivasiyasını artırmaq ( qeyri-adi – deməli maraqlı prinsipi);
- Müxtəlif fənn sahələrində istifadə olunan anlayışların araşdırılması;
- Təfəkkür əməliyyatları ilə məqsədyönlü işin təşkili: müqayisə, ümumiləşdirmə, təsnifat, təhlil, sintez və s.;
- Müxtəlif məsələlərin həllində fənlərarası əlaqələrin göstərilməsi və onların tətbiqi.

İnteqrativ dərslərdə uşaqlar asanlıqla işləyir və həcminə görə geniş materialı maraqla mənimsəyirlər. Burada şagirdlərin əldə etdiyi bilik və bacarıqların adi təlim situasiyalarında praktiki fəaliyyətlərində istifadəsindən əlavə, onların yaradıcı və intellektual qabiliyyətlərinin üzə çıxması böyük əhəmiyyət kəsb edir.

Öz pedaqoji fəaliyyətinə inteqrativ dərslərin aparılmasını daxil etməyə planlaşdıran müəllimlər burada yarana bilən bəzi çətinlikləri nəzərə almalıdır:

1. İnteqrasiyası planlaşdırılan fənlərin proqramlarına baxılmalıdır ki, mövzularına görə oxşar olanlar aşkar edilsin. Bunlar hökmən identik olmalıdır, ən əsası isə – bu mövzuların ümumi istiqamətlərini aşkar etmək və gələcək inteqrativ dərsin məqsədini müəyyənləşdirmək vacibdir. Bununla yanaşı unutmaq olmaz ki, dərsin məqsədi tədris materialının daha dərindən öyrənilməsinə və nəzəri biliklərin praktiki cəhətdən möhkəmləndirilməsinə yönəlməlidir.

2. Əgər dərs iki fənn müəllimləri tərəfindən hazırlanırsa, dərsin konspektinin tutlmasında vaxt iki müəllim arasında dəqiq, səlis paylaşdırılmalı və bu reqlamentə ciddi əməl edilməlidir. Müəllimlər inteqrativ dərslərin keçirilməsinə ilk təşəbbüs göstərdikdə və əməkdaşlıqda  hələ kifayət qədər təcrübələri olmadıqda  bu qaydaya xüsusilə riayyət olunmalıdır.

3. İnteqrativ dərsin təşkilinə xüsusi diqqət yetirilməlidir: lazımi avadanlığın düzgün yerləşdirilməsi (onun axtarışlarına və yaxud asılmasına vaxt itirməmək üçün); şagirdlərin praktiki işinin təşkili formalarının və masaların buna uyğun yerləşdirilməsi, lazım olan iş materiallarının düzgün yerləşdirilməsi məsələlərinə ciddi şəkildə baxılmalıdır. Bütün bunlar dərs vaxtının rasional istifadəsi və  itkilərin olmaması üçün vacibdir.

4. İnteqrativ dərslərin keçirilməsi müəllimlərdən dərsə ciddi hazılığını tələb edir. Belə ki, müəllimlər belə dərslərin forma və metodları barəsində əsaslı surətdə fikirləşməli. İnteqrativ dərslərin forması qeyri standart və cəlbedici olmalıdır. Müxtəlif iş formalarının istifadəsi şagirdlərin diqqətini və marağını yüksək səviyədə saxlayır ki, bu da belə dərslərin inkişafedici səmərəliliyinin göstəricisidir.

İnteqrativ dərslərin hazırlanması və keçirilməsi prosesi bir-neçə mərhələ elementlərindən ibarətdir: axtarış, hazırlıq, əsas (icra) və sonluq (refleksiya). Bununla onlar ənənəvi dərslərdən fərqlənirlər.

İnteqrativ dərslərinin keçirilməsinin mərhələləri:

1. Axtarış:

- mövzunun öyrənilməsinə motivasiyanın təmini;
- seçilmiş mövzuya dair materiallarının axtarışının təmini.

Nəticə:

İş üçün şagirdlədən ibarət qrupların hazırlığı.

2. Hazırlıq:

- məmbələrlə iş, mövzuya dair faktların yığılması;
- mövzuya dair söhbət, materiallara baxış.

Nəticə:

Hər bir iştirakçı öz tapşırıq sahəsəni müəyyənləşdirir.

3. Əsas (icra):

- əldə edilmiş materialları müstəqil istifadə etmək bacarığının inkişafı.

Nəticə:

Şagird tərəfindən təlimin kompleks xarakter daşıdığını, musiqi fənninin imkanlarından digər sahələrdə biliklərin ifadəsi üçün mümkünlüyünün dərk edilməsi.

4. Son mərhələ:

- şagirdlərin çıxışlarının müzakirəsi.

Nəticə:

Şagirdlər fənlərarası biliklərin istifadəsi imkanları barəsində xülasə verirlər.

İnteqrativ dərslər didaktikanın ən vacib prinsiplərindən biri olan təlimin sistemli olmasını təmin edir. Həmçinin belə dərslər şagirdlərin təfəkkür inkişafı üçün optimal şərait yaradır, belə ki, onların abstraksiya qabiliyyəti inkişaf edir, kütlənin içindən əsası çıxarmaq, analogiyalar, təhlil, qarşılaşdırma və ümumiləşdirmə aparmaq bacarığı formalaşır. İnteqrativ dərslər şagirdlərin sistemli dünyagörüşünü inkişaf etdirir və şəxsiyyət kimi formalaşmasına gətirib çıxarır. İnteqrativ təlimin təşkilində şagirdlərin yaş və fərdi xüsusiyyətləri nəzərə alınmalıdır.

Beləliklə, bütün dediklərimizi ümumiləşdirərək aşağıdakıları qeyd etməliyik: İnteqrasiya bir-neçə istiqamətdə və müxtəlif səviyyələrdə baş verir. İnteqrasiyanın məqsədi təkcə bir-neçə fənnin yaxın sahələrinin göstərilməsindən deyil, lakin onların üzvi şəkildə əlaqəsi vasitəsilə şagirdlərə bizi əhatə edən dünyanı vəhdətdə qavrama bacarığının formalaşdırılmasımdan ibarətdir. İnteqrasiya şagirdlərin dünyagörüşləri, təfəkkürləri və əqidələrinin formalaşdırılması prosesini sürətləndirir.

## Ədəbiyyat

1. Mehrabov A. Müasir təhsilin konseptual problemləri. Bakı, 2010

2. Кенгерлинская Т. Интегративный принцип построения системы специальной педагогической и исполнительской подготовки студентов. Баку, 2007

3. Rəcəbov O., Hidayətova F., Məmmədova G. “Pedaqoji təmayüllü ali məktəblərdə musiqi müəllimlərinin hazırlığında musiqi kurikulumundan istifadənin imkan və yolları”. Bakı, 2011

**Məqalənin redaksiyaya daxil olma tarixi: 11.02.2021**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 23.02.2021**
**Məqalənin çapa qəbul olunma tarixi: 15.03.2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru, dosent Firəngiz Hidayətova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 372.878**

**X.Z.Qocayeva**
müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Az 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi,68
e-mail: qocayevaxatire199@gmail.com

# TƏLƏBƏLƏRİN VOKAL QABİLİYYƏTLƏRİNİN İNKİŞAFINDA AZƏRBAYCAN BƏSTƏKARLARININ ƏSƏRLƏRİNİN İSTİFADƏSİNİN ROLU

***Açar sözlər:*** *nəfəs, dayaq, həmlə, kantilena, səsaparıcılığı, diksiya, orfoepiya*

Vokal dərslərində tələbələr düzgün nəfəs alıb-buraxmanı öyrənirlər, məqsədyönlü iş nəticəsində onların səs diapazonu genişlənir və möhkəmlənir, həmçinin bu dərslərdə tələbələrə dayaqlı oxu, oxu həmləsi, müxtəlif növ səsaparıcılığı, diksiya, orfoepiya və s. vərdişlər aşılanır. Təlim prosesində Azərbaycan bəstəkarlarının musiqi nümunələrinin istifadəsi bu zaman böyük əhəmiyyət kəsb etməyə başlayır. Çünki Azərbaycan dilinin və musiqisinin xüsusiyyətləri vokal vərdişlərinin formalaşması üçün çox əlverişlidir. Məqalədə ilk dəfə olaraq bu məsələlərə baxılır.

**Х.З.Годжаева**

# РОЛЬ ИСПОЛЬЗОВАНИЯ ПРОИЗВЕДЕНИЙ АЗЕРБАЙДЖАНСКИХ КОМПОЗИТОРОВ В РАЗВИТИИ ВОКАЛЬНЫХ НАВЫКОВ СТУДЕНТОВ

***Ключевые слова:*** *дыхание, атака, певческая опора, кантилена, звуковедение, дикция, орфоэпия*

На уроках вокала студенты учатся правильно дышать, в результате целенаправленной работы их певческий диапазон расширяется и укрепляется, а также на этих занятиях студентов обучают пению на опоре, певческой атаке, различным способам звуковедения, дикции, ортоэпии и т.д. привычки прививаются. Все более актуальным становится использование музыки азербайджанских композиторов в учебном процессе. Потому что особенности азербайджанского языка и музыки очень удобны для формирования вокальных навыков. В данной статье впервые рассматриваются эти вопросы.

**Kh.Z.Gojayeva**

# THE ROLE OF USING THE WORKS OF AZERBAIJANI COMPOSERS IN THE DEVELOPMENT OF VOCAL SKILLS OF STUDENTS

***Keywords:*** *breathing, attack, singing support, cantilena, sound science, diction, orthoepy*

In vocal lessons, students learn to breathe correctly, as a result of purposeful work, their singing range expands and strengthens, and also in these classes students are taught to sing on a support, singing attack, various methods of sound study, diction, orthoepy, etc. habits are instilled. The use of the music of Azerbaijani composers in the educational process is becoming more and more relevant. Because the peculiarities of the Azerbaijani language and music are very convenient for the formation of vocal skills. This article addresses these issues for the first time.

Müasir Azərçaycanda sosial-iqtisadi həyatda olduğu kimi təhsildə də mühüm dəyişikliklər baş verməkdədir. Elm və texnikanın sürətlə inkişaf etdiyi, informasiyanın günbəgün artdığı bu müasir dövrdə ölkəmizin pedaqogika elminin qarşısında estetik tərbiyəni zamanın və cəmiyyətin tələblərinə uyğun səviyyəyə çatdırılması kimi vacib bir məsələ durur. Təlim-tərbiyə prosesinin keyfiyyətcə yeni səviyyəyə qaldırılmasına dair Azərbaycanda bu gün çox böyük işlər aparılır ki, bunların nəticəsində biz gələcəyimiz üçün yeni insan tipini yetişdirib hazırlamalıyıq.

Məlumdur ki, ümumtəhsil məktəblərdə musiqi dərslərində mahnı oxuma əsas yer tutur. Buna görə də musiqi müəllimi yaxşı səsə malik olmalı, təmiz və düzgün oxumağı bacarmalıdır, həmçinin uşaq səslərini inkişaf etdirə bilməlidir. Bütün bunları gələcəyin musiqi müəllimləri ali məktəblərdə təhsil aldıqları dövrdə vokal dərslərində öyrənirlər. Vokal dərslərində tələbələr düzgün nəfəs alıb-buraxmanı öyrənirlər, məqsədyönlü iş nəticəsində onların səs diapazonu genişlənir və möhkəmlənir, həmçinin bu dərslərdə tələbələrə dayaqlı oxu, həmlə, səsaparıcılığı, diksiya, orfoepiya və s. vərdişlər aşılanır. Təlim prosesində Azərbaycan bəstəkarlarının musiqi nümunələrinin istifadəsi bu zaman böyük əhəmiyyət kəsb etməyə başlayır. Çünki Azərbaycan dilinin və musiqisinin xüsusiyyətləri vokal vərdişlərinin formalaşması üçün çox əlverişlidir.

Bir-çox vokal vərdişləri mövcuddur, lakin bütün metodik vəsaitlərdə müəlliflər əsasən nəfəs, həmlə, dayaq, kantilena və diksiya vərdişlərini qeyd edirlər. Bu təsadüfi deyil, çünki bu vərdişlər minimal labüd olan vərdişlərdir ki, vokal ilə yeni məşğul olmağa başlayanlara sonralar oxu aparatının inkişafını təmin edə bilər.

Düzgün nəfəs alma və buraxma vərdişləri vokal vərdişlərinin əsasını təşkil edir. Əbəs yerə deyilmir ki, "vokal sənəti – nəfəsburaxma sənətidir". Səsin keyfiyyəti, gücü, enerjisi və uzunluğu nəfəsdən asılıdır. Təlim ərzində vokal müəllimi nəfəsin düzgün alınıb-buraxılması üçün Azərbaycan bəstəkarlarının bir sıra vokal əsərlərindən istifadə edə bilər. İlkin mərhələdə bunlar çox uzun nəfəs tələb etməyən qısa frazalara bölünənən mahnılar ola bilər. Məsələn, Niyazinin "Vətən haqqında mahnı"-sında frazalar qısadir və tədrisin ilk mərhələlərində istifadə edilə bilər. S.Ələsgərovun "Vətənim", T.Quliyevin "Qızıl üzük", E.Sabitoğlunun "Nə gözəldir Azərbaycan" mahnıları da bu qəbildən olan mahnılardandır, yəni burada musiqinin quruluşu qısa cümlələr ilə gedir və çox da uzun nəfəs vərdişlərini tələb etmir.

Tələbələrdə uzun nəfəs vərdişlərini formalaşdırmaq üçün tədricən elə mahnılar seçmək lazımdır ki, onlarda cümlələr daha uzun olsun. Məsələn, T.Quliyevin "Qəmgin mahnı", "Əziz surət", C.Cahangirovun "Nazənin", R.Mustafayevin "Güllər", R.Hacıyevin "Azərbaycanım" mahnılarında frazalar orta uzunluqdadır və qısa frazalı mahnılardan uzun frazalı mahnılara keçid mərhələsində isitfadə oluna bilər. Və, nəhayət, nəfəs vərdişlərinin formalaşdırılmasının son mərhələsində tələbədə uzun nəfəs vərdişlərinin formalaşdırılması üçün artıq uzun frazalı vokal əsərlərini istifadə etmək lazımdır. Bunlar əsasən opera və operettalardan ariyalar, romanslar və ya romans tipli mürəkkəb mahnılar ola bilər.

Əgər nəfəs səsyaranmanın təkib hissəsi olaraq onun ən ilkin komponentidirsə, səsin həmləsi (*ataka*-sı) lap ilkin əsas hissəsidir. Səsin həmləsi zamanı səs tellərini və nəfəsin qarşılıqlı təsiri və qarşılıqlı əlaqəsi aydın şəkildə hiss olunur. Həmlə vasitəsi ilə təsir vokal ifaçılığı sənətində ən vacib üsullardan biridir. Bu zaman əlaqə hissələri və dayaq hissiyatı, yəni nəfəs qurğusu, aydın şəkildə ifadə olunur.

Məlum olduğu kimi, səsin həmləsinin üç növü mövcuddur: sərt, yumşaq və nəfəsyani həmlə. Yumşaq həmlə vərdişləri ən vacibli olsa da, hər bir təlim alan tələbə həmlənin bütün növlərini öyrənib mənimsəməlidir. Yumşaq həmlə vərdişinin formalaşdırılması üçün Azərbaycan bəstəkarlarının mülayim tempdə olan lirik əsərləri yaxşı təlim materialı ola bilər. Məsələn, T.Quliyevin "Qızıl üzük" mahnısı. Tələbədə sərt atakanı (həmləni) formalaşdırmaq üçün marş tipli və yaxud cəld tempdə və qısa-qısa notlarla olan bəstəkarlarımızın mahnılarını istifadə etmək yaxşı olar, məsələn, T.Quliyevin "Kəndimiz" mahnısını. Həmlənin üçüncü növü – nəfəsyani həmlə – çox nadir hallarda xüsusi bir bədii priyom kimi istifadə olunur, məsələn, pıçıltılı oxu və ya ah-nalə effekti yaratmaq lazım olanda. Bu tipli həmlə ilə daima oxumaq olmaz, çünki səs tellərinə böyük zərbə deyir.

Nəfəs və həmlə ilə sıx bağlı olan bir vokal vərdişi də var – oxu dayağı. Dayaq – vokal sənətində dayaqlı, düzgün formalaşdırılmış oxu səsini və

səsyaranma üsulunu (dayaq üzərində oxuma) xarakterizə etmək üçün istifadə edilən termindir. Vokal sənətinin ən yüksək pilləsi elə nəfəs dayağının əldə olunmasından ibrətdir.

Dayaqlı oxu vərdişlərinə yiyələnmək üçün əsasən bəstəkarlarımızın klassik əsərləri uyğundur: opera ariyaları və romanslar. Məsələn, "Koroğlu" operasından Nigarın ariysı, Həsən xanın ariyası, Rövşənin ariyası; "Arşın malalan" operettasından Gülçöhrənin ariyası, Əsgərin ariyası; M.Maqomayevin "Şah İsmayıl" operasından Aslan şahın ariyası, "Nərgiz" operasından Nərgizin ariyası, F.Əmirovun "Sevil" operasından Dilbərin mahnısı və ya Balaşın ariyası, "Azərbaycan elləri" romansı; A.Zeynallının "Ölkəm" romansı; T.Quliyevin "Bəxtəvər oldum", S.Ələsgərovun "Vətənimdir" romansları və digər bəstəkarların ariya və romansları.

Mühüm olan vokal vərdişlərindən biri də səsaparıcılığına aid kantilena oxu vərdişidir. Səsaparıcılığı deyəndə ilk növbədə *legato* (kantilena oxu tərzi), eləcə də *non legato* və *staccato* səsaparıcılığı nəzərdə tutur. Vokal ilə yeni məşğul olmağa başlayan tələbələrdə ən vacib vərdiş – kantilena oxu vərdişidir. Buna görə *legato* oxu tərzi əsas vokal-texniki səsyaranma vərdişi olan – kantilenanın formalaşması və inkişafı üçün vacibdir.

Azərbaycan bəstəkarlarının bir çox lirik vokal əsərləri vardır ki, bunların hammısı kantilena oxu vərdişinin əldə olunması üçün yaxşı tədris materialı kimi istifadə oluna bilər. Belə əsərlərdən Ü.Hacıbəylinin "Çırpınırdı Qara dəniz", Ş.Axundovanın "Laylay", Niyazinin "Arzu", F.Əmirovun "Mən səni araram", C.Cahangirovun "Zəriflik", "Duman", "Ana", Z.Bağırovun "Layla", H.Xanməmmədovun "Aldatmayaq bir-birmizi", E.Sabitoğlunun "Dərələr", R.Mirişlinin "Dalğalar", T.Quliyevin "Sevgi valsı", "Axşam mahnısı"nı və digər əsərləri göstərmək olar.

*Staccato* səsaparıcılığı vərdişi də vacibdir, çünki o, səs tellərini aktivləşdirir və dəqiq *ataka*-nın mənimsənilməsinə kömək edir. *Staccato* oxu (qırıq-qırıq oxu), yəni hər bir səsi bir-birindən ayıraraq oxu deməkdir. Bu zaman diafraqmanın fəal hərəkətləri və nəfəsin köməyi ilə *staccato* səslənməni yaratmaq olar. Cəld templər səslənmənin yüngüllüyünə, asta tempdə isə səsin dolğunluğuna xidmət edir, buna görə templərin növbələnməsi məsləhət görülür. Əfsuslar olsun ki, bizim bəstəkarlar *staccato* üslubunda vokal əsərləri yazmır. Bunun da təbii səbəbləri vardır. Çünki bizim vokal musiqisinə ya zərif, dərin lirika, ya şən oynaq əhval-ruhiyyə ya da qəhrəmani ruhda çağırış-marş ruhlu əsərlər tipikdir.

*Non legato* (səslərin ayrı-atrı səlis oxunuşu) səsaparıcılığında oxuma nəfəsin düzgün alınmasına səbəb olur. Azərbaycan bəstəkarlarının çox saylı vətənpərvər ruhlu əsərləri vardır ki, bunların çox hissəsi marş üslubunda yazılmışdır ki, belə ərlərin ifası *non leqato* oxu üslubunu tələb edir. Buna misal kimi Ü.Haclbəylinin "Milli marş", "Əsgər marşı", Q.Qarayevin "Sülh haqqında mahnı", E.Sabitoğlunun "Azərbaycan", "Marş irəli, Azərbaycan əsgəri", "Can-can, can Azərbaycan",

C.Cahangirovun “Azərbaycan”, C.Quliyevin “Mustafa Kamal-paşa”, M.Maqomayevin “Azərbaycan”, “Odlar yurdu”, N.Mirməmmədliinin “Azərbaycan bayrağı”, “Əsgər qardaşlar”, “Qələbə himni”, C.Allahverdiyevin “Milli marş” əsərlərini göstərmək olar.

Diksiya, orfoepiya və artikulyasiya – vokal vərdişlərinin ən vaciblərindən biridir. Diksiya – sözlərin düzgün, aydın və səlist tələffüzüdir. Orfoepiya – sözlərin ədəbi dilçilik qanunlarına uyğun tələffüzüdür. Artikulyasiya isə bunların hər ikisini təmin edən artikulyasiya aparatının səslərin formalaşmasına yönəlmiş işidir. Müəllim tələbənin artikulyasiya aparatının çevik və daha hərəkətli olmasına çalışmalı, onun ayrı-ayrı hissələrinin – dil, dodaq və çənənin iş zamanı fəallığınının yüngülüyünə nail olmalıdır. Çətinlik törədən K, P, T, F, X, S, Ş, Ç kar və fışltılı samitlərin tələffüzünə xüsusi diqqət yetirmək lazımdır. Bu samitlər çox vaxt səslənməni pozaraq, mətnin aydınlığını itirir. Bu səbəbdən belə samit səsləri olduqca qısa söyləmək lazımdır. Cingiltili samitləri isə bunun tam əksi olaraq, daha aydın, səlis söyləmək lazımdır. Müəllim tələbəyə bu cür samit səslərinin tələffüzünün fizioloji əmələ gəlməsini anlatmalıdır. Məsələn, “L” samiti, dilin ucunun üst dişlərin dibinə yerləşdirilməsi halında söylənilir. Bunu tələbələrə Azərbaycan bəstəkarlarının müvafiq əsərləri öyrədərək başa salmaq lazımdir, məsələn, R.Mustafayevin “Güllər” əsərini. Vokal musiqisinin bir çox nümunələrində sözlərin heca bölgüsü orfoqrafiya qanunlarına əsasən yox, tələffüz qanunlarına görə bölünmüşlər. Əgər heca saitlə qurtarsa, onda samit səs o biri hecaya aid olmalıdır. Məsələn:

Ə-tir-li gül-lər si-zi çox hə-vəs-lə ək-mi-şəm

Belə ifa olunmalıdır:

Ə-ti – rli gü – llər si-zi çox hə-və - slə ə - kmi – şəm

Azərbaycan dilində daxil olmuş ərəb və fars məşəli sözlərdəki “a” saiti vokal ifaçılığında bir qədər uzadılaraq, daha doğrusu ikiləşərək tələffüz edilməlidir. Buna misal kimi S.Ələsgərovun Vaqifin şeirlərinə bəstələdiyi “Vətənimdir” romansındakı sözləri göstərmək olar:

Pənbeyi daği cinun içrə nihandır bədənim...

İfa edilir: Pən-be-yi da – a-ği ci-nun iç-rə ni-ha –an-dır bə-də-nim

Azərbaycan dilini başqa türkdilli xalqların dilindən fərqləndirən cəhətlərdən biri, bu dilin məlahətliliyi, axıcılığıdır. Bu xüsusiyyətlərinə görə Azərbaycan dili oxumaq üçün çox rahat olması ilə bərabər, bu dil səs aparatının formalaşmasında

xüsusi rol oynayır.

Vokal ifaçılığında orfoepiya qaydalarına da riayyət etmək vacibdir. Belə ki, əgər poetik məzmunda "a" saiti ilə bitən sözlərə "y" samiti ilə başlanan şəkilçi əlavə edilmişdirsə, "a" saiti öz səslənmə xüsusiyyətini itirir. Belə hallarda "a" saiti ifa zamanı "ı" saiti kimi tələffüz edilməlidir. Məslən, C.Allahverdiyevin "Əbədi sevgi" romansında:

Bircə kəlmə sözün mənimdir bəsim
Ürəyim həsrətdən ağl **a** yan zaman

İfa edilir: Ürəyim həsrətdən ağl **ı** yan zaman

Vokal əsərinin poetik məzmununda rast gəldiyimiz "ə" saitlə qurtaran sözlərə "y" samiti ilə başlanan şəkilçi əlavə edilmişdirsə, "ə" saiti öz səslənmə xüsusiyyətini itirir və ifa zamanı "i" saiti kimi oxunur. Məsələn, H.Xanməmmədovun "Aldatmayaq bir-birmizi" mahnısında:

Ovutmaqçin qəlbimizi aldatm **a** yaq bir-birmizi
Vəd etm **ə** yək göydə ayı, bir-birmizə bu dünyanı

İfa edilir: Ovutmaqçin qəlbimizi aldatm **i** yaq bir-birmizi
Vəd etm **i** yək göydə ayı, bir-birmizə bu dünyanı

Əksər hallarda milli vokal musiqisində, xüsusilə də xalq mahnılarının poetik məzmununun orfoqrafik ifadəsi qrammatik qaydalara yox, orfoepiya prinsiplərinə əsaslanaraq, vokal sənətində ifa edildiyi kimi də yazılır. Məsələn, F.Sücəddinovun "Neylərsən mənə, gülüm" mahnısında:

Nə edərsən mənə, gülüm, nə edərsən
Neylərsən mənə, gülüm, neylərsən

Vokal ifaçılığında adi danışıqda olduğu kimi orfoepiya qanunlarına əsasən, "ö" və "e" saitləri sözün ortasında "v" samitindən əvvəl gələrsə, bu saitlər bir qədər uzadılaraq tələffüz edilməli, daha doğrusu ikiləşərək, "v" samiti isə tələffüzdən ixtisara salınmalıdır. Məsələn, S.Rüstəmovun "Bənövşə" mahnısında:

Bənövşəyəm, bənövşə, düşmüşəm dilə, dişə.
Bənööşəyəm, bənööşə, düşmüşəm dilə, dişə

"O" səsinin analoji tələffüzü ilə də rastlaşırıq. Məsələn:

Sərindən-sovqatından oyatdılar yar hey
Sərindən-sooqatından oyatdılar yar hey

Beləliklə, sait və samit səslərin vokal nöqteyi-nəzərdən düzgün formalaşdırılması, ifaçılıqda düzgün pozisiya səviyyəsinə nail olmaq işində həlledici rol oynayan faktor kimi qəbul edilməlidir.

Vokal müəllimi Azərbaycan bəstəkarlarının əsərlərindən məharətlə istifadə edərək, nəfəs, həmlə, dayaq və kantilena, diksiya, orfoepiya və artikulyasiya oxu vərdişlərini formalaşdırmağa nail ola bilər.

## Ədəbiyyat

1. Алиев Ю. Основы вокальной педагогики. Москва, 2001, 354 с.
2. Kamilova N. "Vokal və onun tədrisi metodikası", Bakı, 2010, 175 səh.
3. Дмитриев, Л.Б. Основы вокальной методики. Москва, 2007, 368 с.
4. Рудин Л.Б. Основы голосоведения. Москва, 104 с.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 10.02.2021**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 25.02.2021**
**Məqalənin çapa qəbul olunma tarixi: 15.03.2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Afət Həsənova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 781.21**

**S.Hacıyeva**
Baş müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Az 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: s.haciyeva630@gmail.com

# MƏKTƏBLİLƏRİN HARMONİK EŞİTMƏ QABİLIYYƏTİNİN İNKİŞAFI

***Açar sözlər:*** *harmoniya, ifadə vasitələri, eşitmə qabiliyyəti, musiqili qavrama*

Məqalədə şagirdlərin musiqi fəaliyyətinin səmərəli olması üçün onların müəyyən musiqi qabiliyyətlərinin olmasının vacibliyindən bəhs olunur. Qeyd olunur ki, bu qabiliyyətlər musiqinin qavranılması prosesində əmələ gəlməlidir. Lakin musiqinin qavranılması mürəkkəb bir proses olub dinləyicidən müəyyən bir hazırlıq və müəyyən inkişaf tələb edir. Buna görə də harmonik eşitmə qabiliyyətinin inkişaf etdirilməsi musiqi dərslərinin vacib vəzifələrindən biridir. Məqalədə ilk dəfə olaraq musiqinin tam qavranılması üçün emosiya və eşitmə qabiliyyətinin qarşılıqlı əlaqədə inkişaf etməsinin önəmi və buna görə də şagirdlərdə müxtəlif qabiliyyətlərin kompleks şəkildə inkişaf etdirilməsıınin labüdliyi göstərilir.

**С.Гаджиева**

## РАЗВИТИЕ ГАРМОНИЧЕСКОГО СЛУХА УЧАЩИХСЯ

***Ключевые слова:*** *гармония, средства выразительности, слух, музыкальное восприятие*

В статье говорится о важности наличия у учащихся определенных музыкальных способностей для того, чтобы они могли эффективно заниматься музыкальной деятельностью. Отмечается, что эти способности должны формироваться в процессе восприятия музыки. Однако восприятие музыки – сложный процесс, требующий от слушателя определенной подготовки и развития. Поэтому развитие гармонического слуха – одна из важных задач уроков музыки. В статье впервые подчеркивается, что для полного восприятия музыки важно развитие эмоций и слуха во взаимодействии, и, следовательно, нужно комплексное развитие различных способностей учащихся.

**S.Hadjiyeva**

## DEVELOPMENT OF HARMONIC HEARING OF STUDENTS

***Keywords:*** *harmony, means of expression, hearing, musical perception*
The article discusses the importance of having certain musical abilities for effective musical performance of students. It is noted that these abilities must be formed in the process of perception of music. However, the perception of music is a complex process and requires a certain preparation and development from the listener. Therefore, developing harmonic hearing is one of the important tasks of music lessons. The article shows for the first time the importance of developing emotions and hearing in interaction for the full perception of music, and therefore the inevitability of complex development of different abilities in students.

Şagirdlərin musiqi fəaliyyəti dörd formada olur: musiqinin qavranılması, musiqinin ifası, musiqi sədaları altında hərəkətlər (rəqs) və musiqi əsərinin təhlili.

Belə bir musiqi fəaliyyətinin səmərəli olması üçün şagirdlər müəyyən musiqi qabiliyyətinə malik olmalıdırlar. Ümumtəhsil məktəblərdə şagirdlərin musiqi təhsili, tərbiyəsi və inkişafının əsasını musiqinin qavranılması və xorla oxunulması təşkil edir. Aşağı siniflərdə xorla oxumağa meyl daha güclü olur, yeniyetməlik dövründə musiqinin qavranılması üstünlük təşkil edir.

Müxtəlif növ müsiqi əsərləri mövcuddur. Onlar bir-birindən ifadə vasitələrinə görə, mətnə (vokal-xor musiqisində), orkestr və musiqi alətlərinin müxtəlifliyinə görə, melodiya və akkompanementin özünə məxsus əlaqələrinə görə fərqlənirlər. Buna görə də müsiqinin qavranılması dinləyicidən müəyyən hazırlıq və müəyyən musiqi inkişafı tələb edir.

Bu tələblər içərisində harmonik eşitmə qabiliyyəti önəmli yerlərdən birini tutur və şagirdlərdə həmin qabiliyyətin inkişaf etdirməsi musiqi dərslərinin vəzifələrindən biridir. Estetik noqteyi-nəzərdən harmoniya musiqinin ifadə vasitələri bölməsinə aid olub tonların birləşməsindən yaranan həm avazlıq, həm də həmavazlıqların qarşılıqlı əlaqələrinin qanunauyğunluqlarını araşdırır.

Burada həmavazlıq dedikdə onu sadəcə akustik mənada deyil, musiqi kontekstində bədii-ifadə əhəmiyyəti olan düşünülmüş musiqi uyğunluqu kimi nəzərdə tutmaq lazımdır. Bir qədər dar mənada musiqidəki harmoniyanı hiss etmək çoxsəsliyi qavramaq deməkdir. Daha dar mənada bu və ya digər akkordlar haqqında təsəvvürdür.

Musiqidə harmoniya tonların həm eyni vaxtda, həm də ardıcıl səslənməsi ilə yaranır. Harmoniyanı dəqiq və tam hiss etmək üçün ən azı üç ton olmalıdır.

Burada tersiyanın xüsusi, ifadəlilik rolu vardır.

Musiqidə harmoniya vahidi akkorddur. Akkord məntiqi diferensiallaşmış, həmavaz olub, lad-harmonik sistemin müəyyən bir halqasıdır. Akkord musiqidə harmonik funksiyanın daşıyıcısı, onun nüvəsidir. Buna görə də cəmi iki-üç akkord dinləyicidə hiss-həyəcan, assosiasiya, təsəvvür yarada bilir.

Musiqidəki harmoniyanın qavranılması dinləyicinin musiqi eşitmə təcrübəsinə, onun musiqi bazasına əsaslanır. Müəyyən sayda müxtəlif janrda, müxtəlif stildə, müxtəlif cərəyanlarda yazılmış əsərlərlə tanışlıq zəruri şərtdir. Harmoniyanın səciyyəvi xüsusiyyətlərdən biri onun şaquli mahiyyətdə olmasıdır. Ona görə harmoniyanın ifadəli olması üçün onun vahid akkordların uzunluğunu artırmaq lazımdır. Lakin bəzən sözlər, ifadələr, çalarlar incə harmonik ştrixlərlə bəzədilməlidir.

Beləliklə, musiqi əsərinin məzmununun inkişafında harmoniyanın rolu iki əsas planda açılır. Bir tərəfdən harmoniya bilavasitə ifadəlilik rolu daşıyaraq tonallığa və ya akkordlara (və ya mətndəki bu və ya digər sözlərə) müəyyən rəngarənglik verir. Digər tərəfdən harmoniya musiqi fikrində bir əlaqə və məntiq yaratmağa xidmət edir. Harmoniyanın bu iki cəhəti bir-biriilə sıx əlaqədə olaraq bir birini tamamlayır.

Şagirdlərin harmonik eşitmə qabiliyyətinin inkişafında bu cəhəti nəzərə almaq lazımdır.

Harmoniyanın ifadəli olmasını təmin edən digər bir yol – harmonik səslərin melodiyalaşdırılmasıdır. Bu yol harmoniyanın melodic səslənmə ilə zənginləşdirilməsidir. Məsələn, F.Əmirovun musiqisinə fikir verək. Bəstəkar bəzən ayrı-ayrı həmavazları kəskin şəkildə qarşı-qarşıya qoymaqla özünəməxsus və kaloritli səslənmə yaradır. Bəzən isə əsas diqqəti melodik harmoniyaya, səs və ya səslər qrupunun uyğunlaşma formalarına yönəldir.

Musiqidə harmonik dil daimink inkişaf edir. Bəstəkarlar harmoniyanın yeni-yeni ifadə imkanlarını aşkar edib, öz yaradıcılıqlarında istifadə etməklə musiqi–harmonik cəhətdən daha koloritli, qeyri-adi əsərlər yazırlar.

Klassik musiqidə yalnız oberton harmoniyadan: üçsəsli, septakkord – istifadə edilirdi. Müasir musiqidə isə harmonik dil xeyli genişlənmişdir. Musiqişünaslar aşağıdakı harmoniyaları qeyd edirlər:

1) Dissonanslaşan tersakkordlar (septakkordlar, nonakkordlar) həll edilmədən müstəqil şəkildə təsnif edilir.

2) Yeni ifadə vasitələrindən biri də köməkçi tonlarla zənginləşmiş üçsəsli komplekslərin "salxımı" adlanır.

3) Son dövrlərdə akkord quruluşu və musiqi fakturasında çox planlılıq müşahidə edilir. Bunun nəticəsində müasir musiqidə polifunksiya, polimelodizm, poliharmoniya və politonallıq əmələ gəlir.

4) Tonallıqdan kənar elementlər də mövcuddur. Tonallıqdan kənarla atonallığı eyniləşdirmək olmaz. Tonallıqdan kənar dedikdə müvəqqəti

yaranmış, tonallığına görə neytral olan modulyasiya zonası nəzərdə tutulur. Belə bir modulyasiya müəyyən tonallığa doğru gedən yolda əmələ gəlir.

5) Bir-birinin əksi olan müxtəlif lad birləşmələrinin eyni vaxtda səslənməsi nəticəsində poliladlıq – birtonallı şaquli mütənasiblik yaranır.

6) Yeni melodik və harmonikçevrilmələr yaratmaq üçün yeni ladlar daxil edilir.

7) Tonika öz lad rəngini dəyişərək konsonanslıqdan çıxır.

Müasir musiqidə harmoniya ənənəvi musiqidən fərqli olaraq tematizmin əsasına çevrilir. Buna görə də ”tematik harmoniya” termini yaranmışdır.

XIX əsrin klassik musiqisi ilə müasir musiqinin harmoniyalarını müqayisə etsək, müasir harmoniyada polifonizmin diqqət mərkəzində olduğunu görərik.

Bu sadəcə olaraq polifonizmin rolunun artdığı deyil, söhbət harmoniyanın özündə polifonizmin formalaşmasından gedir. Bu özünü hər bir səsin, hər bir səs kompleksinin melodik-tematik fərdiləşməsində özünü göstərir. Müasir harmoniyanın səciyyəvi xüsusiyyəti məhz onun tematik-fərdi əhəmiyyət kəsb etməsidir. Bunun nəticəsində harmoniya artıq çoxsəsliliyin və lad-tonallıq əlaqələrinin ümumi əsası olmaq funksiyasından xarakteroloji, obrazlı rol funksiyasına çevrilir.

Müasir musiqi ədəbiyyatının təhlili göstərir ki, musiqi dilinin dəyişməsində əsas dəyişiklik harmoniyanın payına düşür.

Bütün bu deyilənlər harmoniya və onun səciyyəvi xüsusiyyətlərinə aid idi.

İndi isə gəlin harmonic eşitmə qabiliyyəti və musiqinin qavranılmasında onun əhəmiyyəti haqda danışaq.

Məktəb tədris-metodik ədəbiyyatında “harmonik eşitmə qabiliyyəti” anlayışı müxtəlif şəkildə şərh edilir. Əksər hallarda həmin anlayış ikisəsli və üçsəsli xor əsərlərinin qavranılma və ifa olunma qabiliyyəti kimi təsnif olunur. Qısa şəkildə desək, harmonik eşitmə çoxsəsli musiqini qavramaq qabiliyyətidir.

V-VIII sinif şagirdlərində harmonik eşitmə qabiliyyətinin formalaşması və inkişafı onlarda musiqini tam şəkildə qavramaq vərdişləri ilə əlaqədardır. Psixoloqlar musiqi eşitmə qabiliyyətini (slux) “qabiliyyətlər kompleksi” kimi şərh edirlər. Bu kompleks əsasında şagird musiqi obrazlarını təsəvvür edir və onu qavrayır.

“Qabiliyyətlər kompleks”inə daxil olan əsas qabiliyyət isə harmonik eşitmə qabiliyyətidir.

Harmonik eşitmə qabiliyyəti xorla oxumaq prosesində inkişaf edir. Çünki çoxsəsli musiqinin ifasında harmonik eşitmə qabiliyyəti əsas rol oynayır.

Məlumdur ki, musiqi inkişafının əsasını şagirdlərin musiqiyə emosional reaksiya verməsidir. Lakin bununla yanaşı musiqini tam qavramaq üçün şagird musiqidəki xaric (deton) səsləri eşidə bilmirsə, yəni harmoniyanı qavramırsa,

bu halda onun emosional reaksiyası da çox səthi olacaq. Musiqi cəhətdən inkişaf etmiş şagirddə iki cəhət – emosiya və eşitmə qabiliyyəti qarşılıqlı əlaqədə olur. Buna görə də şagirdlər də müxtəlif qabiliyyətlər kompleks şəkildə inkişaf etdirilməlidir. Yalnız bu halda musiqini tam şəkildə qavramaq mümkündür.

Məqalədə **ilk dəfə** olaraq musiqinin tam qavranılması üçün emosiya və eşitmə qabiliyyətinin qarşılıqlı əlaqədə inkişaf etməsinin önəmi və buna görə də şagirdlərdə müxtəlif qabiliyyətlərin kompleks şəkildə inkişaf etdirilməsının labüdliyi göstərilir.

## Ədəbiyyat

1. Rəcəbov O. “Uşaqlar və mahnılar”,
2. Белобородова В.К., Ригина Г.С., Алиев Ю.Б. “Музыкальное восприятие школьников”. М.,1975
3. Мазель Л.. “К дискуссии о современной гармонии.” / “Советская музыка”, 1962, № 5

**Məqalənin redaksiyaya daxil olma tarixi: 08.02.2021**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 22.02.2021**
**Məqalənin çapa qəbul olunma tarixi: 15.03.2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Afət Həsənova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

# *MƏKTƏBƏQƏDƏR TƏLİM, TƏRBİYƏ*

**UOT 316.6**

**G.H.Əlixanova**
psixologiya üzrə fəlsəfə doktoru, baş müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: gülnare.alixanova @mail.ru

## YENİYETMƏLƏRDƏ DAVRANIŞ POZUNTULARININ TƏZAHÜR XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *davranış qüsurları, inam hissi, intellekt, yeniyetmə, davranış modeli, ailədaxili münasibətlər*

Mövcud elmi anlayışa görə, psixoloji və sosial problemlər uşaqlarda və yeniyetmələrdə davranış pozğunluqlarının əsas səbəblərindən biridir. Hüquqi və mənəvi şüurun formalaşmasında qüsurlar, şəxsiyyət ehtiyaclarının məzmunu, mahiyyəti, xüsusiyyətləri, uşaqlarda və yeniyetmələrdə özünü göstərən ciddi psixi pozğunluqlar, ailənin və bütövlükdə cəmiyyətin uşaqlara və yeniyetmələrə olan münasibətlərinin mahiyyəti və s. amillər onlarda davranış qüsurlarının inkişafına səbəb olan əsas amillər kimi qəbul edilə bilər.

**Г.Г.Алиханова**

## ОСОБЕННОСТИ ПРОЯВЛЕНИЯ ПОВЕДЕНЧЕСКИХ РАССТРОЙСТВ У ПОДРОСТКОВ

***Ключевые слова:*** *поведенческие дефекты, уверенность, интеллект, подростковый возраст, поведенческая модель, семейные отношения*

Согласно современным научным представлениям, психологические и социальные проблемы являются одной из ведущих причин поведенческих расстройств у детей и подростков. Дефекты в формировании правового и нравственного сознания, содержание, характер, особенности потребностей личности, серьезные психические расстройства, проявляющиеся у детей и подростков, характер отношения семьи и общества в целом к детям и подросткам, и т. д. Такие факторы можно рассматривать как основные факторы, приводящие к развитию у них дефектов поведения.

**G.H.Alikhanova**

## FEATURES OF THE MANIFESTATION OF BEHAVIORAL DISORDERS IN ADOLESCENTS

***Keywords:*** *behavioral defects, confidence, intelligence, adolescence, behavioral model, family relationships*

According to modern scientific ideas, psychological and social problems are among the leading causes of behavioral disorders in children and adolescents. Defects in the formation of legal and moral consciousness, the content, nature, characteristics of the needs of the individual, serious mental disorders manifested in children and adolescents, the nature of the attitude of the family and society as a whole to children and adolescents, etc. Such factors can be considered as the main factors that lead to the development of behavioral defects in them.

Tarix boyu bizim həyatımızda cəmiyyət tərəfindən qəbul edilən davranış qaydaları və normaları mövcud olmuşdur. Müasir dövrümüzdə uşaq və yeniyetmələrdə müxtəlif xarakterli davranış qüsurları problemi öz həllini gözləyən aktual problemlərdən birinə çevrilmişdir. Dərsdən yayınan, evdən qaçan, dilənçilik, oğurluq edən, siqaret çəkən, alkoqol qəbul edən, aqressiv davranış nümayiş etdirən bu cür yeniyetmələr adətən risk qrupuna aid edilirlər.

Uşağın hər xoşa gəlməyən hərəkətini "davranış pozuntusu" adlandırmaq olmaz. Əgər uşaq hər şeyi yerə atırsa və ya sındırırsa bu, əksər halda ondan irəli gəlir ki, əslində o, atdığı və sındırdığı əşyalardan necə istifadə etməli olduğunu bilmir. Valideynlərin müntəzəm məsləhətlərinə və diqqətinə rəğmən arzuolunmaz hərəkətlərin davam etməsi isə qavrayışdakı çətinləşməni əks etdirir.

Davranış problemləri uşaq və yeniyetmənin özü və digərləri üçün yarada biləcəyi çətinlik və maneələrdir [1, s.27]. Hər bir davranış pozuntusunun mütləq bir səbəbi vardır. Neqativ davranışlar çox vaxt uşaqdakı yetərsizlik, sayılmama və dəyər verilməmə hisslərindən ortaya çıxır. Yeniyetmənin istedad və gücündən artıq ondan bacarıqlar gözləməmək, əldə etdiyi nəticələr yüksək olmasa da, tənqid etmədən daha yaxşı nəticə əldə etməsinə istiqamətləndirmək daha məqsədəuyğun hesab edilir.

Ailənin uşaq üzərində nəzarəti, valideynlərin övladlarına mütəmadi olaraq diqqət ayırması kimi hallar uşaqları qarşıda baş verə biləcək cinayətlərdən çəkindirir. Yeniyetmənin internet asılılığı da çox vaxt cinayət üçün əlverişli mühit yaradır, bəzi uşaqlar orada gördüklərini real həyatda tətbiq etməyə çox böyük həvəs göstərirlər. Yeniyetmələr bu zaman özlərinin qeyri-adi gücə sahib

olduqlarını nümayiş etdirmək həvəsinə düşürlər. Bu yaşda şüurları yetərincə formalaşmadığına görə, müxtəlif təsirlərə nisbətən daha tez düşə bilirlər.

Yeniyetmənin yaşadığı ailədə valideynlərarası gərginliyin uşaqda yaratdığı davranış pozuntuları da bu gün üçün çox aktual mövzulardan biridir. Onlarda baş verən klassik davranış pozuntusu valideynlərarası gərginliklə bağlıdır. Uşağın davramşını qiymətləndirmək hər bir valideynin şəxsi işidir. Buna baxmayaraq valideynlər ətrafdakıların uşağın davranışına reaksiyasını da mütləq surətdə fikir verməlidirlər [2, s.45].

➢ Uşağın davranışında olan çatışmazlıqları aradan qaldırmaq üçün nə etməliyik?

1. Problemi təyin etmək;
2. Məqsəd qoymaq;
3. Uşağa bu məqsədlləri yerinə yetirməyi öyrətmək.

➢ Məqsədlərin yerinə yetirilməsini uşağa necə öyrətməliyik?

1. Məqsədləri dəqiq təsəvvür edin.
2. Əmin olun ki, uşağınızla ünsiyyətdə olan insanların sizin qoyduğunuz məqsədlərdən məlumatı var.
3. Qərara alın, arzuolunmaz davranışdan sonra nə baş verə bilər.
4. Arzuolunmaz davranışa qarşı dərhal reaksiya göstərin.
5. Hərəkətlərinizdə sabit olun.
6. Uşağın davranışı yaxşılaşmazdan əvvəl pisləşə bilər və buna hazır olun.
7. Uşağınızın yaxşı davranışını mükafatlandırın.
8. Pis vərdişlərin yaxşılarla əvəz edilməsi üçün uşaqda pozitiv bacarıqlar formalaşdırın.
9. Uşağın davranışlarının korreksiya prosesinə bu işdə maraqlı insanları cəlb edin.
10. Nəticələrin qeydlərini aparın.

Şəxsiyyətlərarası münasibətlərdən qaçmaq mümkün olmadığı üçün onların neqativ nəticələri barədə xəbərdarlıq edən mühüm şərtlər yaratmaq, baş verə biləcək davranışın profilaktikası üçün çox obrazlı vasitələrdən istifadə olunmalı, artıq meydana gəlmiş disfunksional münaqişələri isə vaxtında həll etmək lazımdır. Uşağın davranışında olan çatışmazlıqları aradan qaldırmaq üçün ilkin olaraq məktəb psixoloqunun köməyi ilə mövcud problem vaxtında təyin edilməli, qarşıya konkret məqsəd qoyulmalı və eyni zamanda uşağa bu məqsədlləri yerinə yetirməyi əməli şəkildə öyrətmək daha məqsədəuyğun hesab olunur [3, s.221].

Yeniyetməlik yaşı dövründə davranış pozuntusuna malik olanlar tez-tez başqalarina qarşı kobudluq edir, qorxudur, mütəmadi olaraq dalaşır, başqalarını ağır yaralayacaq vasitələrdən (taxda, daş, qırıq şüşə, bıcaq, odlu silah) istifadə edirlər. Adətən heyvanlara qarşı amansız davranmaq, insanların gözü önündə

nəsə oğurlamaq və ya cinayət törətmək (hücüm edib, soyğunçuluq etmək, məcbur pulunu almaq, silahlı qarət etmək, kiməsə qarşı cinsi məzmunlu davranışlar etmək, ağır zərər vermə məqsədi ilə qəsdən yanğın torətmək, başqalarin əşyalarına bilə-bilə zərər vermək, başqasının evinə və maşınına zorla girmək) bu cür davranışa malik olan yeniyetmə və uşaqlar üçün adi hala çevrilir.

Mütəxəssisin davranış pozuntusu diaqnozunu qoyması üçün bu sahədə müəyyən edilmiş kriteriyalardan ən azı üçünün son altı ayda müntəzəm davam etməsində özünü göstərir. Bu cür davranış pozuntuları müxtəlif ağırlıq dərəcələrində özünü göstərir:

1) Ağır olmayan (yüngül): əlamətlərdən bəziləri ola bilər, lakin bu davranış problemləri başqalarına olduqca az neqativ təsir göstərir (yalan danışmaq, məktəbdən qaçmaq, hava qaralandan sonra icazəsiz çölə çıxma, bəzi qaydalara əməl etməmə).

2) Orta dərəcə: davranış problemlərin sayı ağır olmayana nisbətdə daha çoxdur (başqa birinin gözü qarşısında oğurluq etmək, kobud davranışlar nümayiş etdirmək).

3) Ağır dərəcəli: Diaqnoz qoymaq üçün lazımi davranış problemlərinin bir çoxu olmalıdır və ya başqalarına çoxlu miqdarda neqativ təsir gostərməlidir (cinsi istismar, aqressiv davranışlar etmək, gizlicə oğurluq etmək, qapını sındırmaq, içəri girmək və s.).

Davranış pozuntusunun 3 alt tipi müəyən edilir və bunlar adətən xəstəliyin başlama yaşına görə təyin olunur [4, s.345]:

1. Uşaqlıqda başlanan tip (davranış pozuntusunun ən az biri 10 yaşdan əvvəl göstərirlər) – başlanğıc davranış pozuntusu olaraq adətən oğlanlarda rast gəlinir, onlar başqalarına qarşı tez-tez fiziki aqressiya nümayiş etdirir, bu da öz yaşıdları ilə əlaqədə çətinliklər yaradır. Bu tipə aid olan uşaqlarda eyni zamanda diqqət əksikliyi hiperaktivlik, sinir sisteminin inkişafında çətinliklər müşahidə olunur.

2. Yeniyetməlikdə başlanan tip (əlamətlər 10 yaşdan sonra görülür) – uşaqlıqda başlanan növü ilə müqayisədə davranış pozuntusunda aqressiv davranışları daha az görülür və adətən həmyaşıdları ilə daha çox normativ münasibətlərdə olur.

3. Başlanğıcı müəyyənləşdirilməyən tip – davranış pozuntusu üçün diaqnoz kriteriyaları qeyd olunmuşdur, lakin 10 yaşdan əvvəl başlayıb-başlanmaması dəqiq müəyyən etmək olmur.

Davranış pozuntusu zamanı aşağıdakı risk faktorları nəzərə alınır:

- Temperamentli risk faktorlarına çətin idarə olunan temperamentlər, aşağı dərəcəli zəka və İQ səvviyənin aşağı olması daxildir.

- Ətraf mühütdə isə ailə səviyəsində risk faktoru özündə valideyn tərəfindən imtina edilmə və laqeyidlik, düzgün olmayan tərbiyə metodu, ağır

nizam – intizam, fiziki çətinlik, nəzarətin olmaması, tərbiyəçilərin tez-tez dəyişməsi, ailənin böyük olması səbəb ola bilər.

- Genetik və fizioloji faktorlar isə daha çox valideyinlərin alkoqol istifadəsindən sonra depressiya, bipolyar pozuntu yaxud şizofreniya və davranış pozuntusu olduqda özünü daha qabarıq biruzə verir.

Müasir elmi təsəvvürlərə görə, uşaq və yeniyetmələrdə davranış qüsurlarının səbəbləri içərisində psixoloji və sosial problemlər aparıcı yerdə durur. Hüquqi və əxlaqi şüurun formalaşdırılmasında yol verilən nöqsanlar, şəxsiyyətin təlabatlarının məzmunu, xarakteri, xüsusiyyətləri, uşaq və yeniyetmədə özünü göstərən ciddi psixi pozğunluqlar, ailənin, bütövlükdə cəmiyyətin uşaq və yeniyetmələrə münasibətinin xarakteri və s. kimi amilləri onlarda davranış qüsurlarının yaranmasına səbəb olan əsas amillər hesab edilir.

Uşaq və yeniyetmələrdə müşahidə olunan davranış qüsurlarını xarakterik (qeyri-patoloji) və patoloji olmaqla da iki əsas qrupa ayırmaq olar. Xarakterik davranış pozğunluqları keçici, situativ cəhətdən şərtlənmiş davranış dəyişkənliyidir və o, daha çox müəyyən mikromühitdə (məsələn, yalnız evdə, yalnız məktəbdə, yalnız küçədə) təzahür edir. Xarakterik davranış pozğunluqları özlərinin psixoloji məzmununa və istiqamətinə görə fərqlənir, fərdin sosial adaptasiyasına ciddi təsir göstərmir. Patoloji davranış qüsurları isə uşaq və yeniyetmənin həyatının bütün sahələrində total məzmunlu, psixogen mənşəli davranış reaksiyaları kimi əks olunur, müxtəlif davranış pozğunluqları şəklində təzahür edir, daha çox nevrotik, kliniki xarakterli simptomları ilə fərqlənir [5].

Patoloji davranış qüsurlarına nümayişkəranə üsyankarlıq, hiperaktivlik, autistik xarakterli pozğunluqları aiddir. Bu cür davranış qüsurlarının genezisi psixi xəstəliklərlə, psixi və əqli inkişafda geridəqalma, autizm, mərkəzi sinir sisteminin üzvi zədələnməsi, hiperaktivliklə diqqətin çatışmazlığı sindromu və s. ilə əlaqədardır, tibbi və psixoterapevtik korreksiya tələb edir. Bu məqsədlə dərman terapiyası, psixoterapiya, valideynlər və müəllimlərlə maarifləndirici söhbətlər və s. kimi metodlardan istifadə etmək məqsədəuyğundur.

Şagirdlər arasında maarifləndirici tədbirləri həm dərslərdə, həm də dərsdənkənar vaxtlarda keçirmək çox vacibdir. Uşaqlarda davranış qüsurları nə qədər tez aşkar olunarsa və ya qabaqlayıcı-profilaktik tədbirlər vasitəsilə qarşısı vaxtında alınarsa, onları daha tez və səmərəli şəkildə aradan qaldırmaq, daha ciddi patoloji pozğunluq halına keçməsi riskini azaltmaq olar.

Valideynlər, məktəb psixoloqları, məktəb həkimi, sosial pedaqoqlar və sinif rəhbərinin qarşısında duran ən mühüm vəzifələrdən biri məhz davranış qüsurları olan uşaq və yeniyetmələrlə aparılacaq psixoloji profilaktika və korreksiya işlərinin sistemli şəkildə, konkret proqramlar əsasında həyata keçirilməsini təmin etməkdən ibarətdir. Ailənin, təhsil müəssisələrinin, inzibati orqanların, uşaq və gənclərlə işləyən dövlət təşkilatlarının sistemli əlaqəsini

yaratmaq və bu problemə vaxtında müdaxilə etməklə daha yaxşı nəticələr əldə etmək mümkündür.

**Məqalənin aktuallığı** yeniyetməlik yaş dövründə baş verən davranış qüsurlarının diaqnostika vasitəsi ilə müəyyənləşdirilərək aradan qaldırılması zamanı müvafiq iş formaları və metodlarının düzgün müəyyən edilməsi ilə bağlıdır.

**Məqalənin elmi yeniliyi** yeniyetmələrdə davranış qüsurlarının baş verməməsi üçün onun yaşıdları və yaşlılar ilə qarşılıqlı münasibətlərinin düzgün istiqamətləndirilməsi amilinin qarşıya bir məqsəd kimi qoyulması məsələsinə əməli diqqət yetirilməsindən ibarətdir.

**Məqalənin praktik əhəmiyyəti** ondan ibarətdir ki, məqalədən elmi yaradıcılıq işində bu mövzu ilə maraqlananlar, pedaqoqlar, psixoloqlar, eləcə də ali və orta ixtisas məktəblərinin tələbə və magistrləri istifadə edə bilər.

## Ədəbiyyat


1. Şəfiyeva E.İ. Klinik psixologiya. Dərs vəsaiti. Bakı: 2002, 80 s.
2. Vəliyev M.V. Psixoloji problemlərin öyrənilməsi. Bakı:1999, 65 s.
3. Андриенко, Е.В. Социальная психология: М: ИЦ Академия, 2012, 264 с.
4. Лаукс Г. Психиатрия и психотерапия: Справочник /М: МЕДпресс - инф., 2012, 512 с.
5. www.library.evro-bit.ru



**Məqalənin redaksiyaya daxil olma tarixi: 08.02.2021**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.02.2021**
**Məqalənin çapa qəbul olunma tarixi: 15.03.2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**psixologiya üzrə fəlsəfə doktoru Qəribə Rəhimova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 373.2**

**A.Kamilova**
Magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küç,68
e-mail: aidasergeyeva@gmail.com

# MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ TƏHSİL MÜHİTİ

***Açar sözlər:*** *təhsil mühiti, komponentlər, məzmun*

Təhsil mühiti – məktəbəqədər uşaq müəssisəsində uşaqların inkişafını təmin edən şərtlər kompleksidir. Məktəbəqədər təhsil müəssisəsinin təhsil mühiti təhsil prosesinin nəticələrinə, şəxsiyyətlərarası münasibətlərin təbiətinə, məktəbəqədər yaşlı uşağın inkişafına təsir göstərir.

**А.Камилова**

# ОБРАЗОВАТЕЛЬНАЯ СРЕДА В ДОШКОЛЬНЫХ ОБРАЗОВАТЕЛЬНЫХ УЧРЕЖДЕНИЯХ

***Ключевые слова:*** *образовательная среда, компоненты, содержание*

Образовательная среда — это комплекс условий, которые обеспечивают развитие детей в дошкольном учреждении. Образовательная среда дошкольного образовательного учреждения воздействует на результаты образовательного процесса, характер межличностных отношений, развитие каждого дошкольника.

**A.Kamilova**

# EDUCATIONAL ENVIRONMENT IN PRESCHOOL EDUCATIONAL INSTITUTIONS

***Keywords:*** *educational environment, components, content*

The educational environment is a complex of conditions that ensure the development of children in a preschool institution. The educational environment of a preschool educational institution affects the results of the

educational process, the nature of interpersonal relations, the development of each preschooler.

Mühit – insanın inkişaf etdiyi real gerçəklikdir. Uşağın inkişaf mühiti – onun fəaliyyət göstərdiyi məkandır. Məktəbəqədər təhsil proqramının müvəffəqiyyətlə həyata keçirilməsi üçün təhsil mühitin yaradılması şərtdir, hansı ki:

- uşaqların fiziki və zehni sağlamlığının qorunmasına və möhkəmləndirilməsinə zəmanət verir;
- uşaqların emosional rifahını təmin edir;
- müəllim heyətinin peşəkar inkişafına kömək edir;
- dəyişkən məktəbəqədər təhsilin inkişafı üçün şərait yaradır;
- məktəbəqədər təhsilin açıqlığını təmin edir;
- valideynlərin (qanuni nümayəndələrin) təhsil fəaliyyətində iştirakı üçün şərait yaradır.

İnkişafetdirici mühit nəzəriyyəsi Jan Jak Russonun fəlsəfi və pedaqoji baxışlarında xüsusi yer tutur. Bu görkəmli filosof və müəllim ilk olaraq mühiti (təbii və əşyavi) şəxsiyyətin optimal ozünüinkişafın bir şərt kimi nəzərdə tuturdu.Onun fikrincə tərbiyə sistemi o zaman təsirli olur ki,hər şəxsiyyət üçün xüsusi inkişafetdirici mühit olsun, hansı ki, onun real imkanları və təbii ehtiyaclar arasında tarazlıq yaratsın. Belə bir mühitdə fərd hazır bilik almır, ancaq öz təcrübəyə əsaslanaraq canlı təbiəti müşahidə edərkən onları əldə etmeyi öyrənir. Eyni zamanda, J.J.Russo şəxsiyyət inkişafının əsas mənbəyini biliylərin  genişliyi deyil onlardan müstəqil şəkildə istifadə etmək bacarığını qeyd edirdi.

Digər fransız pedaqoqu və filosofu S.Frenenin fikrincə, uşaq öz şəxsiyyətini özü yaratmalı və potensial imkanlarını üzə çıxartmalıdır. Müəllim-tərbiyəçinin funksiyası uşağa bunların kəşfinə və inkişafına kömək etməkdir.Bu baxımdan S.Frene mühitin təşkilinə xüsusi diqqət verirdi, hardakı uşağın öyrənməsi və özünüinkişafı gedir.

Məktəbəqədər təhsil müəssisəsinin inkişafetdirici təhsil mühiti aşağıdakı komponentlərdən ibarətdir:

- pedaqoji proses iştirakçılarının qarşılıqlı əlaqəsi;
- inkişafetdirici əşyavi-məkan  mühiti;
- məktəbəqədər təhsilin məzmunu.

1. Pedaqoji prosesdə iştirak edənlərin qarşılıqlı əlaqəsi – tərbiyəçi-müəllimin, tərbiyə olunanların və valideynlərin ümumi tapşırıq və nəticələrə

nail olmaq üçün razılaşdırılmış birgə fəaliyyətidir.

2. İnkişafetdirici əşyavi-məkan mühiti – məktəbəqədər təhsil mühitinin ayrılmaz hissəsidir. İnkişafetdirici əşyavi-məkan mühiti texniki avadanlıq, məktəb ləvazimatı, mebeli, inventarı, lövhələr, didaktik oyunlar, oyuncaqlar, əyani vəsaitlər və s. ilə təmsil olunur.

3. Məktəbəqədər təhsilin məzmunu uşaqlarda aşağıdakı keyfiyyətlərin formalaşdırılmasına yönəldilir:

a) cəmiyyətə sosial uyğunlaşma, kollektiv daxilində birgə fəaliyyət və ünsiyyət mədəniyyəti;

b) müstəqillik, məsuliyyət və cavabdehlik, özünə inam və iradəlilik;

c) müşahidə etdiklərinə münasibət bildirmək, qərar qəbul etmək və müstəqil öyrənmək;

d) təbiətə və insanlara həssas münasibət, özünün və digərlərinin hüquqlarına hörmət etmək;

e) estetik dünyagörüşü, nitq, təsvir və tərtibat bacarıqları;

f) sağlamlığın qorunması istiqamətində gigiyenik tələblərə riayət etmək.

Bu gün fəal/interaktiv təlimin tətbiqi nəticəsində real həyati bacarıqlar formalaşdırmaq üçün uşaqları anlayaraq, onların ehtiyac və maraqlarına uyğun təhsil mühiti yaradaraq, fərdi xüsusiyyətlərini nəzərə alaraq hər bir uşaqla tək-tək maraqlanmaq lazımdır. Qrupda stimullaşdırıcı, demokratik bir mühit yaradılmalıdır. Tərbiyəçi-müəllim məlumatları özü verməkdən çox, uşaqları öyrənməyə və araşdırmağa yönəldməlidir. Zəif uşaqlara diqqəti artıraraq ən kiçik bir müvəffəqiyyətlərinə görə onları rəğbətləndirməlidir. Uşaqların zəif olması səbəblərini araşdırır, valideynlərlə söhbətlər aparmalıdır. Uşaqlarda öz-özlərinə nəzarətetmə qabiliyyətlərini inkişaf etdirməlidir. Oyunlardan istifadə etmək zəruridir. Bunun nəticəsində onlarda dinləyib anlama və hadisələrə münasibət bildirmə, məntiqi düşünmə, hiss və duyğularının ifadəsində musiqidən bir vasitə kimi istifadə etmə duyğularını rollu oyunlar, rəqs və idmanla ifadə etmə, digər insanlarla ünsiyyət qurmaq, onları anlamaq və münasibət bildirmək, fərdin özünü duyması və anlaması, özünü ifadə etməsi, şəxsiyyətinə hörmət bəsləməsi, bitkiləri, mineralları, heyvanları, dünyanı, dağları, dənizləri və sairəni tanımaq, təsvir etmək bacarıqları formalaşır.

Məqalənin **elmi yeniliyi** olaraq təhsil mühiti uşağın həyatı üçün yalnız bir şərt deyil, həm də şəxsiyyətin formalaşmasına və inkişafına təsir göstərən potensial bir vasitə kimi çıxış etməsidir.

## Ədəbiyyat

1. Məktəbəqədər təhsilin kurikulumu (Layihə), Bakı 2017
2. Məktəbəqədər təhsil haqqında Azərbaycan Respublikasının Qanunu, Bakı, 2017
3. Новоселова С.Л. Развивающая предметная среда, М., 1995
4. Петровский В.А. Построение развивающей среды в дошкольном учреждении. — М., 1993
5. Артамонова О.В. Предметно-пространственная среда: её роль в воспитании личности / О.В. Артамонова //Дошкольное воспитание, 2015.
6. Гогоберидзе А.Г., Солнцевой О.В. Дошкольная педагогика с основами методик воспитания и обучения. Питер, 2013

**Məqalənin redaksiyaya daxil olma tarixi: 21.01.2021**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 12.02.2021**
**Məqalənin çapa qəbul olunma tarixi: 15.03.2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru Sədaqət Əliyeva**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №1, 2021, **s. 65-69**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2021, **с. 65-69**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2021, **pp. 65-69**

**UOT 373.2**

**A.Abdullayeva**
Magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Az 1000, Bakı ş., Ü.Hacıbəyli küçəsi, 68
e-mail: 1aynurabdullayeva@gmail.com

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAĞIN CƏMİYYƏTDƏ TƏHLÜKƏSİZLİYİ

***Açar sözlər**: məktəbəqədər, uşaq, təhlükəsizlik*

Uşaqlar ailə xoşbəxtliyinin ən böyük göstəricisidir. Həyatda ən saf qəlbə, sevgiyə aid olan şəxslər də uşaqlardır. Hətta belə bir ifadə də var ki, uşaqlıq saflığını itirməyən insan böyük insan sayılır. Xoşbəxtlik cücərtilərinin yaranmasında və möhkəmlənməsində uşaq böyük qüvvə hesab edilir. Buna görə də xoşbəxtliyimizin bitməməsi üçün onları qorumalı və müdafiəsi yolunda əlimizdən gələni etməliyik.

**А.Абдуллаева**

# БЕЗОПАСНОСТЬ РЕБЕНКА ДОШКОЛЬНОГО ВОЗРАСТА В ОБЩЕСТВЕ

***Ключевые слова**: дошкольное образование, ребенок, безопасность*

Дети – величайший показатель семейного счастья. Дети – это те, кому принадлежит самое чистое сердце и любовь в жизни. Есть даже поговорка, что великим человеком считается человек, не теряющий чистоты детства. Ребенок – великая сила в создании и укреплении ростков счастья. И для того чтобы наше счастье не закончилось, мы должны оберегать и делать все возможное во имя их защиты.

**A.Abdullayeva**

# SECURITY OF PRESCHOOL CHILDREN IN SOCIETY

***Keywords**: preschool, child, safety*

Children are the greatest indicator of family happiness. Children are the ones who belong to the purest heart and love in life. There is even a saying that

a person who does not lose the purity of childhood is considered a great person. The child is a great force in the creation and strengthening of the sprouts of happiness. Therefore, we must do our best to protect and defend them so that our happiness does not end.

Müasir dünyamız iqtisadi və sosial-mədəni sahədə yüksək inkişaf səviyyəsinə nail olmuşdur. Buna baxmayaraq hər kəsi olduqca dərindən düşündürən bəzi məsələlər vardır. İnsanları narahat edən əsas məsələ gələcəkdə nələr ilə qarşı-qarşıya qalacaqları, yaranmış olan çətinlikləri aradan qaldırmaq üçün hansı profilaktik tədbirlərin görülməsi fonunda yaranmış problemlərdir. Belə problemlərdən biri də qloballaşmanın yaratmış olduğu geniş informasiya-kommunikasiya ilə bağlıdır. Dünyanın hər bir guşəsindəki dəyişikliklərlə olduqca sürətli tanış olma imkanı əldə etdiyimiz kimi insan sağlamlığına, onun mənəviyyatına, mal-mülkünə və nəhayət, yaşadığı ölkənin suverənliyinə və xalqının milli dəyərlərinə təhlükə doğuran hər cür neqativ ünsürlərlə də qarşılaşma təhkükəsi ilə üz-üzə qalırıq. Bu kimi halların baş verməməsi üçün bir sıra tədbirlər həyata keçirilməlidir. Belə tədbirlərin ən əhəmiyyətlisi sosial təhlükəsizliyin təmin edilməsidir.

Azərbaycan Respublilasının Qanunvericiliyinə əsasən, "təhlükəsizlik - dövlətin müstəqilliyinin, suverənliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşunun, xalqın və ölkənin milli maraqlarının, insanın, cəmiyyətin və dövlətin hüquq və mənafelərinin daxili və xarici təhdidlərdən qorunmasını təmin edilməsidir". Buna görə də istənilən sahədə uşaqların, yeniyetmələrin - bir sözlə, hər kəsin təhlükəsizliyi təmin edilməlidir.

Uşağın şəxsiyyət kimi formalaşması, həyatı dərk etməsi, ictimai mühitə hazırlığı məhz məktəbəqədər dövrdə ilkin təməli qoyulur. "Məktəbəqədər təhsilin məqsədi erkən yaş dövründən başlayaraq uşaqların əqli, fiziki və yaradıcı potensialının, mədəni səviyyəsinin inkişafının, psixoloji dayanaqlığının və sağlamlığının, mühafizəsinin, ətraf aləmə həssas(şüurlu) münasibətinin və şəxsiyyətinin formalaşdırılmasından ibarətdir" [1]. Uşağın dünyagörüşünün və intellektual potensialının inkişafı üçün məktəbəqədər dövr boyunca sağlam qidalanmasına, dəstəkləyici və informasiyalı bir mühitin əhatə dairəsində olmasına nəzarət etmək lazımdır.

Kütləvi informasiya vasitələri (KİV) uşaqlarda mənəvi dəyərlərin formalaşmasına çox güclü təsir göstərir. Bu kontekstdə televiziya xüsusi rol oynayır. Televiziya ekranlarından başqa xalqlara xas mədəniyyəti, həyat tərzini təbliğ edən filmlərin nümayişi nəticəsində gənclərin qərbdəki həyat standartlarına yönəlməsi müşahidə olunur. Tədqiqatçılar hesab edirlər ki, məhz

bunun təsiridir ki, son dövrlərdə gənclər asan yolla, daha az səy göstərməklə uğur qazanmaq, varlanmaq, vəzifə tutmaq istəyirlər. Bu da get-gedə maddiyyata daha çox önəm verilməsinə, mənəviyyat, vətənpərvərlik, milli dəyərlərə hörmət kimi hisslərin arxa plana keçməsinə səbəb olur [2].

İnformasiya-psixoloji təhlükəsizliyə neqativ məlumatların təsiri, virtual oyunların uşaqlara psixi təsiri aid edilir. İnternet vasitəsilə evlərimizə daxil olan zərərli informasiya təhlükəsini bir çoxlarımız fərqində deyilik. İntenetdən gələn təhlükə yalnız zərərli informasiya ilə kifayətlənmir, həm də uşaqları özündən asılı vəziyyətə salır. İnformasiya təhlükəsizliyi anlayışı indi yaranmış bir hadisə deyildir. Kompüterin ixtira olunmadığı vaxtlarda da var idi. Smart telefonların yayılması, internet şəbəkələrinin meydana gəlməsi və s. amillər informasiya təhlükəsizliyi problemini daha da aktuallaşdırdı. Hazırda uşaqlar kiçik yaşlardan mobil telefonlardan, digər mobil qurğulardan istifadə edirlər. Onlar yazıb-oxuya bilmədikləri yaşlarda belə müxtəlif informasiyaları internet vasitəsilə əldə edirlər. Üç yaşında, hətta ondanda kiçik yaşlarda uşaqlar sərbəst youtube-a daxil olurlar. Öz maraqlarına uyğun informasiyaları əldə edir və izləyirlər. Əsas məsələ orasındadır ki, uşaqların bu cür informasiya-kommunikasiya texnologiyaları ilə təmasda olmasına valideynlər özləri imkan yaradırlar. Uşaqlar ağlamasın, onları narahat etməsin, bir sıra təhlükələrlə qarşılaşmamaq üçün telefonla məşğul olmasına icazə verirlər. Uşaqlar internetdə, televiziyalarda bir çox təhlükəli amillərlə qarşılaşırlar. Oyunlar, cizgi filmləri müxtəlif fəsadlara yol aça bilir. Bu fəsadların ən birincisi uşağın psixologiyasına olan təsirdir. Elə cizgi filmləri var ki, onlar uşağın yaşına uyğun deyil. Televiziyalarda yayımlanan hər bir informasiya materialları uşaqların yaş səviyyəsinə və psixologiyasına uyğun tənzimlənir. Bu kimi məsələlər qanunvericilikdə də öz əksini tapır. “Uşaqların zərərli informasiyadan qorunması haqqında” qanun qəbul edilmişdir. Azərbaycan Respublikasının Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndinə uyğun olaraq hazırlanmışdır. Bu qanun 3-cü maddəsini “Uşaqların zərərli informasiyadan qorunması sahəsində əsas prinsiplər” təşkil edir. Layihədə uşaqların mənafeyi və ehtiyaclarının üstün tutulması, hüquq və azadlıqlarının təmini, uşaqların həyat və sağlamlığı üçün təhlükəsiz olan, onların hərtərəfli inkişafını və sosiallaşmasını təmin edən informasiya məhsullarının dövriyyəsinə şəraitin yaradılması, zorakılığın, qəddarlığın, narkotik vasitələrin və psixotrop maddələrin, alkoqollu içkilərin və tütün məmulatlarının, cəmiyyət əleyhinə davranışın, pornoqrafik xarakterli informasiyanın təbliğinin yolverilməzliyi uşaqların zərərli informasiyadan qorunması sahəsində əsas prinsiplər kimi irəli sürülür. Həddindən artıq internetə aludə olmaq psixoloji baxımdan uşaqlara çox pis təsir edir. Aqressivlik yaranır, yuxu rejimi pozulur, hətta yemək yemir.

Hərtərəfli inkişafına, sosiallaşmasına təsir edir və ətraf aləmlə əlaqə qurmur, hər şeyə biganə yanaşır. Bu da öz növbəsində uşaqlarda gec dil açma probleminə gətirib çıxardır. Yaş artıqcada problemlərin əhatə dairəsi genişlənir və təhlükələr daha da çoxalır. Bu kimi təhlükəli halların baş verməməsi üçün böyüklər daim uşaqlara nəzarət etməli və qayğı ilə yanaşmalıdırlar.

Nəqliyyat vasitələrinin bizim həyatımızda rolu kifayət qədər önəmlidir. Təhlükəsizliyimiz üçün bu vasitələrdən düzgün istifadə etməyi bilmək vacibdir. Bura təkcə nəqliyyat vasitələrinin idarə edilməsini aid edə bilmərik. Eyni zamanda piyada və sərnişin kimi təhlükəsizlik qaydalarına da ciddi riayət etməliyik. Təhlükə haqda informasiya dairəmiz genişləndikcə hər kəs yol qaydalarına ciddi əməl edir. Lakin üzərimizə düşən missiya bununla bitmir. Uşaqları bu qaydalarla tanış etmək, məlumatlandırmaq bizim üzərimizə düşür. Böyüklərin də yolda qeyri-düzgün davranışı az rastlaşdığımız hadisə deyil. Sürətlə gələn maşının qarşısından qaçan, işıqforun qadağanedici siqnalında yolu keçən, avtobus hərəkətdəykən ona minməyə və yaxudda düşməyə çalışan insanlar haqda olduqca çoxlu nümunələr vardır. Bu cür hallar baş verdiyi halda biz uşaqlara necə nümunə ola bilərik? Buna görə də hər kəs üzərinə düşən vəzifəni layiqincə yerinə yetirməlidir. Uşağa yol təhlükəsizliyi haqda məlumat verərkən yaşını, potensialını nəzərə almaq vacibdir. Təhlükədən qorunmaq haqda məlumat verərkən öz sözlərimizlə, incitmədən fikrimizi çatdırmalıyıq. Hər hansı oyun vasitəsilə maarifləndirmə işini həyata keçirə bilərik. Əyani şəkildə də uşaqlarla iş aparmaq mümkündür. Bunun üçün işıqfor quraşdırılmış yerdən keçməli, bu vaxt işıqforun hansı işığında keçmək lazım olduğunu izah edib, yol hərəkəti qaydalarını pozan insanlar varsa ona göstərib yanlış hərəkət etdiklərini, doğru olanı izah etmək lazımdır. Uşaqlara nəqliyyat vasitələrinə minib-düşərkən tələsməmələrini, səs-küy salıb nadinclik etməmələrini başa salmalıyıq.

Məktəbəqədər yaşlı uşaqların rasional və təhlükəsizlik qaydalarına uyğun qidalanması əhalinin və gələcək nəsillərin sağlamlığının təmin olunması üçün vacib şərtdir və strateji əhəmiyyət daşıyır. Gələcək nəsillərin sağlam böyüməsi və uşaqların fiziki cəhətdən normal inkişafını təmin edən ən vacib komponent onların düzgün qidalanması ilə bağlıdır. Özündə gündəlik lazımi qida dəyərini ehtiva edən qida maddələrindən ibarət balanslaşdırılmış qida rasionu uşaq orqanizminin böyüməsi və normal inkişafını təmin edir. Düzgün qidalanma xüsusilə uşaqların immunitetinə müsbət təsir etməklə orqanizmin dözümlülüyünü artırır, onların psixoloji cəhətdən düzgün inkişafına əlverişli şərait yaradır. Odur ki, uşaq bağçalarının təhlükəsiz qida məhsulları ilə təmin edilməsi və uşaqların sağlam qidalanması çox böyük əhəmiyyət kəsb edir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə məktəbəqədər yaşlı uşağın təhlükəsizliyini təmin etmək üçün bir sıra qabaqlayıcı tədbirlərin həyata keçirilməsindən söhbət açılmışdır.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasında məktəbəqədər təhsilin proqramı (kurikulumu). Bakı: Təhsil Problemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzinin nəşriyyatı, 2015,-96 səh.

2. Воропаева А.В., Старовойтова Е.Н. Современные средства массовой информации как система формирования и трансляции социальных норм и ценностей, http://www.gosbook.ru/node/57586

3. 29 avqust 2002-ci il tarixli 99/372 nömrəli Azərbaycan Respublikası Mərkəzi Seçki (Referendum) Komissiyasının Qərarı ("Azərbaycan" qəzeti 19 iyun 2002-ci il, № 216)

**Məqalənin redaksiyaya daxil olma tarixi: 19.01.2021**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 12.02.2021**
**Məqalənin çapa qəbul olunma tarixi: 15.03.2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə elmlər doktoru, professor Museib İlyasov**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №1, 2021, **s. 70-75**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2021, **с. 70-75**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2021, **pp. 70-75**

**UOT 373.2**

**P.N.Kərimova**
Magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Az 1000, Bakı ş., Ü.Hacıbəyli küçəsi, 68
e-mail: pkarimova@beu.edu.az

# UŞAĞIN SOSİALLAŞMASINA AİLƏDƏ VALİDEYNLƏRLƏ ÜNSİYYƏTİNİN TƏSİRİ

***Açar sözlər:*** *ailə, valideyn, ünsiyyət, sosial mühit*

Uşağın şəxsiyyətinin formalaşmasına və uşağın tərbiyəsinə ən böyük təsir göstərən ailə münasibətləridir. Ailədə həyat üçün lazım olan keyfiyyətlər, fikirlər və istiqamətlər şəxsiyyətin formalaşması üçün ən vacib vasitə olmuş, olmuş və olacaqdır. Ailə uşağın tərbiyəsi üçün məsuliyyət daşıyan ən əhəmiyyətli təlim-tərbiyə müəssisəsidir. Ailənin sosial mikromühiti ilə uşaqlar tanışdır. Müasir həyatda uşaqlara sosial dəyərlər və rollar haqqında məlumatlandırmaq və onları qarışıqlıqlara və ziddiyyətlərə sövq etmək vacibdir.

**П.Н.Каримова**

# ВЛИЯНИЕ ОБЩЕНИЯ С РОДИТЕЛЯМИ В СЕМЬЕ НА СОЦИАЛИЗАЦИЮ РЕБЕНКА

***Ключевые слова:*** *семья, родитель, общение, социальная среда*

Именно семейные отношения оказывают наибольшее влияние на личность и воспитание ребенка. Качества, идеи и направления, необходимые для жизни в семье, были, были и будут важнейшими средствами формирования личности. Семья – важнейшее образовательное учреждение, ответственное за воспитание ребенка. Дети знакомы с социальной микросредой семьи. В современной жизни важно информировать детей о социальных ценностях и ролях и побуждать их к замешательству и конфликтам.

**P.N.Karimova**

## THE INFLUENCE OF COMMUNICATION WITH PARENTS IN THE FAMILY ON THE CHILD'S SOCIALIZATION

***Keywords:*** *family, parent, communication, social environment*

It is family relationships that have the greatest impact on a child's personality and upbringing. The qualities, ideas and directions necessary for life in the family have been, have been and will be the most important means for the formation of personality. The family is the most important educational institution responsible for the upbringing of the child. Children are familiar with the social micro-environment of the family. In modern life, it is important to inform children about social values and roles and to motivate them to confusion and conflict.

Hər bir uşaq bağçaya müxtəlif ailələrdən gəlir. Hər bir ailənin də özünəməxsus xüsusiyyətləri malik olur. Bu səbəbdən də uşaq öz ailəsindəki mühitdə əldə etdiyi davranış nümunələri ilə gəlir. Hər bir tərbiyəçi-müəllim də uşaqla ünsiyyət qurarkən öz peşəkarlığından istifadə edir. Yaddan çıxarmaq olmaz ki, uşaqlar həssas olur və onların hər biri özünəməxsus xüsusiyyətlərə malikdir. Buna görə də hər bir peşəkar tərbiyəçi-müəllim uşaqla ünsiyyətdə olarkən onun maraqlarını, arzu və istəklərini, düşüncələrini nəzərə almağı, uşaqla səmimi münasibət qurmağı, çoxlu suallar verərək ən çətin vəziyyətlərdə belə onu ünsiyyətə cəlb etmənin yollarını tapmağı bacarmalıdır.

Araşdırmalardan aydın olur ki, valideynlərin öz uşaqlarının hansısa tərbiyəçinin qrupunda təlim-tərbiyə olunmalarını arzu etmələrinin əsas səbəblərindən biri təkcə o tərbiyəçinin yaxşı bilikli olması deyil, həm də onun uşaqlarla səmimi ünsiyyət qura bilməsi, uşaqlarla mehriban olması, ümumiyyətlə yüksək pedaqoji ustalığa malik olmasıdır. Tərbiyəçi-uşaq-valideyn ünsiyyətinin düzgün qurulması təlim-tərbiyənin səmərəli nəticəsindən xəbər verir. Belə ki, uşaqlar tərbiyəçinin qayğıkeşliyini, nəzakətli rəftarı ilə qarşılaşdıqca bu kimi müsbət keyfiyyətlər onlarda da qarşılıqlı hörmət, kollektivçilik, insanpərvərlik, humanistlik kimi gözəl xüsusiyyətlər yaradır.

Ailə şəxsiyyətin sosiallaşması üçün ən vacib qurumdur. Tam olaraq ailədə, bir insan ilk sosial qarşılıqlı təcrübəni qazanır. Ailənin üzvlərinin ruhi sağlamlığını yaxşılaşdırmaq gücüylə bir şəxsiyyət yaranır.

Ailə, insan cəmiyyətinin təhlükəsizliyinin bütövlüyündən asılı olduğu miniatür bir cəmiyyətdir. Uşaqlıq dövründə ailədə qazanılanları uşaq hər şeyi özündə saxlayır. Ailə uşaqlığın beşiyidir. Yenidoğulmuş uşaq üçün ən

əhəmiyyətli sosial mühit onun ailəsidir, uşağın şəxsiyyətində təcəssüm etdirilən bütün xüsusiyyətlər məhz ailədə qazanılır.

Valideynlərlə uşağın ünsiyyətinin emosional dərinliyi, duyğuların "mübadiləsi" uşağın ətrafdakı hər şeyi necə qəbul etdiyinə, hisslərinin dərinliyinə təsir göstərir. Ailə uşağın zehni inkişafında aparıcı rol oynayır və eyni zamanda uşaqların öyrənməyə olan münasibətinə təsir göstərir. Sosiallaşmanın bütün mərhələlərində ailənin təhsil səviyyəsi, ailə üzvlərinin maraqları uşağın intellektual inkişafına, mədəniyyətinə, tərbiyəsinə təsir göstərir.

Ailədəki norma və dəyərlər də uşağın inkişafında mühüm rol oynayır. Uşaqlıqda ailədəki norma və dəyərlərin mənimsənilməsi uşaqda iz buraxır. Uşaqlar böyüklərin aləmi ilə bir çox mövzular üzrə əlaqələndirilir, müxtəlif təsirlər yaşayır, onlarda bu dünyaya və bütövlükdə ayrı-ayrı nümayəndələrinə qarşı qeyri-müəyyən bir münasibət formalaşır. Uşağın yaşlılar aləmi ilə ünsiyyəti sadəcə böyüklərin həyatını gördükdə, söhbətlərini eşitdikdə, münasibətlərini müşahidə etdikdə davam edir.

Bundan əlavə, uşaq valideynlərini təqlid edir, onların nümunəsini (şüurlu və ya şüursuz) rəhbər tutur, yəni onlarla davranışını, hərəkətlərini müəyyənləşdirir. Ətraf aləmlə çox qısa və müvəqqəti əlaqələr də uşaqların şəxsiyyət kimi formalaşmasında və onların sosial inkişafı prosesində mühüm rol oynayır.

Ailə mühitindəki dəyərlər uşağın özünü dəyişdirməsi, özünüdərketməsini təyin edir. Hər şeyə əsaslanaraq onu demək mümkündür ki, uşağı həyata hazırlamağın ilk mərhələsi məhz ailədə həyata keçirilir. Ailə mədəni və mənəvi dəyərlərini uşağa ötürür və uşaq qavrayır, gələcək həyat üçün bacarıqlar əldə edir.

Valideynlər uşağın ilk sosial mühitini təşkil edir. Uşaq valideynlərinin nümunəsini əldə rəhbər tutur. Uşaqların düzgün böyüyüb boya-başa çatması ailədə münasibətlərin necə qurulmasından, ailədə hansı dəyərlərin mövcud olmasından, ailədəki yaşlı nümayəndələrin hansı maraqlara malik olmasından çox asılıdır. Ailə mühiti uşaqların zehni və fiziki sağlamlığına böyük təsir göstərir.

Uşaq böyüklərin davranışına çox həssas yanaşır və ailə tərbiyəsi prosesində tez bir zamanda öyrəndiklərini həyatda tətbiq edir. Ailə uşağı həyata hazırlayır, gələcək cəmiyyət üçün fayda verəcək vətəndaş davranışının əsasını qoyur.

Bəzən valideynlər uşağın daxili dünyasını başa döşmür və onu anlamaqda çətinlik çəkirlər. Uşaqlar tez-tez valideynlərinin işinin çoxluğu səbəbindən valideyn sevgisi, məhəbbəti və diqqəti çatışmazlığı yaşayırlar.

Uşaqların belə bir ailə tərbiyəsində böyüməsi çox vaxt onlarda açıq-aşkar bir eqoizm, təkəbbür, dözümsözlük kimi keyfiyyətlər yaradır. Bu da uşağın həmyaşıdları bə böyüklərlə ünsiyyət qurmaqda çətinliklərlə qarşılaşmasına səbəb olur.

Uşağın şəxsiyyəti ailədə formalaşır, ailə onun mənəvi hisslərini, sosial davranış bacarıqlarının tərbiyəsi üçün ilk məktəbdir. Uşağın mənəvi xarakteri gündəlik həyatı, ailənin təməlləri ilə ailənin bütün həyatından qaynaqlanır. Təcrübə göstərir ki, məktəbəqədər yaşlı uşağın ilk tərbiyəsi ailədə qoyulmalı və düzgün təşkil olunmalıdır.

Bir çox araşdırmaçılar uşağa yaxın olan valideynlərin sevgisi, qayğısı, diqqəti uşaqda təhlükəsizllik hissinin yaradılmasına səbəb olduğunu qeyd edir və göstərirlər ki, ünsiyyət uşaqda özünə hörmət, özünəgüvən hissini formalaşdırır və özünə hörmətini artırır.

Məktəbəqədər yaşlı uşaqların sosiallaşmasında əsas vəzifə tərbiyəçinin üzərinə düşür. Uşaqlarda kobudluq, ətrafdakılara qarşı biganəlik kimi mənfi keyfiyyətlərin olması məhz tərbiyəçinin uşağın tərbiyəsində yol verdiyi nöqsanlarla əlaqədardır. Tərbiyəçilərin bir qismi məktəbəqədər yaşlı uşaqlarla səmimi ünsiyyət qurmaqda, onlarla əməkdaşlıq etməkdə çətinlik çəkirlər.

Bir çox bağçanın ailə ilə əlaqəsi zəifdir. Uşaq bağçası ilə valideynlərin tələbləri arasında böyük əlaqəsizliyi aradan qaldırmaq üçün tərbiyəçilər tərəfindən heç bir əməli iş aparılmır.

Valideyn ilə səmimi ünsiyyət, əlaqə qurma şəraitində uşaq ona güvənir və asanlıqla ətrafdakılarla da münasibətdə ola bilir.Valideyn uşağa qarşı soyuq. Laqeyd münasibəti, övladına qarşı olan biganəlik, sevgisizlik, qayğısızlıq uşağın fəaliyyətini azaldır və bunun nəticəsində uşaq özünə qapanır, özünə inamsız olur. İnkişafında

Uşaq bütün varlığı ilə hiss etməlidir ki, o, valideynləri üçün olduğu kimi əzizdir. Yəni bütün xüsusiyyətləri, çatışmazlıqları ilə çox əzizdir, bu, uşağın sosial-emosional inkişafında mühüm əhəmiyyət kəsb edir.

Uşaq onu əhatə edən bir çox yaşlıdan sevgi və qayğı görməyə başlayır. Uşaq və yaşlı arasındakı münasibət daha çox yaşlının təşəbbüskarlığından irəli gəlir.Yaşlının ünsiyyətçil olması və onun xeyirxahlığı uşaqda müsbət sosial keyfiyyərlərin inkişafı üçün əsas şərt kimi çıxış edir. Yaşlının əsəbiliyi, diqqətsizliyi uşaqda özünə inamsızlıq, utancaqlıq kimi keyfiyyətlərin yaranmasına səbəb ola bilər və uşaqda "Uğur qazanmayacağam", "Bilmirəm", "Bacarmıram və heç vaxt da bacarmayacağam" kimi fikirlər formalaşır.

Uşağın valideynləri ilə münasibətləri necə inkişaf edir, bu münasibətlərdə hansı yeri tutacaq, özünə münasibətindən asılıdır. Valideynlərin uşaqlarla ünsiyyət tərzi, ailə üzvlərinin bir-biri ilə qarşılıqlı münasibətlərində, ailə

mikroiqlimində əks olunur. Bu baxımdan ailə üzvlərinin ünsiyyətindəki qüsurlar, baş verən xoşagəlməz hadisələr, ilk növbədə, uşaqların psixikasına mənfi təsir göstərir və uşağın digər insanlarla münasibətlərinin pozulmasına səbəb olur və onların ətrafdakılarla ünsiyyət qurmasına maneçilik törədir, ümumiyyətlə uşağın düzgün, ahəngdar inkişafının pozulmasına gətirib çıxarır.

Uşaq ailənin ümumi həyatında iştirak etdikdə əsl ünsiyyət bacarıqları bu vaxt onda formalaşır. Ünsiyyət, dialoq tərbiyəsi, ünsiyyətin ən vacib xüsusiyyəti uşaq və valideyn arasında mövqelərin bərabər qurulmasıdır. Uşaqla gündəlik ailə ünsiyyətində buna nail olmaq çox çətindir. Çünki valideynin gücü, təcrübəsi olduğu halda uşaq fiziki cəhətdən zəif, təcrübəsiz olaraq valideyndən asılı olur, müstəqil olmur. Lakin, buna baxmayaraq, valideynlər mövqelərin bərabər qurlması üçün daima səy göstərməlidirlər. Mövqelərin bərabərliyi uşağın tərbiyə prosesində aktiv rolunun tanınması deməkdir. Ünsiyyətdəki bərabər müvqelərlə uşaqlar həm də valideynlərin özləri üzərində bir tərbiyə təsiri göstərirlər. Uşaqların ünsiyyət bacarıqlarına yiyələnməsində ailənin rolu daha böyükdür. Çünki uşaq gününün çox hissəsini ailədə keçirir.

Ünsiyyət prosesində valideynlər nitq mədəniyyətinə düzgün şəkildə yiyələnməli və uşağa yaxşı nümunə olmalıdırlar. Uşağın qarşısında digər insanlarla ünsiyyət qurarkən çalışmalıdırlar ki, kobud, yersiz və xoşagəlməz xarakterli sözlərdən istifadə etməsinlər. Çünki bu kimi sözlər uşaqların yaddaşında daha tez qalır və uşaq sözün mənasını bilmədən həmyaşıdları ilə ünsiyyətdə olarkən həmin sözlərdən istifadə edirlər.

Beləliklə, kiçikyaşlı uşaqların sosial inkişafının bünövrəsi ailədə qoyulur və bunun təməlində duran mühüm amillərdən biri də uşağın ətrafdakılarla ünsiyyət fəaliyyətidir. Uşağın ətraf aləmlə tanış olub onu dərk etməsi, özündən kiçiklər və həmyaşıdları ilə əməkdaşlıq edib, onları anlaması kimi müsbət keyfiyyətlərə yiyələnməsi onun sosiallaşmasında mühüm əhəmiyyət kəsb edir. Bu da ancaq ilk növbədə valideynlərin övladları arasında səmərəli ünsiyyətən qurulması əsasında mümkündür.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasında Məktəbəqədər Təhsil Proqramı (Kurikulumu) (3-6 yaş). Bakı: Təhsil Problemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzinin nəşriyyatı, 2015, 96 s.

2. Azərbaycan Respublikasının “Təhsil haqqında” Qanunu. Bakı 2009, 36 s.

3. Ağayev Ə.Ə., Rzayeva Y.T., Hüseynova T.M., Vahabova T.Ə. Sosial Pedaqogika. Bakı 2008, 178 s.

4. Baxışova Ş.A. Məktəbəqədər Təhsil: Konseptual problemlər. Bakı: Elm və təhsil, 2015, 308 s.
5. Əlizadə H.Ə. Sosial pedaqogikanın aktual məsələləri. Bakı: Səda, 1998, 344 s.
6. Əliyeva G.B. Psixologiya. Ali məktəblər üçün dərslik. Bakı: ADPU, 2015, 172 s.
7. Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı. Bakı: 1998, 210 s.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 24.02.2021**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 02.03.2021**
**Məqalənin çapa qəbul olunma tarixi: 15.03.2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə elmlər doktoru, professor Museib İlyasov**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

# QAYDALAR

Azərbaycan Dövlət Pedaqoji Universitetinin «Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri» jurnalında məqalələr Azərbaycan, rus və ingilis dillərində çap olunur. Məqalənin əlyazmasını kompüterdə Microsoft Word redaktorunda Azərbaycan, rus və ingilis dillərində, Times New Roman şrifti ilə, 12 ölçüdə, 1 intervalla, A4 formatlı ağ vərəqdə tərtib etmək lazımdır. Məqalənin həcmi 4-5 səhifədən az olmamalıdır.

Məqalənin başlanğıcında məqalənin UOT indeksi, müəllifin soyadı, adı, atasının adı, işlədiyi müəssisə və onun ünvanı, vəzifəsi, elmi adı, elmi dərəcəsi və ya fəxri adı, e-mail ünvanı, daha sonra, məqalənin adı, məqalə hansı dildə yazılmışsa həmin dildə qısa xülasəsi və açar sözlər (6-10 söz) verilməlidir. Məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və sair aydın şəkildə verilməlidir.

Daha sonra digər iki dildə xülasə (müəllifin adı və məqalənin adı həmin dillərdə göstərilməklə) («Резюме» və «Summary») və həmin dillərdə açar sözləri («Ключевые слова» və «Keywords») verilməlidir. Məqalələrin müxtəlif dillərdə olan xülasələri bir-birinin eyni və məqalənin məzmununa uyğun olmalıdır. Xülasələr elmi və qrammatik baxımından ciddi hazırlanmalıdır.

Məqalədə verilən ədəbiyyat siyahısı əlifba ardıcıllığı ilə deyil, istinad olunan ədəbiyyatların mətnində rast gəlindiyi ardıcıllığı ilə nömrələnməli və məsələn, [1] və ya [1, s. 119] kimi işarə olunmalıdır. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

**Kitab və jurnallara istinad aşağıdakı qaydada verilməlidir:**

1. Müəllifin soyadı və inisialı. Kitabın adı. Cildin nömrəsi. Şəhər: nəşriyyat, nəşr ili, ümumi səhifələrin sayı;
2. Müəllifin soyadı və inisialı. Məqalənin adı // Jurnalın adı, nəşr ili, buraxılış nömrəsi, başlanğıc-son səhifələr.

**Məqalənin quruluşu:**

- Məqalənin UOT indeksi;
- Müəllifin soyadı, adı, atasının adı;
- İşlədiyi müəssisənin adı, vəzifəsi, elmi adı və elmi dərəcəsi, fəxri adı (və ya doktorant və ya dissertant olduğu təşkilatın adı, təhsilin forması);
- İşlədiyi müəssisənin (və ya doktorant olduğu təşkilatın) ünvanı (poçt nömrəsi göstərilməklə);

- Müəllifin e-mail ünvanı;
- Məqalənin yazıldığı dildə qısa xülasəsi və açar sözlər (6-10 söz);
- Baş hərflərlə məqalənin adı;
- Məqalənin mətni;
- İstinad olunmuş ədəbiyyat siyahısı;
- Digər iki dildə məqalənin adı və müəllifin adı və soyadı göstərilməklə qısa xülasəsi və açar sözlər (6-10 söz).

**Məqalə aşağıdakı hissələrdən ibarət olmalıdır:**

- Giriş;
- Məsələnin qoyuluşu;
- Məsələnin həlli;
- Nəticə (elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və sair);
- Ədəbiyyat.

**Məqalənin redaksiyaya təqdim olunması:**

- Məqalənin çap olunmuş əlyazması (1 nüsxədə) və onun elektron variantı Compact Diskdə (CD və ya CD-RW) və məqalənin çap olunması üçün müəssisə tərəfindən təsdiq olunmuş müvafiq sənədlərlə (məqaləyə 2 rəy və təşkilatın (kafedranın) iclas protokolundan çıxarış) birlikdə jurnalın məsul katibinə (Üzeyir Hacıbəyli küçəsi 68, ADPU, AZ 1102) təqdim edilməlidir.
- Ayrıca vərəqdə müəllif haqqında anket-məlumat əlavə olunmalıdır. Məlumatda müəllifin soyadı, adı, atasının adı, elmi dərəcəsi, elmi adı, müəssisənin adı, müəssisənin ünvanı, ev ünvanı, e-mail ünvanı və telefon nömrəsi göstərilməlidir.
- Məqalə jurnalın İnternet səhifəsinə göndərilə bilər. E-mail: n_s_q@mail.ru
- Lazım gəldikdə jurnalın redaksiyası məqalənin nəşri üçün əlavə sənədlər tələb edə bilər.
- Məqalənin əlyazması və CD geri qaytarılmır.

***Qeyd: Qaydalar Ali Attestasiya Komissiyasının tələblərinə uyğun tərtib olunub.***

# ПРАВИЛА ОФОРМЛЕНИЯ СТАТЕЙ

В журнале «Актуальные проблемы музыкальной науки, культуры и образования» Азербайджанского Государственного Педагогического Университета статьи публикуются на азербайджанском, русском и английском языках. Рукопись статьи должна быть набрана на компьютере в программе Microsoft Word на азербайджанском, русском и английском языках шрифтом Times New Roman, размером 12, интервалом 1, форматом А4. Объем, статьи должен быть не менее 4-5 страниц.

В начале статьи дается индекс УДК, фамилия, имя, отчество автора, место работы (адрес учреждения), должность, ученое звание, ученая степень или почетное звание, e-mail, затем дается название статьи, краткое резюме и ключевые слова (6-10 слов) на том языке, на котором написана статья. В конце нужно четко и ясно показать новизну, практическую значимость и эффективность работы в соответствующей области науки.

Далее дается краткая аннотация на двух других языках (указать автора и название статьи) («Резюме» и «Summary») и ключевые слова («Ключевые слова» и «Key words») на этих языках. Все резюме должны отражать содержание и подготовлены очень строго с научной и грамматической точки зрения.

В статье список литературы дается не по алфавитному порядку, а по порядку цитат, например, [1] или [1, с.119]. Цитата из одной и той же литературы дается предыдущим номером.

**Цитаты из книг и журналов даются в следующем порядке:**

1. Фамилия и инициалы автора. Название книги. Том. Город: издательство, год издания, количество страниц.
2. Фамилия и инициалы автора. Название статьи // Название журнала, год издания, номер издания, начальная и последняя страницы.

**Последовательность оформления (структура) статьи:**

- Индекс УДК;
- Фамилия, имя, отчество автора;
- Название учреждения, место работы, должность, ученое звание, ученая степень или почетное звание (или название организации докторанта или диссертанта, форма учебы) адрес учреждения (или организации докторанта), где работает (указать почтовый номер);
- e-mail автора;

- Краткое резюме и ключевые слова (6-10 слов) на том языке, на котором написана статья;
- Название статьи прописными буквами;
- Текст статьи;
- Список использованной литературы;
- Краткое резюме на двух других языках (с указанием автора и названия статьи) и ключевые слова (6-10 слов) на этих языках.

**Статья должна состоять из следующих частей:**

- Введение;
- Постановка проблемы;
- Решение проблемы;
- Выводы (новизна, практическая значимость и эффективность работы в соответствующей области науки);
- Литература.
- **Представление статьи в редакцию:**
- Рукопись статьи (1 экземпляр) и ее электронный вариант на Compact Disk (CD или CD-RW) и соответствующие документы для публикации статьи, утвержденные учреждением (2 рецензии и выписка из протокола заседания организации (кафедры)) должны быть представлены ответственному секретарю журнала (улица Узеира Гаджибейли 68, АГПУ, AZ 1102).
- Анкета-справка об авторе представляется отдельно. В справке нужно указать фамилию, имя, отчество автора, ученое звание, ученую степень, название и адрес учреждения, домашний адрес, e-mail и номер телефона.
- Статью можно послать на Интернет-страницу журнала. E-mail: n_s_q@mail.ru
- В случае необходимости редакция журнала может потребовать дополнительные документы для публикации статьи.
- Рукопись статьи и CD не возвращаются.

***Примечание: Правила составлены в соответствии с требованиями Высшей Аттестационной Комиссии***

# RULES

In the journal of «Actual problems of the science, culture and education of music» of Azerbaijan State Pedagogical University articles are published in Azerbaijani, Russian and English languages. Articles must be written on the computer in Microsoft Word with Times New Roman type of 12 size, l interval and on a white paper of A4 format. Pages of the article must be not less than 4-5.

At the top of the article it must be noted UOT index of article, name and surname of the author, his place of work and post address, scientific degree, honorary title, e-mail, title of the article, its short summary, and key words (6-10) At the end of the article it must be clearly written about scientific novelty of the article, importance of its research, economical benefit etc.

At the end of the article it must be noted list of references, in two languages title of the article, name of the author summary and keywords.

Content of the summaries in two languages must be same and suit to the content of the article. Summaries must be written grammatically and scientifically. List of references must not be given in alphabetical order but in the order of their place in the article, for example, [1] or [1, p. 119]. If any literature is used in the article repeatedly it must be noted by the previous number.

**Reference to books and journals must be given as below:**

1. Surname and initials of the author. Title of the book. Number of the volume. City: edition, publication year, number of pages.
2. Surname and initials of the author. Title of the article// Name of the journal, publication year, issue number, the first and the last pages.

**Structure of the article:**

- UDC index of the article;
- Name and surname of the author;
- Place of work and post, scientific degree, honorary title (it must be noted name of the institution where one is a candidate for a degree or a doctor for a degree);
- Address of work (or institution where one is a doctor for a degree);
- E-mail of the author;
- A short summary and keywords (6-10 words) of the article in the same language that was the article written in;
- Title of the article in capital letters;
- Text of the article;
- List of references;

- Short summary and key words by indicating the name of article, name and surname of author in other two languages (6-10 words).

**The article must consist of the following parts:**

- Introduction;
- Putting of task;
- Solution of task;
- Conclusion (scientific innovation, applied significance, economic benefit of the work conforming to character of the scientific field and article, etc.);
- Literature.

**Submission of the article to revision:**

- The printed manuscript of the article (in 1 copy) and its electron variant is to be submitted to the responsible secretary of the journal in Compact Disc (CD or CD-RW) together with proper documents certified by institution for printing of the article (2 references to the article and extract from meeting protocol of the organization (department)) (68, Uzeyir Hajibayli str., ASPU, AZ 1102).
- Information form about author is to be attached in separate sheet. Surname, name, father's name, scientific degree, scientific title of author, name of institution, address of institution, home address, e-mail address and phone number is to be indicated in the information.
- The article may be sent to internet page of the journal. E-mail: n_s_q@mail.ru
- If necessary, revision of the journal may require further documents for publication of the article.
- Manuscript of the article and CD is not returned.

***Note: The rules framed in accordance with the requirements of the Higher Attestation Commission***

*Nəşriyyatın direktoru:* Hüseyn Hacıyev
*Texniki redaktor:* Mustafa Şəfiyev
*Korrektor:* Sevinc Mamoyeva

Çapa imzalanmış: 15.03.2021.
Kağız formatı $70 \times 100^{1/16}$. 5,125 ç.v.
Sifariş 60. Sayı 200.

---

**ADPU-nun mətbəəsi**
Bakı, Ü.Hacıbəyli küçəsi, 68
Tel.: 493-74-10